**Cild: 20 Say: 1** **ISSN 2218 – 0346**
**2017**

# AZƏRBAYCAN ARXEOLOGİYASI

**Təsisçi**
Hamlet İsaxanlı

**Baş Redaktor**
Qüdrət İsmayılzadə

**Redaktor müavinləri**
Roza Arazova
Tarix Dostiyev
Bəhlul İbrahimli

**Məsul katib**
Sevda Hüseynova

**İşçi heyəti**
Xəqani Həbibzadə
Akifə Cəfərli

**Redaksiya heyəti**

Yüksel Sayan (Türkiyə)
İsmayıl Hacıyev (Azərbaycan)
Bertyill Lyonnet (Fransa)
Rauf Munçayev (Rusiya)
Mehmet Özdoğan (Türkiyə)
Vəli Baxşəliyev (Azərbaycan)
Otar Caparidze (Gürcüstan)
Ayman Dosimbayeva (Qazaxıstan)
Maya Rəhimova (Azərbaycan)
Mehmet İşıqlı (Türkiyə)
Lauren Listven (ABŞ)
Andreas Şaxner (Almaniya)
Murtuzəli Hacıyev (Rusiya)

**Volume: 20 Number: 1** **ISSN 2218-0346**
**2017**

# AZERBAIJAN ARCHAEOLOGY

**Founder**
Hamlet Isaxanli

**Editor in Chief**
Qudrat Ismayilzadeh

**Editorial Assistants**
Roza Arazova
Tarikh Dostiyev
Bahlul Ibrahimli

**Deputy Editors**
Sevda Huseynova

**Staff members**
Xaqani Habibzadeh
Akifa Jafarli

**Editorial Board**

Yuksel Sayan (Turkey)
İsmail Hajiyev (Azerbaijan)
Bertille Lyonnet (France)
Rauf Munchayev (Russia)
Mehmet Ozdoghan (Turkey)
Vali Baxshaliyev (Azerbaijan)
Otar Japaridzeh (Georgian)
Ayman Dosimbayeva (Kazakhstan)
Maya Rahimova (Azerbaijan)
Mehmet Ishikli (Turkey)
Lauren Listvest (USA)
Andreas Schachner (Germany)
Murtuzali Hajiyev (Russia)

© COPYRIGHT 1999  Khazar University Press
All Rights Reserved

AZ1096 Azərbaycan Respublikası
Bakı şəhəri, Məhsəti küçəsi, 41
Xəzər Universitəsi

Khazar University 41 Mehseti str.,
Baku AZ1096 Republic of
Azerbaijan

Üz qabığında:

***Oynoxoyya. Gil.  Qəbələ, Səlbir ərazisi, Azərbaycan***

Cover page depicts:

***Oinochoe. Clay. Qabala, the Selbir site. Azerbaijan***

На обложке:

***Ойнохоя. Глина. Габала, городище Сельбир. Азербайджан***

Telefon: (99412) 4217927 (219)
Faks: (99412) 4989379
E-mail: contact@khazar.org
jaa@khazar.org
website: http://www.khazar.org
www.azerbaijanarcheology.com

KHAZAR UNIVERSITY PRESS



***Всякое “было” есть загадка.***

*Фридрих Ницше*

***All happened in the past is mystery.***

*Friedrich Nietzsche*

***Bütün keçmişdə baş vermişlər tapmacadır.***

*Fridrix Nitsşe*

# İÇİNDƏKİLƏR


***Fəttah Xalıqzadə*** - Musiqi arxeologiyasının perspektivləri .......................... 9

***Orxan Zamanov*** - Müharibə, onun mənşəyi və öyrənilməsi (Tarixşünaslıq və mənbəşünaslıq) .................................................. 17

***Zeynəb Quliyeva*** - Naxçıvanın neolit dövrü keramikasının funksional və texnoloji xüsusiyyətləri ............................................................. 41

***Toğrul Xəlilov*** - Naxçıvanın erkən tunc dövrü keramikası üzərindəki ornamentlər haqqında ....................................................................... 58

***Şamil Nəcəfov*** - Üzərliktəpə yaşayış yeri (Şəmkir rayonu) ......................... 69

***Tarix Dostiyev, Vahid Fərzəliyev, Fərid Seyfullayev*** - Orta əsr Şəmkir şəhər yerindən tapılmış oduncaq nümunələrinin dendroarxeoloji tədqiqi ........................................................................................ 84

***Sayad Mehtizadə***- Azərbaycan xalq geyimlərinin Qərbi Avropa səyyahlarının gündəliklərində təsviri ............................................. 93

**Yeni kitablar** ........................................................................................ 98

## CONTENTS

*Fattah Khaligzade* - On the perspectives of music archaeology ..................9
*Orkhan Zamanov* -War, its origin and investigation (historiography and source study) ..................17
*Zeyneb Guliyeva* - Functional and technological features of the neolithic ceramics of Nakhchivan ..................41
*Togrul Khalilov* - The early bronze age ornaments of Nakhchivan region ..................58
*Shamil Najafov* - Uzaliktepe settlement (Shamkir district) ..................69
**Tarikh Dostiyev, Vahid Farzaliyev, Farid Seyfullayev** - Dendroarchaeological investigation of the wood samples from the medieval town of Shamkir ..................84
*Sayad Mehtizadeh* - Azerbaijani national clothing in the diaries of western travelers ..................93

**New Books** ..................98

## СОДЕРЖАНИЕ

***Фаттах Халыкзаде*** - О перспективах музыкальной археологии ......... 9

***Орхан Заманов*** - Война, его происхождение и изучение (историография и источниковедение) ..................................... 17

***Зейнаб Гулиева*** – Функциональные и технологические особенности неолитической керамики Нахчывана .............. 41

***Тогрул Халилов*** - Об орнаментах на керамике эпохи ранней бронзы Нахчывана ............................................................ 58

***Шамил Наджафов***– Поселение Узерликтепе (Шамкирский район) ............................................................................ 69

***Тарих Достиев, Вахид Фарзалиев, Фарид Сейфуллаев*** - Дендроархеологическое исследование образцов древесины из средневекового городища Шамкир................. 84

***Саяд Мехтизаде*** - Азербайджанская народная одежда в дневниках западноевропейских путешественников ............................... 93

**Новые книги**............................................................................ 98

Azərbaycan Areologiyası Volume 20 № 1 2017, 9-16
© Khazar University Press 2017
DOI: 10.5782/2218-0346.2017.20.1.9

# Musiqi arxeologiyasının perspektivləri

**Fəttah Xalıqzadə**
(Azərbaycan Milli Konservatoriyası)
halikzade@mail.ru

**Açar sözlər:** musiqi arxeologiyası, çalğı alətləri, orqanologiya, fənlərarası metod və yanaşmalar, artefakt, arxeoloji və tekstoloji mənbələr

*Giriş.* Mənşəyi qədim tarixi dövrlərə gedib çıxan musiqi alətlərinin öyrənilməsində arxeoloji mənbələrin böyük rolu vardır. Haqqında bəhs etmək istədiyimiz elm sahəsinin adından da məlum olduğu kimi, musiqi arxeologiyası iki fərqli fənnin qovşağında meydana gəlib, keçmiş musiqi mədəniyyətlərinin və qədim insanların musiqili davranışlarının tədqiqi ilə məşğul olur. Musiqi ilə bağlı olan arxeoloji materiallar epiqrafik, filoloji, epik, etnoqrafik, miniatür rəsm və s. mənbələrlə yanaşı bəşər tarixinin daha qədim dövrlərinə gedib çıxır, beləliklə də musiqi elminin mühüm bir tədqiqat obyektini təşkil edir. Bu sahədə çalışan mütəxəssislərin arxeoloji metod və üsullara yiyələnməsi tələb olunsa da, qədim musiqi artefaktlarının lazımi qaydada tədqiqi musiqişünasların da iştirakını şərtləndirir.

Dünya miqyasında götürdükdə bu gün musiqi arxeologiyası müstəqil bir elm sahəsini əmələ gətirir və mütəxəssislər daha uğurlu araşdırmaları yerinə yetirmək üçün müxtəlif fənlərlə sıx əməkdaşlığa can atırlar. İCTM – Ənənəvi Musiqi üzrə Beynəlxalq Şuranın tərkibində 1980-cı ildə yaradılmış *Musiqi Arxeologiyası* adlı Tədqiqat qrupunun (Study Group) səmərəli fəaliyyəti dediklərimizi parlaq şəkildə təsdiq edir. Qrupun indiyə qədər keçirilmiş Beynəlxalq elmi konfranslarında fəal iştirak etməsi, İCTM-nın Ümumdünya konqreslərinə vaxtaşırı olaraq qatılması və müəyyən nəşrləri, məsələn “Yearbook for Traditional Music” vol.41, (Ənənəvi Musiqi üzrə İllik kitab, cild 41, 2009) mütəxəssislərin birgə fəaliyyətini, qazanılmış nailiyyətləri və gələcək perspektivləri aydın şəkildə əks etdirir.

Azərbaycanın tarixçi, etnoqrof, arxeoloq və musiqişünas alimləri də zaman-zaman qədim musiqi artefaktları ilə qarşılaşmış və onları ciddi şəkildə tədqiq etməklə məşğul olmuşlar. Görkəmli tarixçi və etnoqraf akademik T.Bünyadovun “Əsrlərdən gələn səslər” adlı kitabında (4) musiqi alətlərimiz müxtəlif mənbələr (o cümlədən, arxeoloji qaynaqlar) əsasında işıqlandırılmış və orqanologiya (alətşünaslıq) mütəxəssislərinin böyük marağına səbəb olmuşdur.

Azərbaycan arxeoloqları Vətənimizin ərazilərində dəfələrlə maraqlı alətlərlə qarşılaşmışdırlar. Məsələn, Mingəçevir və Qarabağ eksponatları

musiqi mütəxəssislərinin də elmi diqqətini özünə cəlb etmiş, Cığamış yaxınlığında (Cənubi Azərbaycan) tapılmış və üzərində, ibtidai ansamblın (nəfəs, zərb və simli alətlər) təsvir olunduğu qızıl cam 8 minillik tarixi ilə Amerika arxeoloqlarını heyrətə gətirmişdir.

Musiqi arxeologiyasının ən inkişaf etmiş sahəsi musiqi alətləri ilə bağlıdır. Çünki, on minilliklərin musiqi tarixi bizə çalğı alətlərindən başqa heç bir miras qoymamışdır. Təbii ki, Azərbaycanın etnoorqanoloqları, sənətşünaslıq doktorları S.Abdullayeva, A.Nəcəfzadə və başqaları da öz araşdırmalarında arxeoloji tapıntılara müraciət edirlər. Respublikamızda musiqi arxeologiyası müstəqil elm sahəsinə çevrilməsə də, onun zəngin potensial imkanları vardır. Bu mənada mövcud olan arxeoloji musiqi materialları ilə yanaşı, metodoloji yanaşmaların da böyük əhəmiyyəti vardır.

*Bəzi metodoloji yanaşmalar.* İki elm sahəsini özündə birləşdirən musiqi arxeologiyasının hazırkı məsələlərinə nəzər salsaq, müxtəlif elmlərin sıx vəhdətini daha müfəssəl şəkildə qeyd etmək olar. Bir tərəfdən alətşünaslıq, musiqi tarixi və XX əsrin ortasında meydana gəlmiş etnomusiqişünaslıq həmin sahəyə müxtəlif mövqelərdən yanaşırsa, arxeologiyanın özündə də fərqli cərəyanlar meydana gəlmiş (*ənənəvi və yeni arxeologiya, etnoarxeologiya, eksperimental arxeologiya)* və onların musiqi tarixinə tətbiqi qədim musiqi mədəniyyətlərinin müxtəlif aspektlərini işləməyə böyük imkanlar açır.

Musiqi arxeologiyası çalğı alətləri ilə məhdudlaşmayaraq, özünün tədqiqat obyektini daha əhatəli şəkildə müəyyən edir. Burada musiqi alətləri tədqiqatların başlıca mövzusunu təşkil etsə də, onlara mədəniyyətin ayrılmaz bir hissəsi kimi baxılır və bütövlükdə musiqinin cəmiyyət həyatında oynadığı rolun hərtərəfli şəkildə öyrənilməsi məqsədi irəli sürülür. Musiqini tədqiq edən tarixçilər kimi, arxeoloqlar da qədim mədəniyyətlərin tam şəkildə gün işığına çıxarılmasını xülya hesab edir, bununla belə keçmişin cüzi bir hissənin aydınlaşdırılmasına da bir qənimət kimi baxaraq, öz araşdırmalarına səylə davam edirlər.

Musiqi arxeologiyası, istər bütöv, istərsə də fraqmentar olsun, çalğı alətlərini, onların təsvirlərini, ifa vəziyyətlərini və mövcudluq şəraitini, bəzən isə həmçinin musiqi həyatının müəyyən mənzərələrini də araşdırır. Təbii ki, bu işlərin nəticələri arxeoloji kontekst və əgər varsa, yazılı sənədlərdən xeyli dərəcə də asılıdır. Bundan başqa, memarlıq tikililəri, insanların yaşamış olduqları mağaralar və digər təbii məkanların akustik xüsusiyyətləri də musiqi arxeoloqlarının tədqiqat sahəsinə daxil ola bilər. Nəhayət, özündə müəyyən qədimlik izlərini daşıyan canlı folklor təcrübəsi də müqayisələr məqsədi ilə istifadə oluna bilər.

Görkəmli alimlər elmi araşdırmaların məğzini daha doğru və dürüst şəkildə ifadə etmək məqsədi ilə “musiqi arxeologiyası” adının hər iki tərə-

finə yenidən baxılmasını təklif edirlər. Birincisi, qədim musiqi mədəniyyətlərinin tədqiqində bəzən arxeoloji tapıntılardan yox, etnoqrafiya, linqvistika və etnomusiqişünaslıq faktlarından istifadə olunur. Lakin təklif olunan adlar (məsələn, *paleo- orqanology* yaxud *archaeomusicology*) hələ musiqi arxeologiyası anlayışını tam mənada əvəz etmək iqtidarında deyildir.

Digər tərəfdən, qədim mədəniyyətlərin heç də hamısında hazırda qəbul edilmiş "musiqi" anlayışı olmamışdır. Hətta görkəmli Amerika etnomusiqişünas alimi Timosi Rays dünya xalqlarının rəngarəng mədəniyyətlərində musiqinin funksiya və vəzifələrini açıqlayan müxtəlif təyinləri "metafiora" adı ilə şərh edir. Bundan başqa, musiqi istər qədim dövrlərdə, istərsə də hazırda canlı şəkildə yaşayan folklor yaradıcılığında müstəqil şəkildə mövcud olmayaraq, "ilkin sinkretizmin" ayrılmaz tərkib hissəsini təşkil etmişdir. Bu səbəbdən, bəzən fənnin adı kimi, *səsin arxeologiyası (sound archaeology*) kimi yeni bir adda təklif olunur.

Musiqi arxeologiyasının hamılıqla qəbul edilmiş ümumi prinsipi *fənlərarası metodun* tətbiqi ilə bağlıdır. Belə ki, araşdırmalarda tarix, arxeologiya, etnoqrafiya, linqvistika, musiqişünaslıq, orqanologiya, akustika v.s. sahələrdən tez-tez istifadə olunur.

Arxeoloji mənbələrin aşkar edilməsi hələ onların tarixini açıqlamaq üçün yetərli olmur. Bu sətirlərin müəllifi 2003-cü ildə Lənkəranda apardığı ekspedisiya zamanı belə bir faktla qarşılaşmışdı. Bizə rayonun Səpinəkəran kəndində qazıntılar zamanı tapılmış böyük meyvə çəyirdəyinə bənzəyən bir əşya göstərdilər. Yan tərəflərində olan dəliklər vasitəsilə quşların cəh-cəhli oxumasını xatırladan melodiyalar çalındığı üçün həmin əşyalara adətən quş tütəyi deyilir. Deyilənlərə görə, alətin ən azı üç min il yaşı varmış. Lakin musiqi təhlilləri vasitəsilə bu ehtimalı yoxlamaq mümkün deyildi. Arxeoloq-alimlər yaxınlıqda tapılmış digər materiallara da nəzər salmağı tövsiyə edirlər.

Bəzən həmin məqsədlə təbiət və dəqiq elmlərin tədqiqat üsullarından da istifadə olunur. Təsadüfi deyil ki, ixtisasca kimyaçı olan alimlər tarix elminə də müdaxilə edir və hər iki sahədə (kimya və tarix) gözə çarpan elmi nailiyyətlər əldə edirlər. Buna bənzər maraqlı bir hadisə Çin arxeologiyasında baş vermişdir. Ölkənin əyalətlərindən birində tapılmış nəfəs alətlərinin (şərti olaraq, tütək dəstinin) 8 minillik yaşı məhz kimyəvi analizlər vasitəsilə müəyyən edilmişdir.

Musiqi arxeologiyası ilə etnomusiqişünaslıq arasında həm oxşar, həm də fərqli cəhətləri qeyd etmək olar. Məsələn, sonuncuya aid olan *musiqi-nəzəri və antropoloji (etnoqrafik)* yanaşmalar müvafiq olaraq musiqi səslərinin özünə və ya onların ictimai-mədəni kontekstinə yönəlir. Arxeoloji araşdırmaların maddi əşyalar üzərində və ya etnoqrafik kontekstdə aparılması haradasa etnomusiqişünaslığın qeyd olunmuş iki qolu ilə analogiyalar oyadır.

Lakin musiqi arxeologiyası ilə etnomusiqişünaslığın oxşar məsələlərə münasibəti arasında bir mühüm fərq də vurğulanmalıdır. Əgər musiqi arxeologiyasında keçmişin musiqi nümunələri və davranışlarından çıxış etməklə, onları canlı folklor ənənələrilə müqayisə edirlərsə, etnomusiqişünaslıq tarixi zaman daxilində əks istiqamətdə-müasirlikdən başlayıb qədimliyə hərəkət edir, başqa sözlə, bugünün nümunələrində keçmişin izlərini arayıb-axtarırlar. Eyni zamanda bu yanaşmalar bir-birini tamamlamaq iqtidarındadırlar.

Mövcud arxeoloji mənbələrə görə təhlil üsullarının seçilməsi tədqiqatlarda mühüm bir şərtdir və qabaqcadan müəyyən olunmalıdır. Aydındır ki, tədqiqat obyektinin qədimliyi elmi vəzifələri çətinləşdirirsə, faktiki materialların zənginliyi isə əksinə dəyərli elmi nəticələrin alınmasına müsbət təsir göstərir.

*Etnoarxeologiya* keçmişin maddi tapıntılarını çağdaş mədəniyyət prizmasında dəyərləndirir, onların hazırlanma texnologiyasını öyrənir, digər mədəniyyətlərlə müqayisələr aparır. Beləliklə də, etnoarxeologiya musiqi artefaktlarını öyrənərkən musiqi arxeologiyası ilə etnomusiqişünaslıq arasında körpü rolunu oynayır.

Belə bir önəmli cəhəti də nəzərə almaq lazımdır ki, qədim dövrlərin musiqisi haqqındakı təsəvvürlər adətən statik xarakter daşıyır və mövcud materialların qıtlığından irəli gəlir. Hər hansı mədəniyyət özünün daxili imkanları əsasında inkişaf etdiyi kimi, kənar təsirlərə də məruz qalaraq onları öz içərisində əridir. Bu zaman isə iqtibaslar özlərinin məna və funksiyalarını dəyişə bilər. Bu gün yer kürəsinin müxtəlif guşələrindən tapılmış musiqi alətlərində zahiri bənzərliklər nəzərə çarpsa da, onların məzmun və formasında böyük və bəzən hətta təzadlı fərqlər də ola bilər.

Dünya elmində özünə yer alan *eksperimental arxeologiya* musiqi alətlərinə də tətbiq oluna bilər. Bu zaman arxeoloqlar əsrlərdən və qərinələrdən gələn səslər aləmini sadəcə kənardan seyr etmir, onların canlandırılmasına və müasir insanlara təqdim edilməsinə də həmçinin səy göstərirlər.

Eksperimental arxeologiyanın birinci mərhələsi alətlərin hazırlanması ilə bağlıdır. Növbəti mərhələdə onların çalğı üsulları sınaqdan keçirilir. Nəfəs alətlərinin dəlikləri və ya dəst halında tapılmış idiofonlu alətlər qammaların öyrənilməsinə imkan yaratsa da, melodik və ritmik sistemlərin bərpası müşkül bir problem olaraq qalmaqdadır.

Qeyri-adi istedada malik olmuş mərhum etnoorqanoloq alim, professor və xalq artisti Məcnun Kərim (1940-2013) özünün axtarışlarında bilavasitə arxeoloji materiallardan faydalanmamışdır. Eyni zamanda o, musiqi arxeologiyasının və eksperimental arxeologiyanın irəli sürdüyü vəzifələri digər mənbələr əsasında (məsələn, şeir və miniatur rəsm sənəti, elmi risalələr və.s) uğurla həyata keçirmişdir. Yaxşı məlumdur ki, professor qədim musiqi alətlərinin yalnız zahiri forması ilə kifayətlənməmiş, onların tembr, di-

namika və kök kimi mühüm akustik keyfiyyətlərini də canlandırmış, beləliklə də, tarixi musiqi nümunələrini orijinala yaxın tərzdə səsləndirməyə gözəl imkanlar açmışdır.

*Musiqi arxeologiyası. Tədqiqat qrupunun bir nəşri barədə.* Ənənəvi musiqi üzrə illik kitab (7) dünya musiqi arxeologiyasında gedən müasir tədqiqat prosesləri haqqında ümumi təsəvvür yarada bilir. Əgər kitabın Müqəddimə məqaləsində Arved Adje Both elm sahəsinin aktual metodoloji və nəzəri məsələlərindən ətraflı şəkildə bəhs edirsə, sonrakı 5 məqalə Yer kürəsinin müxtəlif ərazilərində son zamanlar aparılmış konkret araşdırmaları (*case studies*) təqdim edir – Yaxın Şərq, Çin, Cənubi-Şərqi Asiya, Qərbi Avropa, Mezoamerika.

Tədqiqatların zaman çərçivələri mövcud mənbələrin tarixindən asılı olaraq, müxtəlifdir və e.ə II minillikdən bizim eranın IX-XVIII əsrlərini əhatə edir. Musiqi arxeologiyasının ibtidai dövrlərə baş vura bilməsinə baxmayaraq bəzi materiallar nisbətən yaxın tarixi keçmişə də işıq salır. Həmin səbəbdən musiqi arxeologiyasının tədqiqat obyekti çox zaman ümumiyyətlə keçmişin musiqi mədəniyyətləri və davranışları kimi açıqlanır. Məqalələrin məzmunca rəngarəngliyinə baxmayaraq, onların hamısında arxeoloji faktların müvafiq musiqi mədəniyyəti daxilində yerləşdirilməsinə uğurlu səy göstərilir.

Yaxın və Orta Şərq ölkələri musiqi-arxeoloji materiallarla olduqca zəngindir. Bu sahəni tədqiq etmiş Qərb alimlərindən Sam Mirelmanın məqaləsini qeyd etmək lazımdır: *Qədim İraq. Suriya və Türkiyədə musiqi və musiqiçilərin sosial tarixində yeni gəlişmələr./ New Developments in the Social History of Music and Musicians in Ancient İraq, Syria and Turkey* ( 7. p.12-22 )

Bununla bağlı olaraq, müəyyən şəxsi təəssüratlarımı da bildirmək istərdim. Həmin alətlərin əlvan rəngli təsvirləri İstanbul Teknik Universitetinin nəzdindəki Türk Musiqisi Dövlət Konservatoriyasının kitabxanasında divardan asılaraq uğurlu bir şəkildə təbliğ olunmaqdadır. Təsvirlər konservatoriyanın müəllim və tələbələrini, habelə buraya gələn qonaqları dərhal özünə cəlb edir, onları qədim və əsrarəngiz musiqi dünyasına aparır. S. Mirelman özünün məqaləsində Mesopatamiyadan (indiki Türkiyə, İraq və Suriyadan) tapılmış gil lövhələrinə (rusca – клинопись – çivi yazılar) əsaslanaraq, qədim musiqi mədəniyyətini işıqlandırmışdır

Digər tədqiqatçı İnqrid Furnis qədim Çin musiqi mədəniyyətini arxeoloji mənbələr və yazılı sənədlər əsasında araşdırır. *Unearthing China's Informal Musicians.Archaeological and Textual studies from Shang to Tang periods/Çinin Yer üzünə çıxarılmış qeyri-formal musiqiçiləri. Şanq və Tanq dövrlərində arxeoloji və tekstoloji tədqiqatlar* (7. p.23-41).

Hər iki sivilizasiyada (Mesopatamiya və Çində) bir sıra ümumi cəhətləri görmək olar: hökmdarların saraylarında qadın ifaçıların olması, musiqi tərbiyəsinin və alətlər istehsalının xüsusi şəxslərə həvalə olunması, məbəd musiqisinin yayılması, musiqiçilərin müharibələrdə qalib tərəfə ərmağan edilməsi hər iki halda müşahidə olunur.

Musiqi arxeoloqları bir çox əsrlər ərzində yerin alt qatlarına gömülmüş alət və təsvir nümunələri ilə bərabər bəzən dəniz və okean sularına qərq olmuş nümunələr, onların mübadiləsi və yayılması barədə də araşdırmalar aparmalı olurlar. Dəniz ticarəti ilə məşğul olmuş bir gəminin Hind okeanında batması zamanı musiqi alətləri də eyni acı taleyi yaşamışdır. Həmin hadisədən neçə əsr keçdikdən sonra gəmi okeanın dibindən çıxarılmış və içindən tapılmış alətlər (əsasən idiofonlar) musiqi-arxeoloji tədqiqatlara cəlb olunmuşdur. Bu mənbələr ölkələr arasında ticarət əlaqələrinin olması ilə yanaşı mədəni əlaqələri də düşünməyə əsas verir. Bax: *Arsenio Nikolas. Gongs, Bells and Cymbals: Archaeological Record in Maritime Asia from the Nineth to the Seventeenth Centuries. /Qonqlar, Zənglər və Sinclər.IX-XVII əsrlərin Asiya dənizçiliyində arxeoloji qeydləri* (7. p.62-93)

Kitaba daxil edilmiş bəzi məqalələr qədim mədəniyyətlərin qarşılıqla əlaqələri məsələsini aşkar edir. Belə mübadilələr Qərbi Avropaya gəlib çıxmış Jew Harp və Cənub-Şərqi Asiya regionunda yayılmış zəng, zınqrov və sinc vasitəsilə öyrənilir.

Sonuncu alətlər, zatən idiofonlar olaraq, dəniz sularına batmış bir gəmidən tapılmışdır. Çin, Vyetnam, İndoneziya, Hindistan kimi ölkələrin arasında mövcud olmuş dəniz ticarətində həmin musiqi alətləri də müəyyən yer tutmuşdu (qonq və zənglər IX-XIII əsrlərdə, sinclər isə XIII-XVII əsrlərdə). Müəllif musiqi mədəniyyətlərinin mühüm göstəricisi olan alət istehsalı mərkəzlərindən də xəbər verir. Həmin alətlər saraylarda, məbədlərdə, xalq bayramlarında və hətta bir yazılı mənbənin göstərdiyi kimi, hərbi yürüşlərdə də istifadə olunurdu.

*Jew Harp* (ağız qopuzu) aləti isə, Koltveitin araşdırmasına əsasən, İsveçrə, Skandinaviya, İngilis boğazının hər iki tərəfində istifadə olunmuşdu. Alətin Orta Asiya – Rusiya – Avropa marşrutu ilə yayılması ehtimal olunur. *Jew's Harp in Western Europe. Trade, Communication and Innovation. Ağız qopuzu . Ticarət, Kommunikasiya və İnnovasiya* (7. p.43-61). Çalğıçıların kimliyi barədə dəqiq yazılı mənbələrin yoxluğuna baxmayaraq, müəllif bu barədə müəyyən fərziyyələrini əsaslandırmağa çalışır.

Arxeoloji və yazılı mənbələr zəngin olduqda tədqiqatçıların əməkdaşlığı öz gözəl bəhrəsini verə bilər. Barber, Sandez və Olvera maral sümüyündən qayrılmış fleyta və onun ictimai-mədəni musiqi həyatında tətbiqi barədə dəyərli elmi məqalə yazmışdırlar. "Mezoamerikada ölüm və həyatın səsləri. Qədim Oaxakanın Sümük fleytaları *Sound of Death and Life in Mesoame-*

*rica. Bone Flute of Ancient Oaxaca* (7. p.94-110). Həmin alət Meksikanın sahil məntəqələrində, gənc oğlan məzarından tapılmış və qədim zamanlarda yerli əhalinin mərasimlərində mühüm yer almışdır. Məqalə də həmçinin geniş tarixi-mədəni konteksti ilə diqqəti çəkir.

Azərbaycan etnoorqonologiya elmi bir sıra alimlərin tədqiqatları sayəsində əhəmiyyətli inkişaf yolu keçmiş, eyni zamanda arxeoloji mənbələrə də üz tutmağa başlamışdır. Bu uğurları dünya musiqi arxeologiyasının nailiyyətləri əsasında davam etdirmək elmin qarşısında yeni üfüqlər aça bilər.

**ƏDƏBİYYAT**


1. Abdullayeva S. Azərbaycan xalq çalğı alətləri. Bakı, Adiloğlu, 2002, 454 s.
2. Kərim M. Azərbaycan musiqi alətləri. Bakı, İNDİGO, 210 s.
3. Nəcəfzadə A. Azərbaycan idiofonlu çalğı alətləri (orqanoloji-tarixi tədqiqat). Bakı, "MBM", 2010, 280 s.
4. Bünyadov T. Əsrlərdən gələn səslər. Bakı, Azərnəşr, 1993, 264 s.
5. Вертков К, Благодатов Г, Язовщкая Э. Атлас музыкальных инструментов народов СССР. Музгиз, 1963, 275 с.
6. Вызго Т.С. Музыкальные инструменты Средней Азии. Москва, Музыка, 1980, 190 с.
7. Yearbook for Traditional Music. Vol.41, 2009


## Summary

## On the perspectives of music archaeology

**Fattah Khaligzade**

This article is devoted to the problems of musical archaeology, which is characterised by the interdisciplinary methods to the study of artifacts, texts and ethnographical facts. Various approaches are demonstrated on the base of the articles written by the members of the Study Group on Music Archaelogy and is able to open new perspectives in the developments of ethnoorganology in Azerbaijan.

**Keywords:** musical archaeology, ethnoorganology, interdisciplinary methods, artifacts and texts

**Р е з ю м е**

**О перспективах музыкальной археологии**

**Фаттах Халыкзаде**

Статья посвящена вопросам музыкальной археологии, которую отличают междисциплинарные подходы, методы исследования артефактов, текстов и фактов этнографии. Применение подобных методов демонстрируется на примере статей, авторы которых входят в Международную исследовательскую группу по музыкальной археологии, способной открыть новые перспективы в развитии азербайджанской этноорганологии.

**Ключевые слова:** музыкальная археология, этноорганология, междисциплинарные методы исследования, артефакты, тексты

Azərbaycan Areologiyası Volume 20 № 1 2017, 17-40
© Khazar University Press 2017 DOI: 10.5782/2218-0346.2017.20.1.17

# Müharibə, onun mənşəyi və öyrənilməsi
## (Tarixşünaslıq və mənbəşünaslıq)

**Orxan Zamanov**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Xəzər Universiteti)
ordukaqan@yahoo.com

**Açar sözlər:** müharibə, müharibənin mənşəyi, militagenez, hərb tarixi və hərbi fikir

Müharibə və onunla bağlı meydana çıxan maddi-mədəniyyət nümunələri arxeologiya elminin başlıca mənbələrindən (39;75;133;134;135;157) olsa da, onun üzərində milli elmdə nəzəri-konseptual tədqiqat işi yazıya alınmamışdır (162,5-15; 154,28-30; 78; 7,4-6). Bu məsələ daha çox hərb tarixçilərinin və siyasi tarix üzrə ixtisaslaşan mütəxəssislərin diqqət mərkəzində olmuşdur (14; 18; 57; 17).

Müharibənin mənşəyi haqqında danışanda ilk öncə onun tarixi inkişaf formaları və tarixən mövcud analogiyalar barədə bəhs etmək lazımdır. Müharibənin tarixi inkişafı bilavasitə məhsuldar qüvvələrin (52;53;54) və cəmiyyətin iqtisadi imkanları ilə birgə baş vermişdir. Bu məsələlər ilə bağlı tarixən müxtəlif fəlsəfi, ideoloji və siyasi fikirlər ilə yanaşı geniş iqtisadi baxışlar da mövcuddur. Lakin bu fikirlər və baxışları şərh etməzdən öncə müharibənin mahiyyəti, anlamı, tərifi, keçmiş və müasir analogiyaları və ümumilikdə təbiəti (xarakteri) haqqında bəhs etmək vacibdir.

İlk öncə meydana gələn sual müharibənin nə olmasıdır. Müharibə nədir? Bu suala cavab birmənalı və konkret deyildir. Çünki, bu suala və ümumiyyətlə bu məsələyə tarixən siyasi-ideoloji baxımdan yanaşılıb. Bütün dövrlərdə müharibə siyasiləşib və siyasi mahiyyət daşıyıb. Son zamanlar çap olunmuş bəzi ədəbiyyatlarda müharibə obyektiv olaraq dövlətin siyasəti ilə bilavasitə bağlı hadisə və proses kimi şərh edilir (57, 9-19). Lakin, buna rəğmən istər XIX yüzillikdə, istər XX yüzillikdə, istərsə də XXI yüzillikdə müharibəyə olan münasibət çox ziddiyyətli və qeyri-obyektiv olmuşdur. Müharibələri pisləyən və tənqid edən tərəflər adətən zəif olmuş, sonradan gücləndikdə müharibənin labüd olduğunu müdafiə etmişdirlər[1]. Əksinə müharibənin zəruriliyini iddia edənlər məğlub olanda və ya zəifləyəndə mü-

[1] Misal üçün Marksizmdə ədalətli və ədalətsiz müharibələr bölgüsü özü-özlüyündə riyakar bir təsnifatdır. Müharibədə əslində ədalətli və ədalətsiz tərəf olmur. Öz torpaqlarını işğaldan azad etmək istəyən heç bir tərəf ard-arda zəfərlər qazananda həmişə düşmən torpaqlarına da yiyələnmiş, onları da qisas və təzminat olaraq ələ keçirmişdir.

haribənin qeyri-məqbul mübarizə yolu olmasını irəli sürmüşlər. Beləliklə, müharibəni pisləyən tərəf və ya müdafiə edən tərəf hərbi-iqtisadi gücünə görə belə etmişdir. Bəzi hallarda isə güclü tərəf sadəcə siyasi-diplomatik səbəblərdən müharibəni pisləmişdir. Bu zaman ideoloji pərdələnmədən istifadə edilməsi geniş yayılmış qayda kimi özünü büruzə verirdi. Məhz belə bir hal ilə müharibənin mahiyyəti Sovet elmində öz əksini tapmış oldu. Misal üçün Marksizmə əsaslanan Sovet elmi və tarixşünaslığının mövqeyini əks etdirən nəşrlərdə müharibəyə, onun mənşəyinə, formaları və mahiyyətinə olan münasibət ideoloji-siyasi baxımdan əks olunmuşdu (86; 95; 96;). Bunları nəzərə alaraq məsələyə "nisbi bitərəflik" mövqeyindən yanaşan ictimai şüur formasına və dünyagörüşünə müraciət edilməsi daha məqbuldur. Çünki, bilavasitə hərb elmində (hərbşünaslıqda) hansı ki, müharibə kimi çox vacib məsələnin hərtərəfli araşdırılması ilə məşğuldur bu məsəslə istər-istəməz siyasiləşib. Müharibəyə cəmiyyətin keçmişini öyrənən elm sahələrinin münasibəti isə ya eynilə siyasi təsir altındadır, və yaxud ümumiyyətlə bu təsirə məruz qalmamaq üçün belə məsələlər işlənilmir və ya münasibət bildirilmir. Lakin istərsə də tarix və onunla bağlı elmlər, istər antropologiya və ona bağlı sahələr tədqiqatlarının obyekti və predmetindən asılı olaraq müharibə probleminə bu və ya digər şəkildə toxunurlar. Biz isə məsələnin şərhinə fəlsəfə ilə başlamağı məqsədəuyğun hesab edirik. Beləliklə, fəlsəfəyə dair ümumiləşdirilmiş əsərlərdə və ensiklopedik lüğətlərdə müharibə dövlətlərin və bu dövlətlər daxilində siniflərin siyasətinin zorakılıqla davam etdirilməsindən ibarət olan ictimai-siyasi hadisədir (19,300; 175,86-87). Siyasətin zorakılıqla davam etdirilməsindən ibarət olan ictimai-siyasi hadisə kimi müharibə şərh olunarsa, bu zaman məşhur alman-prus hərb nəzəriyyəçisi Karl fon Klauvezin "Müharibə haqqında" əsərində deyildiyi anlamda müharibə siyasətin qanlı davamı kimi ifadə olunur (9,75-90). Bu fikri bir çox görkəmli hərb və siyasət xadimləri dəstəkləmişdirlər. Misal üçün Almaniyanı "qanla və dəmirlə" birləşdirmiş Otto fon Bismark müharibəyə olan münasibətini belə ifadə etmişdir: "Dövrün böyük məsələləri çoxluğun çıxışları və qətnamələri ilə yox, dəmir və qanla həll olunur!" (82,27).

Məsələyə obyektiv yanaşmalı olan sahələrdən biri də, iqtisad elmi və iqtisadi nəzəriyyədir. Bu sahələr ümumilikdə iqtisadiyyatın inkişafı qanunauyğunluqlarının öyrənilməsi ilə məşğul olduğundan, istər-istəməz müharibə kimi təsərrüfat üçün aktual məsələyə münasibət bildirməli idilər. Lakin iqtisadi maraqlar özü-özlüyündə müharibəni şərtləndirən amil olduğundan müxtəlif dövrlərdə, iqtisadi quruluşa və formasiyaya bağlılıqdan irəli gələn səbəblərdən iqtisadiyyatın müharibə ilə əlaqədar fikirləri yekcins olmamışdır (166, 173; 11). Üstəlik fərqli iqtisadi formasiyalarda və təlimlərdə müharibənin əsaslandırılması və ya rədd edilməsi müxtəlif səviyyələrdə və şəkillərdə həyata keçirilmişdir. Müharibə iqtisadiyyatını və hərbi sənaye

ilə bağlı A.Smitin, D.Rikardonun, K.Marksın, F.Engelsin, C.M.Keysin, və başqa iqtisadçıların baxışları haqqında mövcud ədəbiyyatları nəzərə alaraq burada onların mövqeyi üzərində dayanmaq doğru olmaz (166; 11).

Digər ictimai-şüur formalarının məsələyə yanaşması daha çox humanizm və siyasi sifariş ilə bağlı olmuşdur. İstər din və ya mifologiya, istər folklor və bədii-ədəbi düşüncə, istərsə də, incəsənət və hüquq müharibə mövzusuna özünəməxsus olsa da, siyasi-ideoloji cəhətdən yanaşmışlar və indi də, belə etməkdədirlər (10; 66; 159; 151).

Ancaq elm və elmi düşüncə müharibə kimi həssas məsələyə soyuqqanlı və obyektiv yanaşma nümayiş etdirmək iqtidarındadır(4; 31; 32; 38). Müharibəyə siyasi-ideoloji və hərbi baxışları gözdən keçirmədən elmi şərhə keçmək məqsədəuyğun deyil. İlk öncə politologiyanın, geostrategiyanın və sosiologiyanın yanaşması maraqlı məsələlərdəndir (24; 43; 102; 164; 179; 178).

Geosiyasət elminə görə müharibə siyasi məqsədlərə çatmaq üçün ən bahalı və qeyri-rasional (qeyri-səmərəli) üsul kimi qiymətləndirilir. Xüsusilə, geosiyasətdə hərbi-güc məkanının əhəmiyyətinin genişlənməsi və öyrənilməsilə bağlı olaraq silahlı qüvvələrin tətbiqi məsələsi həm siyasət elminin həm də, geosiyasətin diqqət mərkəzindədir (104, 41-58; 105, 28-34). Dünya geosiyasi fikir tarixi əsas etibarı ilə sülh və müharibə, münaqişələr, silahlı qüvvələr ilə bağlı məsələləri təftiş etmiş, hərbi-siyasi məqamları dərindən şərh etmişdir (103-85, 105, 109, 157, 221, 324, 364, 421, 443, 591). Politologiyaya görə müharibə dövlətin mütəşəkkil hərbi qüvvələri, yaxud digər siyasi strukturlar tərəfindən həyata keçirilən açıq silahlı zorakılıqdır (43, 221). Bəzi siyasət elminə həsr olunmuş nəşrlər müharibə anlayışından yan keçməyə çalışsalar da, hakimiyyətin mahiyyəti və məzmunu barədə bəhs edərkən zorakılıqdan və güc tətbiqindən, həmçinin güc balansından danışmalı olurlar (164, 75-85; 102, 98-115, 346-352, 448-454).

Bilavasitə hərbşünaslığın və hərbi nəzəriyyənin müharibə probleminə münasibəti çoxsaylı hərbi ensiklopedik lüğətlərdə və ümumiləşdirilmiş ədəbiyyatlarda öz əksini tapmışdır (169; 200; 87, 205-248, 282-288, 352-355; 97, 306, 337, 907-909; 96, 205).

Yuxarıda qeyd etdiyimiz ümumi, qısa icmaldan sonra müharibənin mənşəyi və yaranması (genezisi) və ya militagenez haqda olan elmi dəlillərdən və mövcud konsepsiyalardan bəhs edilməsi vacibdir. Ümumiyyətlə müharibə nədir? Əslində: müharibə - bir-birini tanımış, faktiki müstəqil olan dövlətlər və dövlətlər ittifaqının silahlı yolla qarşılıqlı münasibətlərini müəyyənləşdirməsidir.[2]

Müharibənin aşağıdakı başlıca xüsusiyyətləri mövcuddur.

---

[2] Bu tərif məqalənin müəllifinin hələ universitet illərində oxuduğu zaman hərb tarixi və savaş sənətilə bağlı ilk araşdırmalarını apararkən meydana çıxmışdır.

1) Ordu və ya silahlı hərbi qüvvələr tərəfindən aparılır.
2) Sülh müqaviləsi və ya razılaşma ilə bitir.

Yuxarıda qeyd edilən xüsusiyyətlərə aşağıdakı beş əlaməti (xassəni) əlavə etmək lazımdır.

Müharibənin başlıca əsaslı əlamətləri:

1) Müharibə kütləvi xarakter daşıyır.
2) Müharibə ordular və qoşunlar vasitəsilə aparılır.
3) Müharibə sistemli fəaliyyət sahəsidir.
4) Müharibənin hər zaman bəlli iqtisadi, ideoloji və siyasi səbəbi, məqsədi və hədəfi vardır.
5) Müharibənin ilkin hazırlıq, konkret başlanma, müddətli gedişat və rəsmi bitmə zamanı vardır. Hər bir müharibə hərbi və iqtisadi potensiala əsaslanaraq müəyyən davamiyyətə və müddətə malikdir.

*Öyrənilmə tarixi, tarixşünaslıq və mənbəşünaslıq.*

Müharibənin mənşəyi, yaranışı və təkamülü ilə bağlı ilk fikirlər Qədim Şərq ölkələrində meydana çıxmışdır. Bütün elm və sənət sahələrində olduğu kimi yenə də, Qədim Şərq xalqları eynilə müharibə məsələsinə ilk olaraq münasibət bildirmişlər.

Faktiki olaraq bir çox müasir elmlərin və bilik sahələrinin əsası məhz Tunc dövründə qoyulmuşdur (132, 23). Bəllidir ki, Tunc dövrü və ümumilikdə Paleometal dövrü Qədim Şərq cəmiyyətlərinin inkişafa başladığı, tarix səhnəsinə çıxdığı və hegemonluq etdiyi bir tarixi mərhələdir (42; 48; 68; 101; 124). İlk öncə Qədim Misirdə müharibə məsələsinə toxunmaq lazımdır. Təəssüf ilə qeyd edilməlidir ki, Misir e.ə. III-II minilliklərdə çox qapalı ksenefob və dini-mistik baxışların üstünlük təşkil etdiyi bir ölkə idi. Bu baxımdan Qədim Səltənət və ya sülalələr dövrünün yazılı ədəbiyyatı üç janr ilə təmsil olunmuşdu ki, bunlardan ancaq biridə - bioqrafik xarakterli mətnlərdə hərb məsələsinə toxunulurdu. Digər janrlar dini poeziya və əxlaqi təlimlərdən ibarət idi. Lakin avtobioqrafik xarakterli ədəbiyyatda Asuan üzərinə Xarkxufanın yürüşləri və Uninin bədəvilər üzərində qələbələrindən bəhs olunur. (132, 131). Baxmayaraq ki, Qədim Misirdə xeyli miqdarda elmi biliklər toplanmışdı ancaq onlar bunu nəzəri tədqiqata çevirməmişdilər. Əldə olan yazılı elmi-empirik sənədlər əsas etibarı ilə tibb və riyasiyyat ilə bağlıdır. (132). Eynilə sonrakı dövrlərdə Qədim Misirdə hərb sahəsilə əlaqədar nəzəri və ya tətbiqi ədəbiyyat və araşdırma meydana çıxmadı. Halbuki, e.ə. II-I minilliklər Misir tarixi hərbi əməliyyatlar ilə zəngindir. (204, 350-391; 124, 43-44, 57-59; 70; 71; 185, 260-338). Lakin, Qədim Misir indi olduğu kimi çox münbit geostrateji və təbii ərazidə yerləşmişdi. Onu coğrafi olaraq dənizlər və səhralar əhatələyir. Üstəlik Misir dünyanın nadir ölkələrindəndir ki, özünü təmin edəcək resurslara malikdir. Xüsusilə də, paleometal dövründə Qədim Misir hökmdarlarının xarici hərbi səfərləri epizodik

xarakter daşıyır (180, 7-32; 177). Bu mənzərəyə Misir əhalisinin vuruşqan olmayan təbiətini əlavə etdikdə, təəccüblü deyil ki, bu ölkədə hərb işi və döyüş sənəti populyar və aktual deyildi. Qədim Misir tarixinin çox hissəsini müstəqil və azad ölkə kimi yaşayıb. Onu əhatə edən xalqlar isə Misir üçün ciddi təhlükə törətmirdilər (204, 350-391; 146, 15-30; 70). Ancaq, Yeni səltənət dövründə Misir fironları öz iqtisadi və siyasi maraqlarını qorumaq üçün Ön Asiyada geniş miqyaslı hərbi əməliyyatlar aparmışdırlar (23, 63-90; 71; 2, 14-20). Məhz bu qısa müddətli dövr dünya hərb elminə və döyüş sənətinə öz ilk töhvələrini verdi (98, 22-39; 58, 11-19).

1) İlk hərbi paradlar və döyüş təlimləri.
2) İlk sistemli və ardıcıl hərbi kampaniya.
3) İlk beynəlxalq, müharibəyə son qoyan rəsmi müqavilə.

Məhz yuxarıda qeyd edilən məsələlər tarixin bütün dövrlərində hərb ilə bağlı olacaq faktorlardır.

İkinci müharibə ilə bağlı bəhs edilməsi vacib Qədim Şərq ölkəsi İkiçayarasıdır. Bu bölgə öz coğrafi və təbii xüsusiyyətinə görə Nil vadisindən tamamilə fərqlənir. Uzun dövr ərzində Şumerdə xırda şəhər dövlətlər mövcud olmuş və ölkə vahid şəkildə çox gec birləşdirilmişdi (132, 175; 123). E.ə. III minillik Şumer tarixində şəhər-dövlətlərin mübarizəsi kimi xarakterizə olunur (60; 68, 72-145). Hətta daha əvvəlki dövrlərdə və sonralarda bu dövlətlərin qonşu ölkələrə yürüşləri və ekspansiyası[3] müşahidə olunsa da, Şumer daha çox ticarət və əkinçilik ənənələrinin təşəkkül tapdığı bir ölkə olaraq qalırdı (22, 127-294; 55, 101-150; 1, 571-608; 23, 68-94; 26, 67-97),. Bunun tam əksinə İkiçayarasının şimal hissəsində Akkad çarlığında vəziyyət başqa idi. Burada hərb işi kifayət qədər irəlləmişdi. Sonrakı mərhələdə e.ə. II minillikdə istər Birinci Babil çarlığı, istər Kassi sülaləsi, istərsə də Mittaniya və Assuriya hegemonluğu zamanında İkiçayarasında hərbi nəzəriyyə və traktatlar ortaya çıxmadı (194,211-225, 263-270). Buna rəğmən məhz burada ilk hərbi texnologiyalar və innovasiyaların döyüş sənətinə tətbiqi əyani sürətdə özünü büruzə verdi (132,175-194; 147-162). Bu nailiyyətlərin çoxu bəşər tarixinin ilk işğalçı imperiyası olan Assuriyanın adı ilə bağlıdır (77,302-313). E.ə. III-I minilliklər ərzində İkiçayarası dünya hərb işinə və döyüş sənətinə əhəmiyyətli nailiyyətlər bəxş etdi:

---

[3] Uruk ekspansiyası anlayışı müasir arxeologiyada son zamanlar geniş yayılmışdır. Bu terminin istifadəsi və anlamı ilə bağlı Mehmet Özdöğanın, Marçella Frangipaninin, Bertill Lyonettin, Fərhad Quliyevin, Nəcəf Museyiblinin, Tufan Axundovun və bir sıra digər tədqiqatçıların yazıları vasitəsilə tanış olmaq mümkündür. Həmçinin məqalənin tərtibi zamanı ortaya çıxmış məsələ qədim Şumer dastanları ilə bağlıdır. Bu dastanlarda ("Enmerkar və Aratta hökmdarı", "Luqalbanda və Enmerkar", "Luqalbanda və Hurrum dağı", "Enmerkar və Ensukuşsiranna" və "Gilqameş və Aqa") yad ölkə və diyarlara səfərlər, yürüşlər və mübadilə barədə məlumatlar vardır. Ehtimal etmək olar ki, onların yaranması İkiçayarasında erkən şəhər-dövlətlərin təşəkkülü zamanı hərbi və ticari xarakterli ekspansiyalar dövrünü özündə əks etdirir.

1) Döyüş arabaları və hərbi təchizat sistemi
2) Peşəkar və nizami ordu
3) Qaladələn, deşən və dağıdan texnika və s.

Paleometal dövründə Qədim Şərqin digər bölgələrində sinifli cəmiyyətin və siyasi sistemlərin təşəkkül tapması ilə əlaqədar istər Kiçik Asiyada[4], Orta Şərqdə və Qafqazda, istərsə də Cənubi Asiyada Misir və İkiçayarasında müşahidə olunan proseslər yerli amillərin meydana gətirdiyi fərqliliklər nəzərə alınmaqla eyni cür təzahür edirdi (115; 22; 55). Lakin, bir bölgədə hadisələr tam başqa səpgidə e.ə. I minillikdə getməyə başladı. Bu bir-birinə iqtisadi-ticari və mədəni-sosial aspektdən bağlı olan amma, coğrafi, etnik, təbii və sivilizasion baxımından çox fərqli iki subqitədə - Mərkəzi Asiyada və Uzaq Şərqdə özünü göstərdi (161, 187-374; 21, 76-85; 61; 196; 94; 93; 95).

Mərkəzi Asiya geniş coğrafiyası və sərt təbii şəraiti ilə insanlıq tarixinin bütün dövrlərində hərb işinin və döyüş sənətinin mərkəzlərindən olmuşdur (61; 21,76-110). Bu bölgədə Paleometal dövrünün sonlarından başlayaraq özünəməxsus etno-mədəni və geosiyasi sistem formalaşmağa başladı. Bölgə rəngarəng iqtisadi, etnik və mədəni inkişaf səviyyəsinə malik idi. Məhz bu bölgədə e.ə. VIII – eramızın XVIII yüzilliklərinin hərb tarixini müəyyən edəcək *türk savaş sənəti* ortaya çıxmışdır (21,85-107; 61). Lakin eynilə Qədim Şərqin digər bölgələri kimi burada e.ə. III-I minilliklərdə hərbi nəzəri fikir öz formalaşma mərhələsində idi.

Yuxarıda bəhs edilən subqitədən fərqli olaraq Uzaq Şərqdə həm təbii şərait, həm coğrafi vəziyyət, həm iqtisadiyyat(təsərrüfat), həm də siyasi təşkilatlanma tamamən başqa idi. Xüsusilə də, Xuanxe və Yansızı çayları vadisində təşəkkül tapan IV qüdrətli Qədim Şərq sivilizasiyası olan Qədim Çində e.ə. III-II minilliklər hərbi-siyasi hadisələr ilə zəngin olsa da, digər Qədim Şərq ölkələrindən fərqlənmirdi. Məhz e.ə. I minillikdə Qədim Çin dünya hərb elminə və döyüş sənətinə ilk nəzəri əsərləri bəxş etmiş oldu. Bu dövrdə Çində fəlsəfə və elm dövrünü qabaqlayan temp ilə inkişaf edirdi. Buna ölkənin zənginliyi və təbii-coğrafi şəraiti ilə bərabər, eyni zamanda siyasi-hərbi pərakəndəlik, xarici müdaxilələr və daxili üsyanların meydana gətirdiyi təlatümlər rəvac verirdi. Müqayisə üçün qeyd etmək olar ki, eramizin XV-XVII yüzilliklərində İtaliyada, XVI-XIX yüzilliklərində Almaniyada eyni proseslər təzahür edirdi.

Çində hərb fəlsəfəsinin yaranmasına bilavasitə klassik fəlsəfi məktəblərin və təlimlərin – Moizm, Leqizm, Daosizm və Konfusiçiliyin təşəkkülü müstəsna təsir göstərmişdir. Eyni zamanda mistik-dini mühitin üstünlüyünə

---

[4] Kiçik Asiya yarımadası, müxtəlif dövrlərdə ayrı-ayrı adlar altında tanısa da, ən geniş yayılanı Anadolu adıdır, amma bu məqalədə coğrafiya elmində qəbul edilmiş anlayışlardan istifadə olunur.

rəğmən ilk rasional elmi baxış məhz bu dövrdə Çində meydana çıxmışdı (68, 438-455; 195, 159-197). Belə bir şəraitdə artıq e.ə. I minilliyin I yarısında Çində "Vuruşan çarlıqlar" adlı tarixi mərhələdə bir-birinin ardınca iki hərbi traktat meydana çıxdı. Bunlardan biri e.ə. VI-V yüzilliklərə aid edilən Sun Szinın "Müharibə sənəti" əsəri, digəri isə e.ə. V-IV yüzilliklərə aid olan U-Szinin "Müharibə sənəti" əsəridir (184; 8, 13-17). Düzdür bu əsərlərin hər ikisi əyani tələblərə uyğun və poetik tərzdə tərtib olunub və bunlarda müharibənin mənşəyi məsələsinə bilavasitə toxunulmur amma, bu hərbi nəzəriyyə və fəlsəfə baxımından çox vacib əsərdir (184). Şərqdə ikinci bu tərzdə əsər gecikmə ilə Qədim Hindistanda meydana çıxdı. Ehtimal olunur ki, e.ə. IV yüzillikdə Kautu adlı braxman "Artxaşastra" (sanskritcədən tərcümədə siyasi-maddi mənfəət haqqında təlim, elm deməkdir) adlı dövlətin idarə edilməsi ilə bağlı əsəri Hindistanda Mauriya sülaləsinin imperiya siyasətinə uyğun tərtib etmişdir (195, 75). Dövlət idarəsinin əsasını isə hərb işi və döyüş sənəti təşkil edir. Bu səbəbdən əsərin çox hissəsi hərbi xarakterlidir və ilk hərbi traktatlardan hesab olunur (121).

"Riqveda", "Ramayana və Mahabharata", "Avesta", "Kitabi-Dədəm Qorqud", "Kral Artur", "Nubilunqlar haqda saqa" və "Koroğlu" kimi bədii və dini əsərlərə istinad problematik və ziddiyyətlidir. Çünki, bunlar çox sonralar yazarlar və mirzələr tərəfindən qeydə alınıblar. Bu əsərlər özlərində şifahi irs ilə birgə yazıya alındığı dövrün bir çox xüsusiyyətlərini əks etdirirlər. Bu səbəbdən xüsusilə, Hindistanda yazı ənənəsi ilə bağlı məsələlərdə diqqətli və ehtiyatlı olmaq lazım gəlir.

Müharibə və hərb sənəti baxımından ikinci böyük irəlləyiş Antik Yunan-Roma mədəniyyətləri ilə bağlıdır. Məhz e.ə. I – eramizin I minilliklərində təşəkkül tapıb, dünya hegemonluğu uğrunda müvəffəqiyyətlər qazanmış gənc "Qərb sivilizasiyası" hərbi işi, döyüş sənəti və müharibə haqqında fəlsəfi-siyasi fikirlərin yaranmasında da üstünlük qazandı.

E.ə. I minillikdə - eramizin I minilliyində ilk olaraq Qədim Şərqin Çin və Hindistan kimi bölgələrində yaranan və inkişaf edən hərb sənəti və fəlsəfəsi Qədim Qərb sivilizasiyasının ilk beşiyi olan Qədim Yunanıstanda, daha sonra isə Qədim Romada meydana çıxdı. Hər iki mədəniyyət mərkəzi qonşuları ilə kəskin mübarizə şəraitində təşəkkül tapdıqlarından tez bir zamanda dövrün qabaqcıl hərbi nailiyyətlərinə yiyələnməyə müvəffəq olmuşdular ( 144; 145; 155; 126; 125.). Məhz burada hərb sənətinin mühüm yenilikləri yaşamaq haqqı qazandı. Strategiya (174, 552-553) və taktika (174, 561-562) kimi mühüm hərb sahələri meydana çıxdı və sistemli bilik sahələrinə çevrildilər. Hərbi texnologiya (174, 101-111; 107, 128-129) sahəsində ciddi işlər görüldü və ilk dəfə qlobal hegemonluq uğrunda hərbi səfərlər və kampaniyalar həyata keçirildi (177). Antik dövrün hərb tarixi, fəlsəfəsi, sənəti və nəzəri fikri haqqında kifayət qədər tədqiqat və araşdırma ol-

duğundan qısaca olaraq bunu qeyd etmək lazımdır ki, məhz Qərb sivilizasiyasının sayəsində elmi biliklərin sistemləşməsi (160) gerçəkləşdi və hərb elminin (militalogiyanın və ya hərbşünaslığın) faktiki əsası da məhz bu zaman qoyuldu (183; 198; 190).

Qeyd edildiyi kimi müharibə ilə bağlı ilk nəzəri və fəlsəfi əsərlər Qədim Şərqdə meydana gəlmişdir. Bu baxımdan Şərq ölkələri həmçinin orta əsrlərdə də, müharibə problemi ilə ciddi şəkildə məşğul idilər. Həm Çində, həm Hindistan və İranda, həm müsəlman Şərqində, həm də erkən Türk Dünyasında (41, 43-183) bu məsələ diqqət mərkəzində idi. Lakin müharibənin mənşəyi və təkamülü ilə bağlı məsələlər işıqlandırılmırdı. Əsasən bu dövrdə hərbi əxlaq, hüquq, döyüş qaydaları, nizam-intizam və musiqi, hərb iyerarxiyası və silahsazlıq məsələləri xüsusilə işlənilir və araşdırılırdı. Bu, dövrün ideoloji mühitindəki köklü dəyişikliklər ilə əlaqədar idi.

Ərəb Xilafətinin yaranması və işğalları ilə bağlı İslam dininin ideoloji-əxlaqi cəhətləri müsəlman ölkələrindəki hərb işinə, döyüş sənətinə, hərbi əxlaqi-ideologiya və təbliğata bilavasitə təsir göstərmiş oldu (27, 140-141,200-208). İlk öncə İslamın ideoloji tərəfi onun əsas kitabı olan “Qurani-Kərim”də əks olunmuşdur (44). Burada “Əl-Bəqərə”, “Əl-Ənfal”, və “Əl-Fəth” surələrində mübarizə aparmaq, ordular, hərbi hazırlıq və mənəvi hazırlıq məqamları əks olunmuşdur. Misal üçün Əl-Bəqərə surəsində deyilir: “Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın” (44, 20). Və yaxud əl-Fəth surəsində yazılmışdır: “Göylərdəki və yerdəki ordular Allahın ixtiyarındadır, Allah biləndir, hikmət sahibidir!” (44, 390). Əl-Ənfal sürəsində isə hətta hazırlıq barədə bəhs olunur: “Allahın düşmənini və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və döyüş atları tədarük edin” (44, 122-123).

Ərəb Xilafətinin meydana gəlməsi və geniş işğallar prosesində imperiyanın yaranması ilə əlaqədar olaraq hərbi biliklərə ehtiyac yaranır. Ona görə də, müsəlman dünyasında hərbi traktatlar yazılmağa başlayır. Hazırda dünyanın müxtəlif ölkələrinin kitabxanalarında yüzdən çox belə traktat olduğu barədə fikir söylənmişdir. Onların az bir qisminin öyrənilməsi əsasında *İslam hərb sənətinin* VII-XVIII yüzillərdə dörd mərhələdən keçdiyi qeyd olunur. Bunlar bilavasitə hərb sənətinə həsr edilmişdir (56, 302, 184-192). Xilafətin hərbi-siyasi tarixi ilə bağlı çox saylı tədqiqatları nəzərə alaraq ərəb istilaları və *müsəlman hərb işi* ilə bağlı aşağıdakı məsələləri izah etmək vacibdir (83; 84; 85; 86; 192; 152, 6-38). Məhz nəzəri aspektdən savaş sənətinə yanaşma öz tənqidi və tətbiqi xüsusiyyətləri ilə İslam İntibahı ilə bağlı biliklərin inkişafı ilə əlaqədar idi. Müsəlman ölkələrinin sərkərdələri, döyüşçüləri və hərb xadimləri həm strateji, həm əməliyyat, həm də, taktiki olaraq öz hərbi əməliyyat və kampaniyalarında əyani vəsaitlərdən

istifadə edirdilər. İlk savaş və döyüş dərslikləri faktiki olaraq müsəlman-feodal cəmiyyətində meydana gəldi (3; 51; 152, 46-123).

Orta əsrlərin dəyərli yadigarı olan əsərlərdə savaş mövzusu aktual məsələlərdən biri idi. Belə əsərlərdən ən vacibləri sırasınada Kutadqu-Bilik (67, 170-178; 205), Divani-Lüğət-it Türk, Qabusnamə (45, 92-94,188-190, 206-207), Siyasətnamə (37, 96-97, 112), Oğuznamələr (20; 50; 191), "Monqolların gizli tarixi"(35), Zəfərnamələr (16; 36), Baburnamə (69; 76; 119), Əxlaqi-Nasiri (62, 198-199) və Qəhrəmanlıq dastanlarını (46) qeyd etmək olar. Bəzi istisnalarla "Kitabi-Dədəm Qorqud" dastanında dövrün hərbi gerçəklik və baxışlarının əks olunduğunu qəbul etmək olar (56, 302; 30; 46, 45-64; 73; 29). Azərbaycan xalqının görkəmli xadimlərinin ədəbi və fəlsəfi əsərlərində savaş məsələsi öz aktuallığını saxlayırdı. İstər Nizami Gəncəvinin, istər Məhəmməd Füzulinin, istərsə də Nəsirəddin Tusinin yaradıcılığında dövlət siyasətində müharibənin son çıxılmaz hal olması vurğulanır, qanlı və qarətçi savaşlar tənqid olunur və humanist baxışlar önə çəkilir (171, 66, 85, 103).

Dövrün feodal xarakterindən irəli gələrək qəhrəmanlıq eposları hərtərəfli yayılmış və məşhurluq (şöhrət) qazanmışdılar. Eynilə Xristian Dünyasında da bənzər mənzərə müşahidə olunurdu. Dövrün hərb işi, döyüş sənəti və *əsgəri bilikləri* haqqında mülahizələri qəhrəmanlıq saqalarında (167,72-81,128-154) və eposlarında (167,182-233) öz əksini tapırdı. Xüsusilə "Nibelunqlar haqqında mahnı", El-Sid haqqında ispan eposları və Anqlo-sakson qəhrəmanlıq eposları sıravi xalqın müharibəyə və savaş sənətinə olan münasibətini az-çox özündə əks etdirən qaynaq kimi əhəmiyyətli sayılır (168,17-64,121-156, 261-273) Bu baxımdan ciddi irəliləyiş Bizansda özünü göstərirdi. Katolik və Provaslav Avropası hələ də, hərbi demokratiyadan qalma ənənələr (127,601) və *Roman-German hərb işinin*[5] təsiri altında idi.

Ərəb Xilafətinin ən qüdrətli çağında: eramızın VIII-IX yüzilliyində hərbi baxımdan mübarizə qabiliyyətli böyük dövlətlərdən yalnız Bizans imperiyası xarici siyasətdə hücum mövqeyi nümayiş etdirə bilirdi(187; 188; 189). Bunun səbəbi həmin zaman dövlətin başına istedadlı və bacarıqlı hərbi bilikli hökmdarların gəlməsi idi (89, 78-87; 141). Ümumiyyətlə, Bizans imperiyası üçün müharibə diplomatik imkanların tükəndiyi ən son vasitə idi və ona hazırlıq çox diqqətlə aparılaraq, risksiz gerçəkləşdirilirdi (106, 490). Bizans ordusu özündə həm Antik, həm Barbar, həm də Şərq ənənəsini təcəssüm etdirə bilmişdi (106, 170-182).

---

[5] Roman-German hərb işi anlayışı Gec Roma İmperiyası dövründə german tayfalarının Antik mədəniyyət ilə qarşılıqlı təsiri nəticəsində eramizin II-IV yüzilliklərində formalaşmış olduğu və sonralar hunların, avarların və bulqarların ciddi təsirinə məruz qalmış hərb işi və döyüş ənənəsidir.

Qərbi Avropanın hərb işi, döyüş sənəti və savaş etikasında ciddi dəyişikliklər və irəlləyişlər tarixə Səlib müharibələri (Xaçlı yürüşləri) kimi daxil olmuş Orta Əsrlərin ilk iri miqyaslı hərbi kampaniyası ilə əlaqədar baş verdi (116; 202; 193, 415-562). Bu hadisə katolik Avropasının və müsəlman Şərqinin ideoloji təfəkküründə ciddi və silinməz izlər qoydu ki, bunun mirasını hər iki mədəniyyətin və ideologiyanın daşıyıcıları müasir dövrdə də müşahidə edirlər (193, 562-586; 25, 589-616). Avropanın xristian cəngavərləri və onların təşkil etdikləri hərbi-dini cəmiyyətlər Yaxın və Orta Şərqdə hərbi və mədəni inkişaf baxımından çox ciddi rəqiblər ilə qarşılaşdılar ki, bunun da məntiqi nəticəsi olaraq ağır məğlubiyyətə uğradıldılar (113, 135-149; 74, 10-54; 65; 90; 15;). Bu baxımdan Azərbaycanda da, bütün Şərqdə olduğu kimi hərb işi və döyüş sənəti ciddi tərəqqi dövrü keçirirdi (21, 76-110). Bunun başlıca səbəbi *Türk dövründə*[6] tarixi Azərbaycan torpaqlarının birmənalı türk savaş sənətinin təsirinə məruz qalmasıdır. Bu tendensiya Yaxın və Orta Şərqdə *Oğuzlaşma* ilə bağlı davam etdi (113; 161; 15, 230-280).

Müharibənin mahiyyətilə bağlı ilk ciddi əsərlər və fikirlər Avropa intibahı zamanı və ondan sonra meydana çıxdı. Lakin, XV-XVI yüzilliklərdə müsəlman Şərqində bir sıra memuar və narrativ xarakterli əsərlərdə müharibə tematikasında inkişaf müşahidə olunurdu. Misal üçün Baburnamə və Böyük Moğol imperiyası zamanına aid olan əsərlərdə, Osmanlı İmperiyası dövrü sənədlərində və Səfəvi səltənətinə aid bəzi yaradıcılıq nümunələrində savaş sənəti və onun mahiyyətilə bağlı ilk fəlsəfi fikirlər formalaşmaqda idi (170, 153-175; 34, 112-176; 12). Lakin, təəssüf ilə qeyd edilməlidir ki, Şərqin bir çox ölkələrində ordu quruculuğu və hərbi iş geriləmə tendensiyası yoluna keçmişdi (13, 248-250; 34). Türk-müsəlman Şərqində döyüşün və müharibənin taleyini sistemli və elmi yanaşma yox, hərbi komandanlığın sərkərdəlik bacarığı və məharəti həll edirdi (147; 99; 100). Bu isə belə bir komandanın yoxluğu şəraitində ordunun məğlubiyyətinə və qoşunun məhvinə gətirib çıxarırdı. Diqqəti cəlb edən məqamlardan biri Osmanlı İmperiyasının savaş sənəti, hərb işi və hərbi diplomatiyası idi (163, 81-117; 63, 288-290). Misal üçün işğal olunan torpaqlar ilə bağlı qonşu dövlətlərə "Fəthnamələr"in göndərilməsi və "Osmanlı Sülhü" məsələləri diqqətəlayiq məsələlərdəndir (63; 40). Osmanlı imperiyasının döyüş meydanlarındakı uğuru məhz ordusunun XV-XVI yüzilliklərdə yetərincə müasir olması və yüksək təşkilatlanma xüsusiyyəti ilə bağlı idi (64; 28; 91).

Orta Əsrlərin sonları hərb işində və döyüş sənətində, xüsusilə də, hərbi fikir və nəzəriyyəsində ciddi dəyişikliklər ilə müşayət olundu. İtaliya və

---

[6] Türk dövrü Son Antik çağda və Erkən Orta əsrlərdə türk xalqlarının siyasi-hərbi və mədəni yüksəlişi ilə bağlı geniş yayıldığı və hegemonluq qazandığı mərhələni əks etdirir ki, bunun əksi özünü çox saylı maddi və mənəvi mədəniyyət nümunələrində tapmışdır. Bu termin Azərbaycan elmində ilk dəfə Q.S. İsmayızadə tərəfindən işlədilib.

sonra bütün Qərbi Avropada baş qaldırmış intibah, xristian Avropasındakı reformasiya, əksreformasiya və dini mübarizə, Osmanlı İmperiyasının genişlənməsi, Roma papasının nüfuzunun sarsılması, rasional və dünyavi elmlərin inkişafı və bunun iqtisadiyyata və texnologiyaya mütərəqqi təsiri, Böyük Coğrafi Kəşflər və onun ardınca başlanan müstəmləkə işğalları və Avropa kolonializmi siyasəti və nəhayət milli dövlətlərin təşəkkülü prosesi eramizin XV-XVII əsrlərində Avropada inqilabi və dərin dəyişikliklərə gətirib çıxartdı(72; 128; 130; 129; 149; 172; 186). Belə bir dövrdə ilk olaraq İtaliyada hərb sənətilə bağlı əsərlər meydana gədi. Nəzərə alınmalıdır ki, bu əsərlər öz primitiv və antik çağa heyranlığı ilə diqqəti cəlb edir. Misal üçün diqqətə layiq əsərlərdən biri Nikkolo di Makiavellinin (Nicolaus Machiavellus) "Savaş sənəti haqqında" traktatıdır(150; 121, 291-541). Eyni sözləri XVII yüzillikdə yaşamış çin hərb nəzəriyyəçisi Sze Syuan haqqında da söyləmək olar. Onun "Yüz fəsildə hərb qanunu" əsəri ona qədər yazılmış çin hərb traktatlarının məcmusunu təşkil edir (197). Bu əsər hərbi strategiya aspektindən çox dəyərlidir. Avropada Şimal intibahının görkəmli nümayəndəsi Rotterdamlı Erazm XVI yüzillikdə müharibəyə humanizm baxımından yanaşmış və özünün "Dünyanın şikayəti" əsərində savaşları bütün bəla və bədbəxtliyin səbəbi kimi qiymətləndirmişdir. (103, 91-104; 203). XVI-XVII yüzilliklərin görkəmli holland hüquqşünas-alimi Hüqo Horatsi özünün "Müharibə və sülh hüququ haqqında üç kitab"ında beynəlxalq münasibətlərdə savaş amilinin müstəsnalığını vurğulamış və azad dənizçilik məsələlərini qabartmışdır (111). Onun beynəlxalq münasibətlərə töhvəsi əvəzsiz olmuşdur. Xüsusilə, "təbii hüquq" və "xalqların hüququ" prinsipləri onun əsərinin ana xəttini təşkil edir (103, 109-132).

Ümumiləşdirərək tam şəkildə söyləmək olar ki, hərbi nəzəriyyə, təlim və politologiyanın əsası məhz XVI-XVIII yüzilliklərdə Qərbi Avropada qoyulmuş oldu. Bu dövrün görkəmli xadimlərinin əsərləri müharibə, onun mənşəyi və öyrənilməsi probleminə bu və ya digər şəkildə toxunurdu. Belə xadimlər sırasında M.Monteni, P.Blez, Ş.L.Monteskyö, J.J.Russo, P.J.Prudon, T.Hobbs, C.Lokk, İ.Bentam, T.Peyn, T.Cefferson, V.F.Hegel, İ.Q.Fixte, İ.Q.Herder, A.Şopenhauer, F.Nitsşe, U. Penn, İ.Kant və V.F.Malinovskini qeyd etmək olar (24, 39-53;103, 109-169). XVIII-XIX yüzilliklər Avropa tarixi həmçinin, siyasi-hərbi hadisələr baxımından da zəngin idi. Bu dövrdə burjua inqilabları və onların meydana gətirdiyi vətəndaş müharibələri, "Böyük Fransa burjua" inqilabı və onun nəticəsində Napoleon Bonapartın Avropanı istila etməsi, bu istilaya qarşı mübarizə Avropanın hərb işinə və savaş sənətinə xeyli yeniliklər gətirmiş oldu (153; 182; 140). Lakin, XIX yüzilliyin hərb tarixi və savaş sənəti baxımından yeri çoxsaylı müharibələr və hərbi əməliyyatlar ilə yox, müharibəyə dair epoxal traktatlar ilə bağlıdır. Bu dövrün hərb elmi və savaş sənəti baxımından şah əsəri hərbiləş-

miş alman dövləti olan Prussiyada meydana çıxdı. Bu əsər Karl Filipp Qotfrid fon Klauzevitsin çoxillik təhlil və tədqiqinin məhsulu kimi müharibənin mahiyyətinə və onun aparılmasına dair ən əsaslı traktat idi. Əsər ilk olaraq almanca 1832-cı ildə işıq üzü görmüşdür. Daha sonra çoxsaylı dillərə tərcümə edilmiş və uzun müddət hərbi akademiyalarda tədris vasitəsi rolu oynamışdır. Əsər öz nəzəri və fəlsəfi əhəmiyyətini müasir dövrdə belə itirməmişdir (9; 136; 137; 138; 139). Məhz bu əsər ilə Alman hərb nəzəriyyəsi yeni müharibə erasının başlanğıcını qoydu. Sonradan Almaniyanın görkəmli siyasət və hərb xadimləri əyani olaraq hərb sənətini ölkənin birləşdirilməsi və güclənməsində istifadə etdilər. Bu baxımdan O. Bismarkın fəaliyyətini xüsusi olaraq qeyd etmək lazımdır(81; 82). Alman hərb fikrində, savaş sənəti və onun tarixinin öyrənilməsində Marksizm təlimi ciddi rola malikdir. K.Marks və F. Engelsin hərb işi, savaş sənəti, ordu quruculuğu və sair ilə bağlı yazıları hərbi-nəzəri fikrin inkişafına əvəzsiz töfhədir (201). K.Marks və F. Engelsdən sonra hərbi keçmişə dialektik-materializm mövqeyindən yanaşan bir çox araşdırmaçılar olmuşdur (156). Ümumilikdə Almaniyada militarist baxışlar ilə yanbayan pasifist, sosial-liberal və komunist baxışların inkişafı müharibəyə və onunla bağlı məsələlərə xeyli rəngarənglik və rasionallıq qatmışdır (148, 238-240, 277-279; 33.).

XIX yüzillikdə Azərbaycanın ictimai-fəlsəfi fikir tarixində hərb məsələsindən bəhs edərkən H.Hüseynovun möhtəşəm tədqiqat əsərinə toxunmamaq olmaz (114). Azərbaycanda ictimai-siyasi və fəlsəfi fikir tarixində hərbi məsələlərə nəzəri yanaşma ilk dəfə məhz XIX yüzilliyin ikinci yarısında baş verdi (114, 222-226). Bu dövrdə Osmanlı imperiyasında, Yaponiyada və bir sıra Asiya ölkələrində milli şüurda oyanış ilə bağlı hərbi baxışlar aktuallıq qazandı. Rusiyada hərb sənəti və hərbşünaslıq imperiyanın durmadan müharibə aparması zərurətindən irəli gələrək sürətlə inkişaf edirdi. Rusiya imperiyasında hərbi fikir, savaş sənəti, hərb işi, və digər müharibə ilə bağlı sahələrdə əhəmiyyətli əsərlər yaradıldı (92; 143; 181).

XIX yüzilliyin sonu – XX yüzilliyin birinci yarısında artıq püxtələşmiş geosiyasət sahəsi özünün görkəmli xadimləri ilə müharibəyə dair saysız-hesabsız yazılar, əsərlər, mühazirələr və çıxışları ilə zəngindir (103,201-418). Müharibənin mənşəyinə bilavasitə toxunmuş dövrün görkəmli şəxsiyyətləri sırasına Fridrix Ratsel (Xalqşünaslıq), Alfred Teyar Mehen (Dəniz gücünün tarixə təsiri), Helford Makinder (Tarixin coğrafi oxu), Rudolf Staynmes (Müharibənin fəlsəfəsi), Q.İ. Nikolai (Müharibənin biologiyası) və digərlərini aid etmək olar. Müasir geosiyasət XX yüzilliyin II yarısı və XXI yüzillikdə ənənəyə sadiq qalaraq müharibə mövzusundan, onun mahiyyətindən, mənşəyi və səbəblərinin araşdırılmasından yan keçmədi. Əsərlərinə toxunmaq istədiyimiz tədqiqatçılardan xüsusən Fernan Brodeli, Z.K.Bjezinskini, Samuel Hantinqtonu, V.S.-Tyan-Şanskini və L.N. Qumil-

yovu qeyd etmək olar (103, 419-999; 6; 112; 80; 5). Sovet dövrü Rusiya hərb fikrindən, nəzəri-fəlsəfi və konseptual baxışlarından bəhs edərkən, onların birmənalı olaraq bütün baxışlar və mövqeylər Marksizmə və Leninizmə bağlanılır (169; 200; 79). Bu səbəbdən XX yüzillik rus hərb sənəti və işindəki nəzəriyyələr heç bir orjinallığa malik deyildir. Bu tendensiya özünü hərb tarixinin tədrisində də, göstərir. Sovet elminin hərb tarixinə ideoloji münasibəti özünü tədris vasitələrində daha aydın büruzə verir (120, 3-9).

Müharibənin mənşəyi ilə bağlı çağdaş nəzəriyyə və təlimlər ayrıca araşdırma mövzusu olduğundan onlar haqqında geniş bəhsin gələcək tədqiqatlarda verilməsi məqsədəuyğundur. Xüsusilə, müharibənin fəlsəfi anlamı haqqında XIX-XXI yüzilliklərdə əhatəli və dərin əsərlər yaranmışdır (176,29-31). İlk öncə onu qeyd etməliyik ki, insan övladı istər ibtidai, istər müasir cəmiyyətdə yaşasa da kamil və düşüncəli varlıq kimi hələ tam formalaşmayıb. İnsanın mənşəyi və təkamülü hələ də, dərin və geniş araşdırma predmeti olaraq qalır (165, 454-469; 146, 8-11; 199, 337-343; 88; 108; 109; 110; 117; 118; 142; 158). Bu məsələ maddi-mədəni irsi tədqiq edən elm sahələrin də, xüsusəndə arxeologiyada öz aktuallığını saxlayır (47; 49; 75; 122). Bu səbəbdən insanı savaşa və hərbiləşməyə sövq edən psixoloji, fizioloji, bioloji, iqtisadi, demoqrafik, siyasi-ideoloji, antropoloji (irqi), etnik (linqivistik) və mənəvi (dini) motivasiyaların varlığından, təbiətindən, təsir gücü və fəallığından asılı olaraq bəşəriyyət hərbə və zor tətbiqinə daim meyl etmiş və bunu əsaslandırmaq üçün müxtəlif təlim və nəzəriyyələr meydana çıxartmışdır. Bu nəzəriyyələr və konseptual-baxışlar müharibənin mənşəyi problemi ilə yox, onun gərəkliliyi məsələsi üzərində daha fəal iş gördüyündən bu məqalədə onların işıqlandırılması məqsədyönlü deyil.

## ƏDƏBİYYAT


1. Algaze G. The Uruk Expansion: Cross-cultural Exchange in Early Mesopotamian Civilization. The Sumerian World. Edited by Harriet Crawford London, Routledge, 2013, 688 p.
2. Ancient armies of the Middle East. Editor Windrow M. Oxford, Osprey, 1999, 51 p.
3. Arab Archery. An Arabic manuscript of about A.D. 1500 “Book on the Excellence of the Bow and Arrow” and the Description thereof. Translated by N. A. Faris and R. P. Elmer Princeton, New Jersey, PUP, 1945, 187 p.
4. Battlefield Archaeology: A Guide to the archaeology of conflict. Practical Guide Series 8. T.Sutherland and M. Holst. York, BAJR, 2005, 67 p.
5. Bjezinski Z.K. Böyük şahmat taxtası. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri. İngiliscədən tərcümə: Y. Əsədov. Bakı: Qanun Nəşriyyatı, 2011, 328 s.
6. Braudel, F. A History of Civilizations. Translated by R.Mayne. New York, Penguin Book, 1995, 600 p.

7. Bronze Age Warfare. Osgood R. and Monks S. with Toms J. Sutton, SPL, 2000, 161 p.
8. Çimen A. Tarihi değiştiren askerler. İstanbul, Timaş, 2011, 352 y.
9. Clausewitz, Carl von. On War. Edited and Translated by M. Howard and P. Paret. Princeton, New Jersey, PUP, 1989, 732 p.
10. Cultural norms, war and the environment/Edited Arthur H. Westing. Oxford, OUP, SIPRI, 1988, 177 p.
11. Dennen, J. M. G. V. D. The origin of war: the evolution of a male-coalitional reproductive strategy. Groningen, GUP, 1995, 843 p.
12. Donuk, A. Eski Türk devletlerinde idari ve askeri ünvan ve terimler. İstanbul, TDAV, 1988, 109 y.
13. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı, Azərnəşr, 1993, 301 s.
14. Əhmədov S.Ə., Cəfərova E.B. Azərbaycanın orta əsr silahları (arxeoloji materiallar əsasınada). Bakı. Elm, 2005, 156 s.
15. Əkbər N. Nəcəf. Səlcuqlu dövlətləri və atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından - əsrə qədər). Bakı, Qanun, 2010, 756 s.
16. Əli Yəzdi Şərəfəddin. Zəfərnamə./farscadan tər.t.e.d. Vaqif Piriyev. Bakı, Azərnəşr, 1996, 80 s.
17. Əliyev N.A. Azərbaycanın hərb tarixi. 1-ci hissə (Azərbaycanda qədim dövrdə hərbi tarixi hadisələr). Bakı, 2016, 144 s.
18. Əliyev N.A., Əhmədov S.Ə. Şirvanşahlar dövlətinin hərbi-dəniz donanması (IX-XIII əsrlər). Bakı. AAHDM, 2003, 116 s.
19. Fəlsəfə ensiklopedik lüğəti. Bakı, Azərbaycan Ensiklopediyası NPB, 1997, 520 s.
20. Fəzlullah Rəşidəddin. Oğuznamə. Farscadan tər. R.M. Şükürovanındır. Bakı, Azərnəşr, 1992, 72 s.
21. Firudin Ağasıoğlu. Azərbaycan türklərinin İslamaqədər tarixi. (Doqquz Bitik); III Bitik: Azərbaycanda qurulan qədim dövlətlər. Bakı, Ağrıdağ nəşriyyatı, 2014, 512 s.
22. Frangipane, M. Yakın Doğuda devletin doğuşu./italyanca çev.Z.Z.İlkgelen. İstanbul, Kanaat Basımevi, 2002, 326 y.
23. From Sumer to Rome: The Military Capabilities of Ancient Armies. R. Gabriel and A. Metz. New York, Greenwood Press, 1991, 208 p.
24. Həşimov Davud. Hərbi politologiyanın problemləri. Bakı, Azərnəşr, 2003, 144 s.
25. Hillenbrand, Carole. The Crusades. Islamic Perspectives. Edinburgh, EUP, 1999, 649 p.
26. Kalkan E. Uruk yayilim kuramlari tarihteki en eski koloniciler barişçilar mi savaşçilar mi? İstanbul, Ege Yayınları, 2015,144 y.
27. Kandemir Yaşar. Örneklerle İslam ahlakı. İstanbul, Nesil, 2005, 304 y.
28. Karal E.Z. Osmanlı tarihi. V. Cilt. Ankara, TTK Basımevi, 1988, 278 y.
29. Kitabi-Dədə Qorqud Ensiklopediyası. İki cilddə, II cild. Bakı: Yeni Nəşrlər Evi, 2000, 567 s.

30. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004, 376 səh.
31. Laffin John. Digging up the Diggers' War. Singapore, Fong and Sons Press, 1993, 106 p.
32. Lawrence H. Keeley. War before Civilisation: The Myth of the Peaceful Savage, Oxford, Oxford University Press (OUP), 1996, 272 p.
33. Liebknecht, Karl. Militarism. New York, B.W. HUEBSCH, 1917, 178 p.
34. Lorge, Peter A. The Asian Military Revolution. From Gunpower to the Bomb. Cambridge, CUP, 2008, 188 p.
35. Monqolların gizli tarixi. /Türkcə, rusca və almanca nəşrləri əsasında tərcümə edən və ön sözün müəllifi: R.Əskər Red.: T.Hacıyev. Bakı, MBM, 2011, 360 s.
36. Nizaməddin Şami, Zəfər-namə./uyğunlaşdırma akad. Z.M. Bünyadovun. Bakı, Elm, 1992, 40 s.
37. Nizamülmülk. Siyasətnamə/ farscadan tərcümə R.Sultanovundur. Bakı, Elm, 1989, 212 s.
38. Nomads, tribes, and the state in the Ancient Near East. Cross-disciplinary prespectives. Edited by J. Szuchman. Chicago, CUP, 2009, 288 p.
39. Oakesshott R.E. The Archaeology of weapons. Arms and Armour from Prehistory to the Age of Chivalry.
40. Ortaylı İlber. Osmanlı barışı. İstanbul, Timaş yayınları, 2008, 240 s.
41. Orxon-Yenisey abidələri. Əbülfəz Rəcəbov və Yunis Məmmədov. Bakı, Yazıçı, 1993, 400 s.
42. Paleorient. Pluridisciplinary Journal of Prehistory and Protohistory of South-western and Central Asia. Paris: CNRS, 2014/40.2
43. Politologiya. İzahlı lüğət. Bakı, Şərq-Qərb, 2007, 352 s.
44. Qurani-Kərim Məalı, ərəb dilindən tərcümə Z.M.Bünyadov və V.M. Məmmədəliyev. Bakı, Qismət, 2006, 478 s.
45. Qabusnamə/ farscadan tərcümə R.Sultanovundur. Bakı, Azərnəşr, 1989, 237 s.
46. Qəhrəmanlıq dastanı. Çobanov M.N. və Çobanlı M.M. Bakı, Təhsil, 2000, 112 s.
47. Quliyev F.E. Azərbaycanın kurqan qəbirlərində at dəfni. Bakı, Elm, 2008, 300 s.
48. Raymond C. Kelly. Warless Societies and the Origins of War, Ann Arbor, University of Michigan Press, 2000, 208 p.
49. Rəhimova M.N. Azərbaycanın qədim metallurgiyasında sürmə. Bakı, XUN, 2011, 228 s.
50. Rəşidəddin. Oğuznamə. Anadolu türkcəsindən çev. İ.M.Osmanov. Bakı, AME NPB, 2003, 108 s.
51. Saracen Archery. An English version and exposition of a Mameluke work on archery A.D. 1368. London, The Holland Press, 1970, 137 p.
52. Seçilmiş əsərləri üç cilddə. K.Marks və F.Engels. Cild 1. Bakı, Azərnəşr, 1978, 661 s.

53. Seçilmiş əsərləri üç cilddə. K.Marks və F.Engels. Cild 2. Bakı, Azərnəşr, 1980, 566 s.
54. Seçilmiş əsərləri üç cilddə. K.Marks və F.Engels. Cild 3. Bakı, Azərnəşr, 1983, 667 s.
55. Sevin V. Anadolu Arkeolojisi. Başlangiçtan Perslere kadar. İstanbul, DER, 2003, 308 y.
56. Şükürov K.K. Azərbaycan əhalisi: Öyrənilmə tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı, Elm, 2004, 974 s.
57. Süleymanov M.S. Azərbaycanın qədim və orta əsrlər hərb tarixi. Bakı, Elm və Təhsil, 2016, 416 s.
58. Tarihi değişdiren savaşlar. Çimen A ve G.A. Göğebakan. İstanbul, Timaş, 2011, 429 y.
59. The Evolution of War and its Cognitive Foundations. Tooby J. and Cosmides L. Ann Arbor, Michigan, 1988, 14 p.
60. The Sumerian World. Edited by Harriet Crawford London, Routledge, 2013, 688 p.
61. Türk savaş sənəti. Ə.Əsgər və M.Qıpçaq. Bakı, Yazıçı, 1996, 176 s.
62. Tusi, Xacə Nəsirəddin. Əxlaqi-Nasiri./farscadan tərcümə R.Sultanovundur. Bakı, Elm, 1989, 256 s.
63. Uzunçarşılı İ.H. Osmanlı devletinin saray teşkilatı.Ankara, TTK Basımevi, 1988, 585 y.
64. Uzunçarşılı İ.H. Osmanlı tarihi. IV. Cilt. Ankara, TTK Basımevi, 1988, 623 y.
65. Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, Elm və təhsil, 2016, 480 s.
66. Warfare and Society. Archaeological and Social Anthropological Perspectives. Edited by Otto T., Thrane H. and Vandkilde H. Aarhus, AUP, 2006, 529 p.
67. Yusif Balasaqunlu. Qutadqu bilig./Xaqaniyyə türkcəsindən çevirən K.Vəliyev və R. Əsgər. Bakı, Avrasiya press, 2006, 440 s.
68. Yusifov Y.B. Qədim Şərq tarixi. Dərslik. Bakı, Bakı Uni.Nəş., 1992, 496 s.
69. Zəhirəddin Məhəmməd Babur. Baburnamə./Çağatayca, türkcə və ruscadan çevirən R. Əsgər. Bakı, BXQR, 2011, 432 s.
70. Авдиев В. И. Военная история древнего Египта. Возникновение и развитие завоевательной политики до эпохи крупных войн XVI-XV вв. до х.э. Том I. Москва, Издательство "Советская наука", 1948, 240 с.
71. Авдиев В. И. Военная история древнего Египта. Период крупных войн в Передней Азии и Нубии в XVI-XV вв. до н.э. Том II. Москва, Издательство Академии наук СССР, 1959, 148 с.
72. Авербух М.С. Войны и народонаселение в докапиталистических обществах. Опыт историко-демографического исследования. Москва, Наука, 1970, 214 с.
73. Агаев Ю.Ш., Ахмедов С.А. Военное искусство тюрков в огузском эпосе «Китаби Деде Горгуд». Баку, OL MMC, 2014, 137 с.

74. Акунов, В.В. Военно-духовные ордена Востока. Москва: Вече, 2012, 352 с.
75. Археология. В начале. Фаган Б., ДеКорс К./пер.с англ. Н.Ю.Струкова. Москва, ТЕХНОСФЕРА, 2007, 592 с.
76. Бабур. Бабур-наме./Пер.с джагатайского М.Салье. Ташкент, ГРЭ, 1986, 464 с.
77. Бертман С. Месопотамия./пер.с англ. А.А. Помогайло. Москва, Вече, 2007, 416 с.
78. Бёртон Ричард Ф. Книга мечей. Холодное оружие сквозь тысячелетия./пер.с англ. Д.Лихачева. Москва, ЗАО Центрполиграф, 2008, 399 с.
79. Бескровный Л.Г. Хрестоматия по русской военной истории. Москва, Воениздат, 1947, 639 с.
80. Бжезинский Зб. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. Москва: Междунар.отношения, 2010, 256 с.
81. Бисмарк Отто фон. Мемуары «железного канцлера»/Пер.с нем. Проф. А.С. Ерусалимского. Москва, Эксмо, 2014, 544 с.
82. Бисмарк Отто, фон. Политика есть искусство возможного. Москва: ЗАО Изд. Центрполиграф, 2015, 160 с.
83. Большаков О.Г. История Халифата: в 4-х томах. Ин-т вост.рукописей РАН. Москва: Вост.лит., 1988, Т.4.-2010, 367 с.
84. Большаков О.Г. История Халифата: в 4-х томах. Ин-т вост.рукописей РАН. Москва: Вост.лит., 1998, Т.3.-1998, 382 с.
85. Большаков О.Г. История Халифата: в 4-х томах. Ин-т вост.рукописей РАН. Москва: Вост.лит., 1993, Т.2.-1993, 294 с.
86. Большаков О.Г. История Халифата: в 4-х томах. Ин-т вост.рукописей РАН. Москва: Вост.лит., 1989, Т.1.-1989, 312 с.
87. Большая Советская Энциклопедия. В 30 томах. Гл.ред. А.М. Прохоров. 3-е изд. Москва:, «Советская Энциклопедия», 1971. Т.5. Вешин-Газли. 1971, 640 с.
88. Бурлак С. Происхождение языка: Факты, исследования, гипотезы. Москва, Астрель: CORPUS, 2011, 464 с.
89. Византийская культура. Отв.ред. Е.В. Гутнова. Москва, Наука, 1988, 288 с.
90. Владимирский А.В. Саладин. Победитель крестоносцев. Москва: Яуза: Эксмо, 2013, 544 с.
91. Владимирский А.В. Сулейман Великолепный и его «Великолепный Век». Москва: Яуза: Эксмо, 2013, 320 с.
92. Военная мысль в изгнании. Москва, Военный университет, Русский путь, 1999, 595 с.
93. Военное дело древнего населения Северной Азии. /отв.редакторы В.Е. Медведев и Ю.С. Худяков. Новосибирск, Наука, 1987, 222 с.

94. Военное дело древнего населения юга Сибири и Дальнего Востока./отв.редакторы В.Е. Медведев и Ю.С. Худяков. Новосибирск, Наука, 1993, 233 с.
95. Военное дело древних племен Сибири и Центральной Азии./отв.ред. Ю.С. Худяков. Новосибирск, Наука, 1981, 198 с.
96. Военный энциклопедический словарь. Москва, Эксмо, 2007, 1024 с.
97. Военный энциклопедический словарь. Ред.кол.: А.П.Горкин, В.А.Золотарев и др. Москва, БРЭ,РИПОЛ КЛАССИК, 2002, 1664 с.
98. Всемирная история войн: Харперская энциклопедия военной истории, кн. первая 3500 год до Р. Х. - 1400 год от Р. Х Э. Р. Дюпюи, Т. Н. Дюпюи. Санкт-Петербург: Москва: Полигон, АСТ, 1997, 937 с.
99. Всемирная история войн: Харперская энциклопедия военной истории, кн. вторая 1400 год. - 1800 год. Э. Р. Дюпюи, Т. Н. Дюпюи. Санкт-Петербург: Москва: Полигон, АСТ, 1997, 894 с.
100. Всемирная история войн: Харперская энциклопедия военной истории, кн. третья 1800 год. - 1925 год. Э. Р. Дюпюи, Т. Н. Дюпюи. Санкт-Петербург: Москва: Полигон, АСТ, 1997, 1016 с.
101. Всемирная история. Т. 1. Москва: Госполитиздат, 1956, 747с.
102. Гавриленко В.Г. Политология. Минск: Право и экономика, 2009, 485 с.
103. Геополитика: Антология. - М.: Академический Проект; Культура, 2006. - 1004 с.
104. Геополитика: Учебник / Под общ. ред. В.А. Михайлова; Отв. ред. Л.О. Терновая, С.В. Фокин. - М.: Изд-во РАГС, 2010. - 368 с. - (Учебник Российской Академии государственной службы при Президенте Российской Федерации.)
105. Нартов Н.А. и Нартов В.Н. Геополитика: учебник для студентов вузов. 4-е изд., прераб. и доп. Москва: ЮНИТИ-ДАНА: Единство, 2007, 527 с.
106. Гийу Андре. Византийская цивилизация/пер.с фр. Д. Лоевского. Екатеринбург, У-Фактория, 2007, 545 с.
107. Гладкий В.Д. Древний мир: Энциклопедический словарь. В.2 т-ч. Т.1. Москва, ЗАО Изд-во Центрполиграф, 1998, 510 с.
108. Гринин Л.Е. Государство и исторический процесс: Политический срез исторического процесса. Москва, КомКнига, 2007, 240 с.
109. Гринин Л.Е. Государство и исторический процесс: Эволюция государственности: от раннего государства к зрелему. Москва, Книжный дом «ЛИБРОКОМ», 2010, 368 с.
110. Гринин Л.Е. Государство и исторический процесс: Эпоха формирования государства: Общий контекст социальной эволюции при образовании государства. Москва, КомКнига, 2007, 272 с.
111. Гроций Г. О праве войны и мира. Три книги, в которых объясняется естественное право и право народов, а также принципы публичного права. Пер.с лат. А.Л. Саккетти. Москва: Ладомир, 1994, 868 с.
112. Гумилев Л.Н. География этноса в исторический период. Ленинград, Наука, 1990, 279 с.

113. Гусейн-заде Р.А. Сельджукская эпоха истории Кавказа. Москва, Kremlin Multimedia, 2012, 186 с.
114. Гусейнов Г. Из истории общественной и философской мысли в Азербайджане XIX века. Баку, Азерб.Гос.Изд.-во, 1958, 430 с.
115. Древняя Анатолия. Ред.кол. Б.Б. Пиотровский, В.В. Иванов, В.Г. Ардзинба. Москва, Наука, 1985, 255 с.
116. Заборов М.А. Крестоносцы на Востоке. Москва, Наука, 1980, 320 с.
117. Законы истории. Математическое моделирование исторических макропроцессов. Демография, экономика, войны. Коротаев А.В., Малков А.С., Халтурина Д.А. Москва, КомКнига/URSS, 2005, 344 с.
118. Законы истории: Вековые циклы н тысячелетние тревды. Демография, экономика, войны. /Отв. ред. Н. Н. Крадин. Москва, КомКнига, 2007, 256 с.
119. Захириддин Бабур. Бабур-наме./Пер.с джагатайского М.Салье. Ташкент, Госиздат УзССР, 1948, Баку, Нагыл Еви, 2011, 272 с.
120. Изучение боевого прошлого нашей Родины. Оськин Г.И. и Марачев Н.Н. Пособие для учителей истории. Москва, Просвещение, 1971, 247 с.
121. Искусство войны: Антология военной мысли/сост., Р.Светлова. Санкт-Петербург: Амфора.ТИД Амфора, 2009, 542 с.
122. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку, Nafta-Press, 2008, 304 с.
123. История Древнего Востока. Зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Ч.1. Месопотамия. Москва, Наука, 1983, 534 с.
124. История Древнего Востока. Учеб./под ред. В.И. Кузищина. Москва, Высш.шк. 1979, 456 с.
125. История Древнего Рима: Учеб./Под ред. В.И. Кузищина. Москва, Высш.шк. 2000, 369 с.
126. История Древней Греции: Учеб./Под ред. В.И. Кузищина. Москва, Высш.шк. 2001, 399 с.
127. История Европы. Т.1. Древняя Европа. Москва, Наука, 1988, 704 с.
128. История средних веков. В 2 т. Т.1: Учеб./под ред. З.В. Удальцовав и С.П. Карпова. Москва, Высш.шк., 1990, 495 с.
129. История средних веков. В 2 т. Т.1: Учеб./под ред. Н.Ф. Колесницкого. Москва, Просвещение, 1980, 576 с.
130. История средних веков. В 2 т. Т.2: Учеб./под ред. З.В. Удальцовав и С.П. Карпова. Москва, Высш.шк., 1991, 400 с.
131. История человечества. В 8-и томах. Том 1. Доисторические времена и начало цивилизации. Под ред. З.Я. Де Лаата. Москва,Изд.дом МАГИСТР-ПРЕСС, 2003, 682 с.
132. История человечества. В 8-и томах. Том 2. III тысячелетие до н.э. – VII век до н.э. Под ред. А.Х. Дани и Ж.-П. Моэна. Москва,Изд.дом МАГИСТР-ПРЕСС, 2003, 549 с.

133. Керимов В.И. Строительное искусство древнейших племенных союзов и государств на территории Азербайджана., Баку, Нафта-Пресс,2009,396 с.,
134. Керимов В.И. История развития оборонительного зодчества Азербайджана (с древнейших времен до XIX в) Баку, Нафта-Пресс, 2007, 302 с.,
135. Керимов В.И. Оборонительные сооружения Азербайджана. Баку, Огуз эли, 1998, 132 с.
136. Клаузевиц К. О войне (1-4)/Пер.с нем. А.К. Рачинского. Москва: РИМИС, 2009, 400 с.
137. Клаузевиц К. О войне (5-6)/Пер.с нем. А.К. Рачинского. Москва: РИМИС, 2009, 496 с.
138. Клаузевиц К. О войне (7-8)/Пер.с нем. А.К. Рачинского. Москва: РИМИС, 2009, 336 с.
139. Клаузевиц К. О войне /Пер.с нем. А.К. Рачинского. Москва: Эксмо, 2013, 512 с.
140. Коленкур, Арман де. Наполеон глазами генерала и дипломата/пер с.фр. Москва, Изд. АСТ, 2016, 448 с.
141. Кравчук Александр. Императоры./пер.с пол. Н.В. Селивановой. Москва, Астрель, 2012, 1118 с.
142. Кревельд, М. Ван. Трансформация войны. Пер. с англ. АНО «ИРИСЭН». Москва, Альпина Бизнес Букс, 2005, 344 с.
143. Лееръ. Прикладная Тактика. Санкт-Петербург, Русская Скоропечатня, 1877, 499 с.
144. Ливий Тит. История Рима от основания города. Т.1. Москва, Наука, 1989, 576 с.
145. Ливий Тит. История Рима от основания города. Т.2. Москва, Наука, 1991, 527 с.
146. Ломазофф А. Всемирная история войн. С древнейших времен до наших дней. Москва, Колибри, 2015, 320 с.
147. Лэмб Гаролд. Тамерлан. Правитель и полководец. Пер.с анг. Л.А. Игоревского. Москва: ЗАО Центрполиграф, 2014, 287 с.
148. Люксембург Р. О социализме и русской революции: Изб.ст., речи, письма. Москва, Политиздат, 1991, 399 с.
149. Маккенни, Р. XVI век. Европа. Экспансия и конфликт/пер.с англ. С.Б. Володиной. Москва, РОССПЭН, 2004, 480 с.
150. Макьявелли Н. О военном искусстве. Сочинения исторические и политические: пер.с итал. Москва: Астрель, 2012, 318 с.
151. Мамедов С.Г. Источники военного права в Азербайджане в XIII-XV вв. Баку, Nafta-Press, 2008, 233 с.
152. Мандзяк А. Воины ислама: Воинский и боевое искусство мусульманских народов/Под общ.ред. А.Е. Тараса. Минск, Книжный Дом, 2008, 416 с.
153. Манфред А.З. Наполеон Бонапарт. Сухуми, Алашара, 1989, 680 с.
154. Мартынов, А.И. Археология. Учеб. Москва, Изд.Юрайт, 2012, 460 с.
155. Машкин Н.А. История Древнего Рима. Москва, Изд.Пол.Лит. 1947, 679; 1949, 736 с.

156. Меринг Франц. Очерки по истории войн и военного искусства./пер. с нем. В.Я.Голанта. Москва, Военное Издательство Министерства Обороны СССР, 1956, 403 с.
157. Методы археологического исследования: Учеб.пособие. А.И. Мартынов и Я. А. Шер. Москва, Высш.шк., 2002, 240 с.
158. Митюков Н.В. Имитационное моделирование в военной истории. Москва, Изд. ЛКИ, 2007, 280 с.
159. Морально-этические нормы, война, окружающая среда: Пер.с анг. Под ред. И.Т. Фролова. Москва: Мир, 1989, 254 с.
160. Надточаев А.С. Философия и наука в эпоху античности. Москва, Изд. МГУ, 1990, 286 с.
161. Нефедов С. А. Факторный анализ исторического процесса. История Востока. Москва: Изд. дом «Территория будущего», 2008, 752 с.
162. Окшотт Э. Археология оружия. От бронзового века до эпохи Ренессанса./пер.с англ. М.К. Якушиной. Москва, ЗАО Центрполиграф, 2006, 398 с.
163. Османская империя: Государственная власть и социально-политическая структура. Сборник статей. Москва, Наука, 1990, 337 с.
164. Политология: Учебник/А.Ю. Мельвиль. Москва: Проспект, 2011, 624 с.
165. Поршнев Б.Ф. О начале человеческой истории (проблемы палеопсихологии). Москва, Академический Проект; Трикста, 2013, 542 с.
166. Потапов В.В. Милитаризация или конверсия? (анализ буржуазных концепции). Москва, Наука, 1990, 112 с.
167. Пуришев Б.И. Зарубежная литература средних веков. Учеб. Москва, Просвещение, 1974, 399 с.
168. Пуришев Б.И. Зарубежная литература средних веков. Учеб. Москва, Просвещение, 1975, 399 с.
169. Разин Е.А.История военного искусство. Военное искусства рабовладельческого периода. Том 1. Москва, Военное Издательство Министерства Обороны СССР, 1955, 559 с.
170. Рзаев А.Г. История политических и правовых учений в Азербайджане (от истоков до 20 века). Баку, Элм, 2000, 528 с.
171. Рзаев А.К. Очерки истории политико-правовых учений Азербайджана. Баку, Азернешр, 1983, 195 с.
172. Семенов В.Ф. История средних веков.: Учеб./под ред. З.В. Удальцовав и С.П. Карпова. Москва, Просвещение, 1975, 590 с.
173. Скопин В.И.Милитаризм. Исторические очерки./Под научной ред. Проф., генерал-майора Н.В.Пуховского. Москва, Военное Издательство Министерства Обороны СССР, 1957. 672 с.
174. Словарь античности./пер.с нем. Отв.ред. В.И.Кузищин. Москва, Прогресс, 1989, 704 с.
175. Словарь философских терминов/Научная редакция профессора В.Г. Кузнецова. Москва: ИНФРА-М, 2010, 731 с.
176. Снесарев А. Е. Философия войны. Москва, Фин.контроль, 2003, 286 с.

177. Снисаренко А.Б. Властители античных морей. Москва, Мысль, 1986, 239 с.
178. Социология. Волков Ю.Г., Мостовая И.В. Учеб./Под ред. В.И. Добренькова. Москва, Гардарики, 2000, 432 с.
179. Социология. Учеб./под ред. В.Н. Лавриненко. Москва, ЮНИТИ-ДАНА, 2000, 407 с.
180. Сражения, изменившие ход истории: с древности до XV века. (Н.И. Девятайкин, А.Н. Галямичев, А.А. Коноплeнко, В.Н. Парфёнов, А.П. Пашинин, Ю.Г. Степанов). Саратов, Лицей, 2005, 528 с.
181. Суворов А. Наука побеждать. Москва, Воениздат, 1980, 46 с.
182. Тарле Е.В. Наполеон. Москва, Наука, 1991, 464 с.
183. Творцы античной стратегии. От греко-персидских войн до падения Рима/ авт.-сост. Виктор Дэвис Хэнсон; пер.с анг. Б.Сыркова. Москва: АСТ, 2015, 315 с.
184. Трактаты о военном искусстве/ Сунь-цзы, У-цзы; пер.с кит. Н.И. Конрада. Москва, АСТ:Астрель: СПб.: Terra Fantastica. 2011, 606 с.
185. Тураев Б.А. История древнего Востока. В 2 т.-х. Том 1. Ленинград, ОГИЗ, 1936, 361 с.
186. Урланис Б.Ц. История военных потерь. Войны и народонаселение Европы. Людские потери вооруженных сил Европейских стран в войнах XVII-XX вв. (историко-статистическое исследование). Санкт-Петербург, Полигон, 1994, 562 с.
187. Успенский Ф.И. История Византийской империи. VI-IX в.в. / Сост. Т.В. Мальчикова. Москва: Мысль, 1999, 827 с.
188. Успенский Ф.И. История Византийской империи: Отдел 6. Комнины; Отдел 7. Расчленение империи; Отдел 8. Ласкари и Палеологи. Восточный вопрос./ Сост. Л.В. Литвинова. Москва: Мысль, 1997, 829 с.
189. Успенский Ф.И. История Византийской империи: Период Македонской династии (867-1057)/ Сост. Л.В. Литвинова. Москва: Мысль, 1997, 527 с.
190. Утченко С.Л. Политические учения Древнего Рима (III-I вв. До н.э.). Москва: Наука, 1977, 254 с.
191. Фазлаллах Рашид ад-Дин. Огуз-наме./пер. с персидского Р.М. Шукюровав. Баку, Элм, 1987, 128 с.
192. Фильштинский И.М. История арабов и Халифата (750-1517 гг.)/ 3-е изд. Москва: АСТ: Восток-Запад, 2008, 349 с.
193. Хилленбранд Кэрол. Крестовые походы. Взгляд с Востока: мусульманская преспектива/пер с.англ. Санкт-Петербург, Изд.ДИЛЯ, 2008, 672 с.
194. Хрестоматия по истории Древнего Востока. Учеб.пос. В.2 ч-х. Ч.1. Москва, Высш.шк. 1980, 328 с.
195. Хрестоматия по истории Древнего Востока. Учеб.пос. В.2 ч-х. Ч.2. Москва, Высш.шк. 2001, 256 с.
196. Худяков Ю.С. Вооружение кочевников Южной Сибири и Центральной Азии в эпоху развитого средневековья. Новосибирск, Изд-во ИАЭ СО РАН, 1997, 160 с.

197. Цзе Сюань. Военный канон в сто главах. Пер.с кит. В.В. Малявина. Москва: Изд.Европа, 2011, 176 с.
198. Штолл Г.В. Герои Греции в войне и мире. Москва: Скорина, 1992, 304 с.
199. Эволюционная психология. Секреты поведения Homo sapiens. Дж. Палмер и Л. Палмер/пер.с анг.А.Кулаков, И.Павлова, С.Рысев. СПб.: Прайм-ЕВРОЗНАК, 2007, 384 с.
200. Эволюция военного искусства: Этапы, тенденции, принципы. В.В.Ларионов, Н.А. Антонов, И.Я. Выродов и др.; Под ред. Ф.Ф.Гайворонского. – Москва, Воениздат, 1987. 246 с.
201. Энгельс, Ф. Избранные военные произведения в 2 томах. Т.1. Москва, Воениздат, 1957, 843 с.
202. Эпоха крестовых походов./под ред. Э.Лависса и А.Рамбо, пер. М.Гершензона. Москва, АСТ; СПб., Полигон, 2007, 1086 с.
203. Эразм Роттердамский. Жалоба мира. Пер слат. Ф.Л. Мендельсона. Москва: Советская Россия, 1991,
204. Эрман Адолф. Государство, армия и общество Древнего Египта. Пер.с анг. И.А. Петровской. Москва: ЗАО Центрполиграф, 2008, 394 с.
205. Юсуф Хас-Хаджиб Баласагунский. Наука быть счастливым./пер. Н.Гребнева. Москва, Изд.Худож.Лит., 1971, 157 с.

## Abstrakt


### Savaş, nedenleri ve araştırılması (tarih yazarlığı ve kaynak araştırması)

**Orhan Zamanov**

"Savaş, nedenleri ve araştırılması (tarih yazarlığı ve kaynak araştırması)" adlı makale tarih bilimine çağdaş bilimsel yaklaşımla yazılmış, savaşın nedenlerine, yani militageneze  arkeolojik ve antropolojik bakışın önemine dikkat çekmektedir. Makale iki bölümden oluşmuştur ve probleme genel tahlili içerir. Makalede savaşların ortaya çıkma nedenlerinin araştırılması tarih, tarih yazarlığı ve kaynak araştırması ile ilgili mevcut görüşler değerlendirilmiştir. Makalede savaşın askeri kökleri tarih, tarih yazarlığı ve kaynak araştırması açısından çok kapsamlı kaynak taramasına dayanarak tahlil edilmiştir.

Makalede  sözkonusu olan konu yazarın uzun zamandan beri üzerinde çalıştığı ve disiplinlerarası  bilimsel çalışmanın başlangıcıdır. Şu makalede yazarın kendi görüşleri ve değerlendirmeleri de yer almaktadır.


**Anahtar kelimeler:** savaş, savaşın kökeni, militagenez, askeri tarih ve askeri düşünce

**Summary**

## War, its origin and investigation (historiography and source study)

**Orkhan Zamanov**

The article of "War, its origin and investigation (historiography and source study)" had been written on the viewpoint of anthropological and archaeological importance into the militarygenesis i.e. the origin of the war, considering the achievements of the modern science. Current article consists of two parts and reflects itself the general analysis of the problem. In this article, existing historical views had generally been interpreted in the parts of historiography and source study and investigation history of the war.

Ideas, thoughts and opinions of the author dealing with the war gained for a long period of time had been reflected in this article. Also, based on the crucial source and literature gathered since 2011, the role and position of the militarygenesis on the human society and culture, especially sivilaziation development had briefly been analysed.

**Key words:** war, origin of war, militagenes, military history and military thought

Azərbaycan Areologiyası Volume 20 № 1 2017, 41-57
© Khazar University Press 2017
DOI: 10.5782/2218-0346.2017.20.1.41

# Naxçıvanın neolit dövrü keramikasının funksional və texnoloji xüsusiyyətləri

**Zeynəb Quliyeva**
(AMEA Naxçıvan Bölməsi)
zeyneb_guliyeva@yahoo.com

**Açar sözlər:** Naxçıvan, neolit mədəniyyəti, keramika, funksional xüsusiyyət, ornament

Neolit dövrü problemlərinin tədqiqi qlobal miqyasda tədqiqatçıları düşündürməkdədir. Bəziləri onun erkən əkinçiliklə bağlı olduğunu və Neolit mədəniyyətinin də məhz Ön Asiyadan başlayan miqrasiyalar nəticəsində yayıldığını qeyd edirlər [13,193]. Bu məsələnin araşdırılmasında qədim köç yollarının qovşağında yerləşən ərazilər, o cümlədən Ön Asiyanı Cənubi Qafqazla birləşdirən Azərbaycan və xüsusən Naxçıvan ərazisində yerləşən abidələr mühüm əhəmiyyət kəsb edir. Naxçıvanda bu dövrə aid ilk tapıntılar hələ ötən əsrin 50-ci illərində qeydə alınmışdır [14, 24]. Lakin, bu materiallar digər dövrlərlə müqayisədə azlıq təşkil etdiyindən Neolit mədəniyyətinin formalaşması, inkişafı, həmçinin Eneolit dövrü ilə bağlılığına dair problemlərin aydınlaşdırılmasında yetərli olmamışdır. Bu məsələlərin araşdırılması məqsədi ilə 2013-2016-cı illərdə I Kültəpə və ətrafında yeni tədqiqatların başlanması Naxçıvanda Neolit mədəniyyətinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyət kəsb edən yeni materialların üzə çıxarılması ilə nəticələnmişdir[1]. Onların içərisində keramika məmulatı xüsusi yer tutur. Keramika arxeoloji mədəniyyətlərin xüsusiyyətlərinin müəyyənləşdirilməsində mühüm atributlardan biri olmaqla, onların mənşəyinin, həmçinin qarşılıqlı inteqrasiyasının ortaya çıxarılmasında da əsas meyarlardan sayılır.

Naxçıvanın Son Neolit keramikası əsasən saman qarışıq gildən hazırlanmış tünd qırmızı, qəhvəyi, narıncı və sarı-çəhrayı rəng çalarlarına malikdir. Onlar lentşəkilli təbəqələrin bir-birinə birləşdirilməsi yolu ilə əldə hazırlanmış və üzəri cilalanmışdır. Gil təbəqələrinin birləşdirilməsi prosesində, yaxud qabların hamarlanmasında istifadə edilməsi ehtimal olunan alətin timsalında bu fikri özünü doğruldur (Şəkil 1). 2016-cı ildə Kültəpə yaşayış yerindən tapılan alətin hər iki üzü hamar olub, kənarlarında işlənmə izləri var. Diametri 4,5x5,5 sm-dir (KT-16, №J064).

[1]2013-2016-cı illərdə I Kültəpə və ətrafındakı araşdırmalar AMEA Naxçıvan Bölməsinin bir qrup əməkdaşı, həmçinin bu sətirlərin müəllifinin də daxil olduğu ekspedisiyanın Fransa Milli Araşdırmalar Mərkəzinin nümayəndələri (C.Marro, R.Berton) ilə birgə layihəsi üzrə AMEA-nın müxbir üzvü V.Baxşəliyevin rəhbərliyi ilə aparılmışdır.

Gil qabları funksional baxımından iki qrupa ayırmaq olar: təsərrüfat qabları və məişət qabları. Birinci qrupa aid olan qablar iri həcmli, qalın divarlı olub, saman və qum qarışıqlı gildən hazırlanmış, yaxşı bişirilmişdir. Divarlarının qalınlığı 1,5-2,5 sm arasında dəyişən bu qabların kəsiyində boz-qara rəngli təbəqə izlənilir. Bu əlamət sadəcə bişmənin təsiri olmayıb qabların hazırlanmasında iki fərqli gil təbəqəsindən istifadə edildiyini göstərir. Bəzi qabların divar kəsiyində boz-qara rəngli gil təbəqəsinin eyni ölçüdə və daha qalın olması, onu hər iki üzdən örtən rəngli təbəqələrin isə nisbətən incə və qabın hər tərəfində eyni qalınlığa malik olması bu fikri təsdiq edir. Görünür qədim sənətkarlar təsərrüfat qablarının möhkəmliyini təmin etmək məqsədi ilə əvvəl saman və qum qarışıqlı, daha davamlı gil təbəqəsindən istifadə etmiş, daha sonra onun üzərinə saman qarışıqlı, müxtəlif rəngli gil təbəqəsi çəkmişlər. Bu proses bəzən qabların üzərinə incə anqob təbəqəsinin çəkilməsi, bəzən də iki ayrı gil təbəqələrinin birləşdirilməsi yolu ilə həyata keçirilmişdir.

Təsərrüfat qabları içərisində çəllək və küpə tipli iri həcmli qablar əsas yer tutur. Çəllək tipli qablar qabarıq silindirik gövdəli olub ağız və oturacaq hissədə tədricən interyerə doğru meyilləndirilmiş formaları ilə fərqlənirlər (KT-15, №E117; №E125; №E152; KT-16, №J087). Əsasən taxıl saxlanılmasında istifadə edilən bu qablar çox vaxt təsərrüfat çuxurunun (Şəkil 3), yaxud daş çevrəli ocağın içərisində, sərt gil təbəqəsi ilə çevrələnmiş halda qeydə alınmış iri fraqmentlərlə təmsil olunurlar. E kvadratının IV tikinti qatına aid olan təsərrüfat çuxurunun içərisində aşkar olunmuş qab qəhvəyi rəngli olub, hər iki üzündə tünd rəngli çillər var (Şəkil 2, 2). Qum və saman qarışıqlı gildən hazırlanmış qab yaxşı bişirilərək xəfif cilalanmışdır (KT-15, №E125). E kvadratına aid nalşəkilli tikilinin cənub-şərq hissəsindəki döşəmənin üstündə aşkar edilən digər qab da onunla eyni rəngə və tərkibə malik olub, yalnız ölçüsünə görə bir qədər fərqlənir. Onun hündürlüyü 45 sm, ağız diametri 31, oturacaq diametri 40 sm-dir (KT-15, №E117). Bu qabın salamat qalan fraqmentinin kəsiyində lentşəkilli təbəqələrin birləşdirilməsi texnologiyası aydın formada görünür (Şəkil 2,1). Üçüncü qab qırmızı rəngli olub xarici səthinə sarı-çəhrayı rəngli nazik anqob çəkilmişdir. Divar qalınlığı ilə (1,5 sm) müqayisədə daha nazik olan (1 sm) oturacağının diametri 45 sm-dir. Oturacağında hislənmə izləri olan bu qab saman qarışığının üstünlük təşkil etdiyi gildən hazırlanmışdır (KT-15, №E15). Kvadratın şərqindəki aypara şəklində daşlarla çevrələnmiş ocağın içərisində aşkar edilən dördüncü qab hazırlanma texnologiyasına görə digərləri ilə oxşar olub, yalnız ağız kənarını çevrələyən relyef ornamentinə görə fərqlənir. İnteryeri qəhvəyi-sarı rəngli nahamar, xarici səthi sarı rəngli və cilalı olan bu qabın da üzərində tünd rəngli çillər var. Relyef qurşaq və batıq xəttlə çevrələnmiş ağzının diametri 29 sm-dir (KT-15, №E152). Beşinci təsərrüfat qabı 2016-cı ildə J kvadratının

üçüncü tikinti qatında aşkar edilmişdir (KT-16, №J087). Divar qalınlığı 2 sm-ə çatan bu qabın oturacaq diametri 46 sm-dir. İçərisində kül qarışıq qumlu torpaq, həmçinin heyvanın onurğa sümüyünün bir hissəsi qeydə alınmışdır. Ağız kənarı sındığından salamat qalan hissəsinin dərinliyi 18-20 sm ölçüsündə müəyyənləşdirilmişdir. Qab 5 sm qalınlığında sarı rəngli sərt təbəqə ilə çevrələnmişdir. Bu xüsusiyyət qabın xüsusi əhəmiyyətə malik olduğunu göstərir. Çəllək tipli qablar əvvəlki illərdə də I Kültəpədən aşkar edilmişdir [21, Рис.10, 5,7]. Onların bənzərlərinə Şomutəpədə [21,Рис.7, 2; 5, 214, d-11], Çatal böyük yaşayış yerinin e.ə. 5900-cü ilə aid edilən VI A təbəqəsində [18, s. 88], Xatunarx yaşayış yerinin III-IV təbəqələrində [8, Fig. 9, 19], İmiris Qorada [15, Abb. 48, 1-2] rast gəlinmişdir.

Küpələr az miqdarda qeydə alınmışdır. Onları boğaz quruluşuna görə 2 tipə ayırmaq olar: silindirik və qıfşəkilli olanlar (Şəkil 4, 1-3). Birinci tipə aid olan küpələr çəhrayı, qəhvəyi rəng tonlarında olan saman qarışıqlı gildən hazırlanaraq xarici səthi narıncı rəngdə anqoblanmışdır (inv.№KT-15, №A161; №E-105). Bu tip qabların bir qismi ağız kənarlarında tətbiq edilmiş ornamentlərlə diqqət çəkirlər. Onlardan birinin diametri 20 sm-ə çatan ağız kənarında dairəvi deşik açılmışdır (KT-15, №A-111). Ağız diametri 27 sm olan digər qabın boğazı relyef qurşaqla çevrələnmişdir. Qabın divar qalınlığı 2 sm, relyef ornamentasiya ilə birlikdə 3 sm-dir (KT-16, №E229). Onun Şomutəpədə rast gəlinən oxşar nümunəsi üzərindəki relyef ornamentasiya üfüqi vəziyyətdə boğazını çevrələyən qırıq xəttlərdən ibarət olması ilə fərqlənir [5, Таб.212). Üçüncü küpə ağız kənarından çiyninədək şaquli istiqamətdə 2 cərgədə düzülmüş 8 sayda qabarıq dairələrdən ibarət ornamentləri ilə fərqlənir (Şəkil 4,1). Tərkibinə saman qarışdırılmış çəhrayı-qırmızı rəng koloritində olan gildən hazırlanmış bu qabın ağız diametri 18, divar qalınlığı 1,3 sm olub xarici səthi hislənmişdir (KT-16, №G104). Onun bənzərinə Aruxloda rast gəlinmişdir [21, Рис.32]. Silindirik boğazlı qablara İranın şimal-qərbində yerləşən Təpə Xaleseh yaşayış yerinin son neolit təbəqəsində [6, PL. 2, 4], Xatunarxda da[8, Fig. 9-1, 22] rast gəlinir.

Qıfşəkilli boğazlı küpələrdən birinin (KT-15, №E106) ağız diametri 27 sm-dir. E kvadratının III tikinti qatına aid ocağın içərisində qeydə alınan bu qab sarı-çəhrayı rəngli, qum qarışıqlı gildən hazırlanmış və yaxşı bişirilmişdir. Sarı rəngli saman qarışıqlı və yaxşı bişirilmiş digər küpənin ağız diametri 24 sm-dir (KT-15, №D170). Bu cür boğaz forması Şomutəpə [5, Таб. 205, d-10,d-14,d-16], eyni zamanda Urmiya gölü hövzəsindəki Təpə Xaleseh abidəsinin son neolit təbəqəsinə aid keramika nümunələrində [6, Pl. 2. 1], Hacı Firuz keramikasında da [22, Fig. 85, g,h,v] izlənilir.

Araşdırmalar göstərir ki, bu tip iri həcmli qablardan taxıl və digər qida məhsullarının saxlanılmasında istifadə edilmişdir. Əsasən təsərrüfat çuxurları

içərisindən aşkar edilmiş iri həcmli qabların öz yaxın paralellərini Mesopotamiya və Urmiya hövzəsindəki sinxron abidələrdə tapması bu regionlar arasındakı mədəni-iqtisadi əlaqələrdən xəbər verir.

Naxçıvanın neolit keramikası içərisində məişət qabları özünəməxsus yer tutur. Onlar saman qarışıqlı gildən səliqəli hazırlanmaları, əsasən ağız kənarlarında tətbiq edilən ornamentləri və əlvan rəng koloriti ilə diqqəti cəlb edirlər. Bu qablar içərisində geniş yayılma dərəcəsinə görə kasalar öndə gəlir. Onlar konusvari və qabarıq gövdəli formalarla nümayiş olunur (Şəkil 5, 3-4). Konusşəkilli kasaların narıncı rəngli nümunələrindən biri saman qarışıqlı gildən yaxşı bişirilmiş və xəfif cilalanmış, konusvari gövdə divarı oturacağa kəskin keçidlə birləşir. Onun divar qalınlığı 1 sm, oturacaq qalınlığı 0,8 sm, diametri isə 13 sm-dir (KT-15, №E115). Saman qarışıqlı gildən hazırlanmış digər nümunə də yaxşı bişirilmiş, üzəri xəfif cilalanmışdır (KT-15, №F029). Bütün ölçüləri ilə əvvəlkinin eynisi olan bu qab yalnız xaricə doğru çıxıntılı olan silindrik oturacağı ilə fərqlənir. Narıncı rəngli kasalar kiçik həcmli olması, yaxşı bişirilməsi və cilalanması, həmçinin ağız kənarında yuvarlaq konusşəkilli relyef ornamentləri ilə diqqət çəkirlər (Şəkil 5, 5). Bu tip kasaların daha bir nümunəsi qum və saman qarışıqlı gildən hazırlanaraq sarı-çəhrayı rənglə anqoblanmışdır. Qabın divar kəsiyində boz-qara rəngli bişməmiş təbəqə izlənilir. Birinci nümunədən fərqli olaraq bu qabın divarı (1 sm) ilə müqayisədə daha qalın olan oturacağının diametri 12 sm-dir (KT-15, №A144). Kasalardan birinin oturacağı interyerə doğru xəfif batıq formadadır (KT-15, №A139). Qırmızı rəngli saman və qum qarışıq gildən hazırlanmış kasanın üzəri sarı rəngdə anqoblanmış və xəfif cilalanmışdır. Xaricdən hislənmiş olan oturacaq hissəsinin diametri 12 sm, divar qalınlığı 0,7-1,2 sm arasında dəyişir. Bu tip oturacaqlı qablara Hacı Firuz keramikası arasında [22, Fig. 91, i], Şomutəpə materialları arasında [5, Таб. 212, d-12-d-22; 216, d-10], İranın şimal qərbində yerləşən Təpə Xalesehin Son Neolit təbəqəsinə aid materiallar arasında [6, Pl. 2. 9, 11, 13], Xatunarxda [8, Fig. 9-1,21], İmiris-Qorada [15, Abb. 45, 2-4] da rast gəlinir.

İkinci qrupa aid olan kasalar qabarıq gövdəli olub ağız quruluşuna görə 3 tipə ayrılır: xaricə doğru meyilli olanlar, interyerə doğru yığılanlar və düz formalı olanlar. Ağız kənarları xaricə doğru açılan kasalardan biri E kvadratının V tikinti qatında qeydə alınmışdır. Ağız diametri 12 sm olan bu kasa dəyirmi gövdəli, silindirik boğazlıdır (KT-15, №E151). Digər nümunə formasına görə onunla oxşar olub nisbətən kiçik həcmli olması ilə fərqlənir. Ağız diametri 10 sm olan bu kasa qəhvəyi rəngli qum qarışıqlı gildən hazırlanaraq xarici səthi hamarlaşdırılmışdır (KT-15, №A117). Bəzisinin ağzının kənarında bişmədən sonra silindrik deşiklər açılmışdır. Ağzı interyerə doğru yığılmış kasalardan biri sarı-çəhrayı rəngli saman və qum qarışıqlı gildən hazırlanaraq yaxşı bişirilmişdir. Hər iki üzdən yüngül cilalı olan bu qabın ağız

diametri 16 sm-dir (KT-15, №D170). İkinci nümunənin ağız diametri 18 sm-dir. Düz ağız quruluşuna malik olan kasalardan biri çəhrayı rəngli gildən hazırlanmış, divar qalınlığı 1 sm, ağız diametri isə 15 sm-dir (KT-15, №E78). Digəri qəhvəyi rəngli olub, nazik divarları (0,5 sm) arasında bişməmiş boz rəngli təbəqə qalmışdır. Qabın oval oturacağının diametri 8 sm-ə çatır (KT-15, №A115). Bu qrupa aid olan kasalardan ikisi oturacaq quruluşu ilə digərlərindən fərqlənir. Onlardan biri sarı-çəhrayı rəngli, saman qarışıqlı gildən hazırlanmış nazik divarları arasında boz təbəqə izlənilir. Qabın oturacaq diametri 15 sm-dir (KT-15, №A123). Oturacaq diametri 12 sm olan digər kasa oturacağı gövdə ilə birləşən hissəsinin batıq xətlə çevrələnməsi ilə fərqlənir. Onların hər ikisi silindrik oturacaqlıdır. Silindirik oturacaqlı qablar Şomutəpədən [5, Таб. 215, 5-10; 216, 1-12], Hacı Firuz yaşayış yerindən məlumdur [22,Fig. 91, k,i,n,p]. Qabarıq gövdəli kasalar öz paralellərini Xatunarx materialları arasında da tapır [8,Fig. 9-2,16].

Çölmək tipli qabların xəfif yuvarlaq və konik gövdəli nümunələrinə rast gəlinmişdir. Birinci tipə aid olan qablardan biri Kültəpə yaşayış yerinin D kvadratının aid ocağın içərisində qeydə alınmışdır. Qab boz-sarı rəngli olub, xaricdən hislənmişdir (KT-16, №D165). Kəsiyində narıncı və boz rəngli gil təbəqələri izlənilir. Divarı ilə müqayisədə (1 sm) daha incə olan oturacağının (0,5 sm) diametri 44, ağız diametri isə 50 sm-dir. Qabın gövdəsində üfüqi şəkildə tətbiq edilmiş çıxıntı qulpu əvəz etmişdir. Bu qabın Mesopotamiyadan (Umm Dabagiyah) [19, Fig. 80] və Urmiya hövzəsindən [22, Fig. 128], Xatunarxdan [8, Fig. 9,19], İmiris-Qoradakı [15, Abb.50,3] sinxron abidələrdən aşkar edilmiş bənzərləri qulpsuz olmaları ilə fərqlənirlər. Konik formalı qablardan biri D kvadratının V tikinti qatından aşkar edilmişdir. Boz-qəhvəyi rəngli gilinə saman qarışdırılmış qabın ağız kənarından 5 sm aşağıda yerləşən qulplarından biri sınmışdır (KT-15, №D163). J kvadartının III tikinti qatında qeydə alınan ikinci nümunə formasına görə onunla oxşardır, yalnız qırmızı rəngli səthinin xəfif cilalı olması və qulpunun olmaması ilə fərqlənir (KT-16, №J069). Qalınlığı 1,8-2 sm arasında olan divarının kəsiyində boz-qara rəngli təbəqə izlənilən qabın hünüdürlüyü 18, oturacaq diametri 35 sm-dir. Konusvari gövdəyə malik olan qablarda bir neçə oturacaq forması izlənilir. Onlardan biri halqadabanlı quruluşu ilə diqqət çəkir. Çəhrayı-sarı rəngli saman qarışıqlı gildən hazırlanmış bu qabın xarici səthi cilalıdır. Diametri 27 sm olan bu qab cəmi bir nümunə ilə təmsil olunmuşdur (KT-15, №E114). Digər nümunə daban şəklində kənara doğru çıxıntılı oturacağı ilə fərqlənir (inv. № KT-15, G33). Oturacaq diametri 20 sm olan bu qabın divar və oturacaq qalınlığı bərabərdir (0,8 sm). Xarici səthi cilalı olub divarları arasında boz təbəqə var. Üçüncü nümunə silindirik oturacağı ilə fərqlənir. Xaricdən sarı, interyerdən çəhrayı rəngdə olan qum qarışıq gildən kobud formada hazırlanmış bu qabın divar qalınlığı 1, 7 sm, oturacaq qalınlığı 2, 5,

diametri isə 46 sm-dir (KT-15, №E-115). Konusvari gövdəli qabların bənzərlərinə Şomutəpə [3,Таб. 144], Xatunarx [8, Fig. 9, 8,12, 17], Hacı Firuz [22, Fig. 72, a; 74, b, c, d, i, m; 75, a-f], Təpə Xaleseh [6, PL. 2.9, 13-14]), Tell Halula [18, Fig. 5, 10], Təpə Quran [14, Fig. 38, k,d], Tell əs-Savvan [19, Fig. 91, a,d] kimi sinxron abidələrdə rast gəlinir. Bu tipli qablardan biri içərisində qalmış oxra qalıqları ilə diqqət çəkir. E sahəsinin V tikinti qatına aid divarın yaxınlığında döşəməyə basdırılan qab (KT-15, №E158) qum qarışıq gildən hazırlanmış və düz divarlıdır. Onun divar qalınlığı 1,5 sm, diametri 25 sm-dir. İçərisində qırmızı boyaq qalıqları olan qabın ətrafı sərt gil təbəqə ilə bərkidilmişdi. Görünür ki, ondan boyaq saxlanılmasında istifadə edilmiş və ciddi mühafizə edilmişdir. Məlum olduğu kimi boyaq maddələrindən ölülərin, qabların, bəzən də divarların boyanmasında istifadə edilirdi. Bu da həmin maddələrin əhəmiyyətini artırdığı üçün onların saxlandığı qabların yaxşı mühafizə edilməsini zəruri etmişdir. Onun bənzərinə Şomutəpə keramikası içərisində rast gəlinir [5, Таб. 215,2/424].

Tava tipli qablar iri ölçülü və dayaz formaları ilə diqqət çəkirlər. Tərkibinə saman, az miqdarda isə qum qarışdırılmış bu qabların divar qalınlıqları 1-1,5 sm, oturacaq qalınlıqları isə 0,5-1 sm arasında olan bu qablar qəhvəyi rəngin müxtəlif çalarlarında olub ölçülərinə və oturacaq formalarına görə fərqlənirlər (KT-15, №F072; №G18). Yuvarlaq-maili formada divarla birləşən birinci tip oturacaqlara iki nümunədə rast gəlinir. Onlardan biri F kvadratının I tikinti qatından aşkar edilib, diametri 60 sm-dir (KT-15, №F-072). Oturacağının kənarlarından gövdəsinə doğru cərgə ilə novşəkilli batıqları olan ikinci nümunənin isə diametri 70 sm-dir (KT-15, №G18). Onun kəsiyində boz rəngli gil təbəqəsi izlənilir. Bu təbəqədə daha iri qum, onu hər iki üzdən əhatə edən təbəqənin tərkibində isə saman qarışığı üstünlük təşkil edir. İkinci tipə xaricə doğru çıxıntılı oturacaqlar aiddir (KT-16, №E218; №E325). Onlardan biri kəskin şəkildə xaricə çıxıntılıdır. Salamat qalmış ağız və oturacaq hissəsinə əsasən hündürlüyünün 7,5-8, oturacaq diametrinin 28, ağız diametrinin isə 32 sm arasında olduğu müəyyənləşdirilmişdir. Digər qabın oturacağı isə xaricə doğru yuvarlaq çıxıntılıdır. Bu tipli qabların hamısının divar qalınlığı ilə müqayisədə oturacaqlarının nazik olması onlardan çörək bişirilməsində istifadə edildiyini göstərir [9, 195]. Bu qabların Şorsu yaşayış yerindən aşkar edilmiş nümunəsi ağız kənarının dairəvi deşiklərlə çevrələnməsi ilə fərqlənir. Podnos tipli qabların bənzərləri 2013-cü il arxeoloji qazıntıları zamanı Yeni yol yaşayış yerindən [10, 47], həmçinin vaxtı ilə Göytəpə və Aruxlo [16, 51; 15, Fig. 9, 1-2], İranın Təpə Xaleseh abidəsinin Son Neolit təbəqəsindən [7, Pl. 2, 6,12], Hacı Firuz yaşayış yerində aşkar edilmişdir [22, Fig. 80,a,b]. Tel əs-Savvan yaşayış yerinin I təbəqəsində bu tip qabların alebastrdan hazırlanmış nümunələrinə də rast gəlinmişdir [19, Fig. 90].

Qazan tipli təsərrüfat qabları silindirik gövdəli olub, qalın divarları ilə müqayisədə nazik olan və xaricə doğru çıxıntılı oturacaqları ilə diqqət çəkirlər (KT-15, №E42). Onları oturacaq formasına görə 3 qrupa ayırmaq olar: yuvarlaq şəkildə kənara doğru çıxıntılı olanlar; kəskin şəkildə kənara çıxıntılı olanlar və düz formada gövdə divarına birləşənlər. Birinci qrupa aid olanlar açıq qəhvəyi rəngli, qalın divarlı (1,5-2 sm) olmaqla tərkibinə iri qum və saman qarışdırılmış gildən hazırlanmışdır. Divarları arasında qalın boz təbəqə izlənilir. Bu tipli qablardan birinin divar qalınlığı 1, 5 sm, oturacaq qalınlığı 1,2 sm, diametri 42 sm-dir (KT-15, №F006). İkinci qrupa aid olanlar yaxşı bişirilmiş və hər iki üzdən cilalanmışdır. Onlardan biri qəhvəyi rəngli, qum qarışıq gildən bişirilmiş və hər iki üzdən cilalanmışdır (KT-15, №E72). Oturacaq diametri 25 sm-dir. Onların bənzərlərinə Suriyada Tell Halula neolit düşərgəsinin materialları arasında rast gəlinir [23, Fig. 5. 9; 7, 12]. Bu tip keramika məmulatı Şomutəpə [5, Taб.215, 3], Molla Nağı təpəsi, Göytəpə, Urmiya hövzəsində Hacı Firuz yaşayış yerindən məlumdur [22, Fig. 74,e,h]. Ağzı içəriyə doğru yığılmış qablardan biri qırmızı rəngli, saman qarışıqlı gildən hazırlanaraq yaxşı bişirilmiş və hər iki üzdən cilalanmışdır. Onun diametri 24 sm-dir (KT-15, №E-134). Qırmızı rəngli qum qarışıq gildən hazırlanmış daha bir nümunə cilalı olması və forması ilə oxşar olub yalnız ölçüsünə görə fərqlidir. Divarları arasında boz təbəqə olan bu qabın ağız diametri 32 sm-dir (KT-15, №E-117). Bu tipli qablar Hacı Firuzdan məlumdur [22, Fig. 73, e, f; 82,f]. Qazan tipli qablara İranın Alikoş neolit abidəsində [19, Fig.40], Anadoluda [19, Fig. 52], Mesopotamiyada [19, Fig.91, c], Şimali İran ərazisindəki Tepe Quran yaşayış yerinin neolit keramikası içərisində [19, Fig.38,c], Xatunarxda [8, Fig. 9, 1,4,6] rast gəlinir.

Keramikanın bir qismi banka tipli qablarla təmsil olunmuşdur. Onlar düz divarlı, silindirik gövdəli və kiçik həcmlidirlər. Belə qablardan biri qəhvəyi rəngli, nazik divarlı, hər iki üzü xəfif cilalı və lüləklidir (KT-15, №A142).

Bu dövrün qablarında müxtəlif bəzəmə texnologiyasından istifadə edilmişdir. Bu üsullara relyef yapmalar, novşəkilli batıqlar, dairəvi deşilmə və cızma texnologiyası daxildir. Relyef ornamentlər bir qayda olaraq yapma üsulla tətbiq olunmuşdur. Bu üsul relyef ornamentlərdə daha aydın izlənilir (Şəkil 5, 1). Onlar bir qayda olaraq qabların ağız kənarından 3-4 sm aşağı hissədə tətbiq edilmişdir (KT-15, №E66;№E74; №E118; №E127; №E143). Qabların ağız kənarını çevrələyən relyef qurşaqların bənzərlərinə Muğanın neolit keramikasında [4,28-30], Şomutəpədə [3, Taб.211, d-20], İranın şimal-qərbindəki Təpə Xaleseh abidəsinin Son Neolit qablarında [7, Pl. 2. 7], Tell-al Mushki yaşayış yerindən aşkar olunmuş boyalı keramikada rast gəlinir [7, Fig. 6, a]. Lakin Naxçıvanın neolit keramikasında rast gəlinən relyef

qurşaqlar onlardan fərqli olaraq 3 tiplə təmsil olunur: konusabənzər yuvarlaqlaşdırılmış halda olanlar (KT-15, №E86; №E149), yuxarıya doğru meyilləndirilmiş formada olanlar (KT-15, №D148; №F37; №F102; №F110) və aşağıya doğru qalınlaşdırılaraq qulp formasını alan relyef qurşaqlar (KT-15, №F072). Bəzi hallarda keramika nümunələri üzərindəki relyef qurşaqlar batıq xəttin əhatəsində ortaya çıxır. Araşdırmalar göstərir ki, bu tip ornamentlər sadəcə bəzək funksiyası daşımamış, eyni zamanda praktik əhəmiyyətə malik olmuşdur. Belə ki, onların bəzilərinin qabın qabarıq formalı gövdəsinin tədricən aşağıya doğru daralmağa başlayan hissəsində, həm də qabı tam çevrələməsi onun iki funksiya daşımasını nümayiş etdirir: bəzək və qulp funksiyası. Qabın orta hissəsində salınması və yuxarıda maili gəldiyi halda aşağıda kəsilərək hamarlaşdırılması, içərisində müxəlif məhsul yaxud maye saxlanılan qabın asanlıqla daşına bilməsini təmin edə bilərdi. Bu funksiya özünü digər ornamentlərdən fərqli olaraq bu tip relyef qurşağın qabların boğaz hissəsində deyil gövdəsində salınmasında da biruzə verir. Küpələrin boğaz hissəsini çevrələyən relyef qurşaqlar onların ağzının örtülməsi prosesində qapağın saxlanması, yaxud bağlanmasını təmin edə bilərdi. I Kültəpə keramikasında bu cür bəzəklərin müxtəlif çeşidli olması, həmçinin biri istisna olmaqla qalan 3 formanın digər abidələrdə öz analoqunu tapmaması onların lokal xarakterini nümayiş etdirir. Bu xüsusiyyət onların tətbiq üsullarında da izlənilir.

Qabarıq dairəvi naxışlama üsulu kiçik həcmli qablarda daha çox izlənilir. Onların hələlik 3 tipinə rast gəlinmişdir: dəyirmi, trapes formada və oval şəkilli. Birinci tipə aid olan yuvarlaq qabartmalara əsasən narıncı rəngli keramikada (KT-15, №E78; №E47; №F003), bəzən də qəhvəyi rəngli keramikada rast gəlinir (inv. № KT-15, E-134). Onlar vaxtı ilə O.Həbibullayevin I Kültəpədə apardığı qazıntılar zamanı da qeydə alınmışdır [1, Таб. IX, 6,8; 10, Таб. XXI, 2,4]. Neolit dövrünün xarakterik xüsusiyyətlərindən sayılan yuvarlaq qabartma ornamentlərə Şorsu yaşayış yerindən aşkar edilmiş Son Neolit keramikası üzərində [10, Şəkil 5, 3,6], Şomutəpədə [ 5, Таб. 210],Şulaveridə [21, Рис. 7,8-13] Xatunarxda [8, Fig. 9-1, 12-15], İmiris Qorada [15, Abb. 44, 1; 48, 3; 49, 1], Sibirin Çes-tıy-yaqa Neolit yaşayış yerində [12,Табл. IV, 5], İsveçrənin Eqolçivil abidəsindən aşkar edilən kortayo mədəniyyətinə məxsus keramika nümunələrində rast gəlinmişdir[2, 252]. Diqqət çəkən xüsusiyyətlərdən biri bu ornamentlərin qabların boğazından tam ağız kənarına doğru tədrici yerdəyişməsidir [17, Şəkil 4).

İkinci tip qabartma künclərdə yuvarlaqlaşdırılmış trapes forması ilə diqqəti cəlb edir. Ornament açıq qəhvəyi rəngli, saman və qum qatışıqlı gildən hazırlanmış və divar qalınlığı 0,7 sm olan iri ölçülü qabın tam ağız kənarında tətbiq edilmişdir. Keyfiyyətli bişirilərək, xaricdən yaxşı cilalanmış bu qabın ağız diametri 40 sm-dir (KT-15, №E93). Üçüncü tipə aid olan ovalşəkilli-

uzunsov qabartmalara sarı rəngli saman qarışıqlı gildən hazırlanmış saxsı fraqmentləri üzərində rast gəlinmişdir (KT-15, №D150; №E100). Yuvarlaq qabartma ornamentlə naxışlanmış saxsı nümunələrindən ikisi bir qədər fərqli forması ilə diqqəti cəlb edir. Onlardan biri diametri 25 sm olan qabınağız kənarından 4,5 sm alt hissədə aşağıya doğru meyilli formada yuvarlaqlaşdırılmışdır (KT-15, F-043). Onların bənzərləri Şulaveri-Şomutəpə mədəniyyətinə [21, Рис. 12. I-IV], Göytəpə Neolit yaşayış yerinə [16, 51-54], həmçinin Ukraynanın Neolit mədəniyyətinə [3, Рис.33, 12; 37,1; 38,8; 40,9] məxsus keramika nümunələrində geniş yayılmışdır. Yuvarlaq qabartma ornamentlərin bəzisi qulpşəkillidir (KT-15, №E122, №A097, №E146; E113; №A098). Uzunluqları 3-3,5 sm, eni 3 sm, qalınlığı 1,5 sm olan bu fraqmentlərin ölçüləri, həmçinin sərtlik xüsusiyyətləri onların sadəcə ornament deyil, qulp kimi işlək funksiya daşıdığını göstərir. Bu tipli çıxıntılara Zakarpatyedə yayılmış Kriş mədəniyyətinə aid saxsı qablarda rastlanmışdır [3, Рис. 37, 6]. Relyef bəzəmələrin Urmiya hövzəsindəki nümunələri bir qədər fərqlidir. Qabarıq dairələr xaotik formada düzülmüşdür, qulpşəkilli çıxıntılar isə paralel bərabərlikləri xatırladan kəsik xətlərdən ibarətdir [22, Fig. 42].

Naxçıvanın neolit keramikasında yuvarlaq deşiklərlə bəzəmə texnikası geniş tətbiq edilmişdir [17, Şəkil 6, 1]. Bu stil Neolit dörünün xarakterik xüsusiyyətləri əks etdirməklə qabların ağız kənarında cərgəli şəkildə, bəzən də tək və ya cüt formada açılmışdır (KT-15, №A111; №D150; №G33). Onların bənzərlərinə Şorsu keramikasında [10, 5], Xatunarxda [8, Fig. 9-1,1-2] Ob ətrafındakı neolit abidələrində [12, Табл. X, 5,9], Krımın Neolit düşərgələrindən üzə çıxarılan saxsı nümunələrində [3, Рис. 40, 3,8] rast gəlinir.

Müxtəlif formalı batıq ornamentlərlə naxışlama üsuluna novşəkilli olanlar aiddir (17, Şəkil 1,5). Bu tip ornamentə hələlik 2 qab üzərində rast gəlinmişdir. Açıq qəhvəyi rəngli olan bu fraqment (6x14 sm) iri həcmli, qalın divarlı qaba aiddir. Onun oturacağının diametri 70 sm-dir. Novşəkilli ornamentlər onun oturacağından gövdəsinə doğru 1,2-3 sm-lik ölçüdə olmaqla, 2 sm aralıqla tətbiq edilmişdir (KT-15, №G18). Krımın Neolit düşərgəsindən üzə çıxarılmış keramika nümunəsinin ağız hissəsində salınmış novşəkilli batıq kiçik ölçülü olması ilə fərqlidir [3, Рис.40, 1]. Novşəkilli batıqla çevrələnmiş qablara vaxtı ilə O.Həbibullayevin I Kültəpədə apardığı qazıntılar prosesində də rastlanmışdır. O bu tip batıqların qabı bərpa etmək məqsədi daşıdığını qeyd etmişdir [10, 59].

Cızma üsullu naxışlama texnologiyasına hələlik 3 keramika nümunəsində rastlanmışdır (Şəkil 6, 1-3). Onlardan biri tünd qırmızı rəngli saxsı fraqmenti üzərində çəkilmiş mifik təsvirdən ibarətdir. İkinci nümunə sarı-çəhrayı rəngli, saman qarışıqlı keramika üzərində tətbiq edilmişdir. İlk baxışdan həyat ağacının stilizə edilmiş obrazını xatırladır (KT-15, №F027). Şulaveri-

Şomutəpə mədəniyyətinə aid saxsı nümunələri üzərində [21, Рис. 12.II], həmçinin İraq ərazisindəki Yarımtəpə abidəsinin Neolit keramikasında [20, Fig. 5, 8; 7, 14, 19] eyni motivdə rast gəlinir. Üçüncü nümunə isə saman qarışıq gildən hazırlanmış, interyeri sarı, xaricdən isə qırmızı rəngli olan saxsı fraqmenti üzərində tətbiq edilmişdir. Hər iki üzdən yaxşı hamarlanan bu qabın diametri 34 sm-dir. Ornament onun xarici səthinə 3-4 cərgə paralel xətlərin kəsişməsindən yaranan üfüqi istiqamətli bucaqlar formasında çəkilmişdir (KT-15, №E146). Bu stildə bəzəmə motivi Yarımtəpə keramikasında izlənilir [21, Fig. 7, 8]. Həndəsi formada cızma naxışlara Xatunarxın son neolit keramikasında [8, Fig. 9-1, 17-18], İmiris-Qorada [15, Abb. 40, 4] rast gəlinir. Bu dövrün keramikası üzərində ornamentlərin çəkilmə texnologiyasının Azərbaycanın Şorsu, Yeni yol, Şomutəpə abidələrində, Urmiya hövzəsinin Hacı Firuz, Şərqi Anadolunun Kortik təpə və digər sinxron abidələrin materiallarında izlənilməsi, Urmiya hövzəsi, Şərqi Anadolu və Cənubi Qafqaz, o cümlədən Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazisində mövcud olmuş Neolit mədəniyyətinin ortaq xüsusiyyətlərə malik olduğunu nümayiş etdirir.

Naxçıvanın neolit keramikasının funksional və texnoloji xüsusiyyətlərinin təhlili bəhs edilən dövrdə insanların həyat tərzini, xüsusilə də sənətkarlığın inkişaf tempini izləməyə imkan verir. Keramikanın böyük bir qisminin təsərrüfat məqsədli iri həcmli qablarla təmsil olunması Naxçıvanın qədim tayfaları içərisində oturaq həyat tərzinin üstün yer tutduğunu göstərir. Qabların hazırlanma texnologiyası da bu əlaməti əks etdirməkdədir. Belə ki, təsərrüfat qablarının məişət yönümlü qablarla müqayisədə daha qalın və davamlı olması onların torpağın altında uzun müddətli sağlam qalmasını təmin etməklə, insanların burada geniş zaman kontekstində yaşadığından xəbər verir. Təsadüfi deyil ki, kiçik həcmli qablarla müqayisədə bu qablar bütöv halda, yaxud da iri fraqmentlər halında qeydə alınmışdır. Digər tərəfdən qabların bir qisminin xüsusi diqqət və səliqə ilə hazırlanması, həmçinin onların üzərindəki ornamentlərin çəkilmə texnologiyası oturaq həyatın əsas göstəricilərindən olan ev sənətkarlığının mövcudluğundan xəbər verir. Bu dövrün sənətkarlığı üçün əsasən saman və qum tərkibli, müxtəlif rəng çalarlarına malik gildən hazırlanan lentşəkilli təbəqələrin birləşdirilməsi yolu ilə əldə edilən qablar, onların üzərində relyef ornamentlərin yapma üsulla çəkilmə texnologiyası xarakterik olmuşdur. Keramikanın tərkibi, həmçinin hazırlanma texnologiyası qabların funksiyasına görə dəyişik olmuşdur. Bu özünü kiçik həcmli qabların saman tərkibli və saman tərkibli eyni gil təbəqəsindən hazırlanaraq anqoblanmasında, təsərrüfat qablarının isə qum və saman tərkibli ayrı-ayrı gil təbəqələrinin birləşdirilməsi yolu ilə daha davamlı olmasında biruzə verir.

Bu dövrün keramikasının bir qismində Azərbaycanın digər bölgələrinin sinxron abidələri (Şomutəpə, Göytəpə), Xatunarx, I Aruxlo kimi Cənubi Qafqaz abidələri ilə bərabər Urmiya gölü hövzəsi (Hacı Firuz, Təpə Xaleşeh) və Mesopotamiyanın neolit abidələri (Tell əs-Savvan) ilə oxşarlığın izlənilməsi bu regionlar arasında mədəni-iqtisadi əlaqələrin olduğundan xəbər verir. Bunlarla yanaşı Naxçıvanın neolit keramikasında lokal xüsusiyyətlərə də rast gəlinir. Saman qarışıqlı gildən geniş istifadə edilməsi, xüsusilə də qabların boğaz hissəsinə ayrıca şəkildə sonradan birləşdirilən relyef qurşaqların digər abidələrdəki sinxronlarından fərqli olaraq 4 fərqli tiplə təmsil olunması, həmçinin 3 tiplə təmsil olunan yuvarlaq qabartma ornamentlərin tədrici yerdəyişməsinin timsalında bu xüsusiyyətləri izləmək mümkündür. Hələlik tək-tək elementləri üzə çıxarılan bu xüsusiyyətlər haqqında daha tutarlı dəlilləri isə gələcək tədqiqatların nəticəsi göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Археология Венгрии (Каменный век). Ответственные редакторы: Титов В.С. и Эрдели И. Москва: Наука, 1980, 420 с.
3. Археология Украинской ССР. В трех томах, том первый. Киев, Наукова Думка, 1985, 564 с.
4. Axundov T.İ, Mahmudova V.Ə, Ramazanlı H.X., Rəhmanov A.A., Vəliyev S.S. "Muğan Neolit-Eneolit ekspedisiyası"nın 2014-cü il tədqiqatları. // Azərbaycanda 2014-cü ildə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş Elmi sessiyanın materialları. Bakı, 2015, 188 s.
5. Ахундов Т.И. У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Шомутепе. Баку: Наука, 2012, 386 с.
6. Alibaigi S., Khosravi S. and Aali A. Early villages and prehistoric sites in the Abharroud Basin, northwest of the Iranian Central Plateau / Documenta Praehistorica XXXIX (2012), p. 459-472.
7. Alizadeh A., Zeidi M., Niakan L., and Atabaki A. Excavations at Tall-e Bakun A and B, Jari A and B, and Mushki: Reconstruction of the Prehistoric Environment in Marvdasht /İranian prehistoric project. 107 s
8. Badalyan S. et al. The Settlement of Akhnashen-Khatunarkh, A Neolitic Site in the Ararat Plain (Armenia): Excavation Results 2004-2009 // TUBA-AR, 2010, 13, p. 185-218.
9. Baxşəliyev V., Quliyeva Z., Marro C., Berthon R. Kültəpə yaşayış yerində 2015-ci ildə aparılan arxeoloji araşdırmalar Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2016, №1, s. 193-211.
10. Baxşəliyev V., Quliyeva Z., Marro C., Berthon R. Naxçivançay vadisində 2014-cü ilin arxeoloji araşdırmaları. Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, 2016, №3, s.112-126

11. Черлёнок Е.А. Археология Кавказа (мезолит, неолит, энеолит): Учебно-методическое пособие. СПб.: Санкт-Петербургский государственный университет, 2013, 54 с.
12. Чернецов В.Н., Мошинская В.И.,Талицкая И.А. Древняя история Нижнего Приобья. / Материалы и исследования по археологии СССР. Москва: Издательство Академия Наук СССР, 1953, № 35, с. 11-80.
13. Долуханов П. М. (Ньюкасл, Англия) Неолитизация Европы: хронология и модели. // Неолит — энеолит Юга и неолит Севера Восточной Европы (новые материалы, исследования, проблемы неолитизации регионов). — СПб: ИИМК РАН, 2003. — 316 с.
14. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1959, 134 s.
15. Kikuradze T. Neolithische Siedlungen von Kvemo-Kartli, Georgien. // Materialien zur Allgemeinen und Vergleichenden Archaologie. München, 1986, Band 29, 118 s.
16. Quliyev F., Nişiyəki Y. Cənubi Qafqazın neolit dövrünə aid Göytəpə qədim yaşayış yeri / Azərbaycanın erkən əkinçilik dövrü abidələri (məqalələr toplusu). Bakı, 2012, s. 51-54.
17. Quliyeva Z. I Kültəpənin neolit keramikasının ornamental xüsusiyyətləri. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin “Xəbərlər”i, 2016, №3, 368 s.
18. Mellaart J. Earliest Civilizations of the Near East. Thames and Hudson Limited, London, 1965, 142 p.
19. Mellaart J. The Neolithic of the Near East. Copyright ©1975, Thames and Hudson Ltd, London, 300 p.
20. Merpert N. and Munchaev R. Yarımtepe I and Yarımtepe II in northern Iraq. Source: Iraq, Vol. 49 (1987), pp. 1-36.
21. Мунчаев Р.М. Кавказ на заре бронзового века, Москва: Наука, 1975, 415 с.
22. Voigt M.M. Hajji Firuz Tepe, Iran: The Neolithic Settlement. Philadelphia: University of Pennsylvania, 1983, 396 p.
23. Cruells W. and Nıeuwenhuyse O. The Proto-Halaf period in Syria. New sites, new data.In: Paléorient. 2004, Vol. 30 N°1, pp. 47-68.
24. Hansen S., Mirtskhulava G. and Bastert-Lamprichs C. Aruchlo: a Neolithic Settlement Mound in the Republic of Georgia /Transfer of knowledge and technology during the „First Globalization“ of the VIIth - IVth millennium BC. International Symposium Baku, April 1-3 2009. Deutsches Archaologisches Institut. Eurasıen-Abteılung, pp.18-27.

## Summary

## Functional and technological features of the neolithic ceramics of Nakhchivan

**Zeyneb Guliyeva**

In article, functional and technological features of Neolithic ceramics of Nakhchivan have been analyzed. Purpose of the study is to trace the way of life of local tribes, the developing process of the craft and skill to find out the local features of Neolithic culture of Nakhchivan.

İt is identified that the most part of ceramics is made with chaff tempered clay and are burned in different shades of red color. On a cutof pottery sometimes are traced the unfired black and gray layers. Ceramic wares are similar to the materials found from the settlements of the South Caucasus, including Azerbaijan. The known close parallels are from Shomutepe, MollaNagitepesi, Geytepe, Haji Firuz and other sites. This feature also can be seen in the ornamentation of the Neolithic ceramics of Nakhchivan. Ornaments have been presented, with banded reliefs, round molds, circle holes, elongated hollows and the imbedded patterns. Some of them coincide with ornaments of synchronous monuments of East Anatolia, Mesopotamia and South Caucasus, but branded relief and the elongated hollows reflect local nature of Neolithic culture of Nakhchivan.


**Keywords:** Nakhchivan, Neolithic culture, ceramics, functional features, ornament


## Резюме

## Функциональные и технологические особенности неолитической керамики Нахчывана

**Зейнаб Гулиева**

В статье были проанализированы функциональные и технологические особенности неолотической керамики Нахчывана. Цель исследования проследить образ жизни местных племен, процесс развития ремесла и искусства, выяснить локальные особенности неолитической культуры Нахчывана, в том числе выявить культурно-экономические связи с сопредельными странами.

Выявлено, что большая часть керамики изготовлена из глины с примесью мякины и обожжены в разных оттенках красного цвета. На срезе стенки керамических изделий прослеживается необожженная серая, а иногда черная прослойка. Керамические изделия сходны с материалами из поселений Южного Кавказа, в том числе и Азербайджана. Близкие параллели известны из Шомутепе, Молла Нагитепеси, Гейтепе, Гаджи Фируз и других памятников.

Это сходство также прослеживается и в орнаментациях неолитической керамики Нахчывана. Орнаменты были представлены ленточными рельефами, круглыми налепами, круглыми отверстиями, удлиненными впадинами и врезными узорами. Некоторые из них совпадают с орнаментами синхронных памятников Восточной Анатолии, Месопотамии и Южного Кавказа, но рельефные пояса и удлиненные впадины отражают локальный характер неолитической культуры Нахчывана.

**Ключевые слова:** Нахчыван, неолитическая культура, керамика, функциональные особенности, орнамент



Şəkil 1. I Kültəpədən aşkar edilmiş alət (2016).



Şəkil 2. I Kültəpədən aşkar edilmiş təsərrüfat qabları (2015).



Şəkil 3. I Kültəpədə qeydə alınmış təsərrüfat çuxuru (2015).




Şəkil 4. Küpə tipləri (2016).




Şəkil 5. Son neolit dövrünün relyef ornamentli məişət qabları (2014-2016).




Şəkil 6. Naxçıvanın neolit keramikasındakı cızma üsulla bəzəmə texnologiyası (1-KT-15, №A144; 2-№F027;3-№A146).

Azərbaycan Areologiyası Volume 20 № 1 2017, 58-68
© Khazar University Press 2017 DOI: 10.5782/2218-0346.2017.20.1.58

# Naxçıvanın erkən tunc dövrü keramikası üzərindəki ornamentlər haqqında

**Toğrul Xəlilov**
(AMEA Naxçıvan Bölməsi)
x.toqrul@gmail.com

**Açar sözlər:** Dulusçuluq, Naxçıvan, Erkən Tunc dövrü, ornamentlər

Erkən Tunc dövrü arxeoloji ədəbiyyatda Kür-Araz mədəniyyəti adı ilə tanınır. Bu mədəniyyətə aid arxeoloji abidələr Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da vardır. I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə, Şortəpə belə abidələrdəndir. Bu abidələrdən tapılan arxeoloji materialların kompleks şəkildə öyrənilməsi nəticəsində ERkən Tunc dövrü insanlarının həyat tərzini, məşğuliyyət və sənətkarlıq sahələrini, tayfalararası qarşılıqlı iqtisadi-mədəni əlaqələri və digər məsələləri öyrənmək mümkündür. Digər aktual məsələlər kimi Naxçıvanın Erkən Tunc dövrü abidələrindən tapılan keramikanın öyrənilməsi də mühüm elmi əhəmiyyət daşıyır. Keramika istehsalı bütün dövrlərdə olduğu kimi Erkən Tunc dövründə də ən aparıcı sahələrdən biri olmuşdur. Bu işlə məşğul olan insanlar xüsusi bacarıq və vərdişlərə sahib idilər. Keramika istehsalı ilə məşğul olan insanlar dulusçu, bu sənətkarlıq sahəsi isə dulusçuluq adlanır. Dulus sözünün mənşəyini qədim yunan dilində "yanıq və yanmış maddə" mənasını verən keramikos təşkil edir (18, s. 3). Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da insanlar ilk dəfə Neolit dövründə dulusçuluq sənəti ilə məşğul olaraq gildən müxtəlif məhsullar düzəltmişlər. Erkən Tunc dövründə digər sənətkarlıq sahələri kimi dulusçuluq da həmin dövrün tələbləri səviyyəsinə uyğun olaraq inkişaf etmişdir. Dulusçular tərəfindən formasına, tipinə, ornamentlərinə və hazırlanma texnologiyasına, keyfiyyətinə və digər əlamətlərinə görə seçilən məhsullar düzəldilmişdir. Erkən Tunc dövründə bu sənətkarlıq sahəsi ev sənəti çərçivəsindən kənara çıxaraq, tədricən ixtisaslaşmış istehsal sahəsinə çevrilmiş, dulusçuluq inkişaf etmişdir. Dulusçuluğun inkişafı ilə əlaqədar olaraq keramika məmulatlarının hazırlanmasında, bişirilməsində dəyişikliklər baş vermişdir. Dulusçular tərəfindən məhsulların hazırlanmasında ilk olaraq keyfiyyətli, istehsal üçün yararlı gil seçilmişdir. Çünki, yüksək keyfiyyətli gildən hazırlanmış qablar daha çox yararlı, daha çox uzun ömürlü olurdu. Hər hansı bir məhsul müəyyən formaya salınarkən dulusçular tərəfindən onların simmetriyasına, formasına xüsusi fikir verilibdir. Onların istifadə etdiyi gil növləri rənginə görə qırmızı, çəhrayı, boz və ağ rəngli olmuşdur. Yoğrulmuş gili müəyyən

formaya saldıqdan sonra bişirilmə prosesi zamanı onları çatlamaqdan qorumaq üçün xüsusi üsullardan istifadə olunurdu. İlk olaraq onları bir neçə gün kölgə yerdə, sonra isə günəş altında qurutmuşlar. Bişirilməsi prosesində bəzən gil qabların üzərini çatlamaqdan qorumaq üçün şüyrələmişlər. Bişirilmə prosesi zamanı dulusçu məhsullarının müxtəlif rənglərdə olmasında onların hazırlandığı gilin tərkibindəki kimyəvi birləşmələr mühüm yer tutmuşdur. Bişirilmə prosesi zamanı yoğrulmuş palçığın tərkibində olan kimyəvi birləşmələr oksidləşdirici alovun təsirindən müxtəlif rənglərə çevrilərək qabların boz, çəhrayı, qara və s. rəngli olmasına səbəb olmuşdur. Bu prosesdə hər bir sənətkarın diqqət yetirdiyi bir sıra məsələlər var idi. İlk olaraq bişirilmə zamanı uyğun temperaturanın olmasına diqqət yetirilirdi. Bunun üçün istiliyin düzgün paylanması və dəyişmə surəti nəzarətdə saxlanılırdı. Bişirilmə prosesi başa çatdıqdan sonra hər hansı bir dulusçu məhsulunun düzgün soyudulmasına da diqqət yetirilirdi. Çünki, məhsulun keyfiyyətli olması üçün bişirilmə prosesində və bişirilmədən sonrakı dövrdə bir sıra qaydalara əməl edilməli idi. Düzgün bişirilməyən və ya düzgün soyudulmayan məhsul deformasiyaya uğrayaraq keyfiyyətsiz olurdu. Bişirilmə prosesində ani olaraq istiliyin yüksəlməsi, soyuma zamanı istiliyin kəskin şəkildə aşağı düşməsi çatların yaranmasının əsas səbəbidir. Bişirilmə prosesindən sonra bəzi keramikaların üzərində hava qabarcıqlarının qalması bişmiş gilin tərkibində düzgün reaksiyanın getmədiyini göstərir. Dulus məhsullarının hazırlanmasında əsas yeri dulus kürələri (sobaları) tutur. Aparılan araşdırma zamanı məlum olur ki, ibtidai dulus kürələri birdən-birə yaranmamış, bunun üçün müəyyən vaxt və zaman tələb olunmuşdur. İbtidai dulus kürələri düzəldənə qədər insanlar dulusçu məhsullarını bişirmək üçün ən primitiv metodlardan istifadə etmişlər. Dulus kürələri sonradan düzəldilmişdir. Ən qədim, primitiv bişirilmə metodları dulusçu məhsullarının açıq yerdə və ya çuxurda bişirilməsi olmuşdur. Hər iki üsuldan qədim zamanlarda geniş istifadə edilmişdir. Bu üsulların tətbiqi zamanı lazım olan əsas yanacaq çoxlu miqdarda kol və çırpıdan ibarət olmuşdur. Açıq yerdə bişirmə metodu zamanı havanın küləkli olmaması əsas şərtdir. Bu üsulla bişiriləcək məhsulların arasında isti havanın rahatca hərəkət etməsi üçün quru odunlar yığılaraq boşluqlar yaradılmışdır. Sonra kiçik odunlarla onun ətrafının örtülməsi tamamlanmışdır. Odunların dağılmaması üçün ocağın ətrafı daş və ya kərpiclə əhatə olunmuşdur. Odunlar alovlandıqdan sonra odun köz halına gəlməsinə qədər ona nəzarət edilmiş, məhsulun üzərinin isti küllə tam örtülü olmasına fikir verilmişdir. Közün yavaş-yavaş sönməsi üçün onun üzərinə çəmən döşənmişdir.

Cəmiyyət daxilində baş verən sosial-iqtisadi dəyişiklər bütün sahələr kimi dulusçuluğun da inkişafına təsir göstərmişdir. Sonrakı inkişaf mərhələsində açıq yerdə və çuxurda bişirilmənin davamı olaraq yeni bişirilmə metodları yaranmış, müxtəlif formalı və müxtəlif adlı qədim dulusçu kürələri

düzəldilmişdir. Dünyada mövcud olan “Ağ dəniz”, “Sueki”, “Tamba”, “Əjdaha”, “Yaruk Bambu”, “Novoriqama” tipli dulusçu kürələrini buna nümunə göstərmək olar (24; 7, s. 38-42). “Sueki”, “Tamba”, “Novoriqama” Yaponiyada, “Əjdaha” Çində, “Yaruk Bambu” Koreyada düzəldilmiş qədim dulusçu kürələrindəndir (25). Dulus kürələrinin düzəldilməsi zamanı iki əsas məsələyə diqqət yetirilmişdir. Birinci məsələ bişiriləcək məhsullar üçün örtülü kameranın yaradılmasıdır. İkinci məsələ odun yandığı manqalın dulusçu məhsullarının yığıldığı kameradan ayırmaqdır. İbtidai dulus sobasını düzəldərkən insanlar ilk olaraq odun qalandığı yerin ətrafını silindrik formalı divarla künbəz şəklində hörmüşlər. Hörgü işləri tamamlandıqdan sonar künbəz şəklində olan dulusçu kürəsinin kamerasının üst hissəsində bir və ya bir neçə deşiklər açılmışdır. Kürənin üzərində deşiklərin qoyulması sobada odun yaxşı yanması üçün əlverişli şərait yaratmışdır. Bişirilmə prosesi zamanı hava yanacaq atılan deşiklərdən girərək, sobanın üst hissəsinə yığılan dulusçu məhsullarının arasından keçərək, üstdəki deşiklərdən çölə çıxmışdır. Havanın bu cür çölə çıxması kürənin içində homogen istiliyin qarşısını alaraq dulusçu məhsullarının keyfiyyətlə bişirilməsinə köməklik etmişdir. Naxçıvanda I Kültəpə abidəsinin Erkən Tunc dövrü təbəqəsində ibtidai dulus kürələri aşkar edilmişdir. Onlar dairəvi və dördkünc planda tikilmişdir. Abidənin Erkən Tunc dövrünə aid VII (yeddinci), XI (on birinci) tikinti qatlarından aşkar edilmiş dulus kürəsinin hamısının alt hissəsi yaxşı qalmışdır. Bütün sobaların qab yığılan hissəsi tamamilə dağılmışdır (20, s. 120). I Kültəpə abidəsinin VII (yeddinci) tikinti qalıqlarından tapılmış unikal formalı dulus sobasının qalıqlarına hələlik Cənubi Qafqazdakı arxeoloji abidələrdə aşkar edilməmişdir. II Kültəpənin XI tikinti qatında aşkar olunan duzbucaqlı planlı dulus kürəsinin qalıqları bu dövrdə gil məmulatların birkameralı sobalarda bişirildiyi, kürənin yuxarı hissəsinə temperaturu tənzimləmək məqsədiylə çay daşlarının düzüldüyü haqqında tədqiqatçılar tərəfindən fikirlər söylənilmişdir (6, s. 106). Erkən Tunc dövründə Naxçıvanın dulusçuluq sənətində hansı alətlərdən istifadə olunduğu haqqında mənbələrdə bitkin fikir yoxdur. Lakin, arxeoloji abidələrdən əldə olunmuş müxtəlif formalı əmək alətlərinin müqayisəli şəkildə öyrənilməsinə əsasən ehtimal etmək olar ki, bu dövrdə dulusçuluqda istifadə olunan alətlər daşdan, ağacdan, sümükdən, tuncdan olmuşdur. Bu dövrdə dulus çarxından istifadə olunması dulusçuluğun inkişafına mühüm təsir göstərmiş, onun yeni mərhələyə qədəm qoymasına səbəb olmuşdur. Qalın divarlı qablarla yanaşı, nazik divarlı, yaxşı cilalanmış qablar da istehsal olunmuşdur. İlk dulus çarxı qısa ox üzərində qurulmuş, əl ilə hərəkətə gətirilmişdir. Dulusçu əli ilə çarxı hərəkət etdirdikdən sonra onun fırlanmasından dayanmasına qədər olan müddət ərzində iki əli ilə qabı müəyyən formaya salmışdır. Babilistan, Misir və Hindistanda da e.ə. IV-III minilliklərdə əl ilə hərəkətə gətirilən bu tip dulus çarxından is-

tifadə olunmuşdur (8, s. 61). Naxçıvanın Erkən Tunc dövrü dulusçuluq məhsulları gildən düzəldilmiş ocaqlardan, manqallardan, heyvan, təkər fiqurlarından, qab altılıqlarından, qablardan ibarətdir (21, s. 67, 72, 75). Onların hər biri maddi və mənəvi mədəniyyətimizin öyrənilməsində mühüm yer tutur. Gil ocaqlar nalşəkilli və düzbucaqlı formada düzəldilmişdir. Heyvan fiqurları öküz, at, it fiqurlarından ibarətdir. I Kültəpə abidəsinin Erkən Tunc dövrü təbəqəsindən, Maxta Kültəpəsindən, Ovçulartəpəsindən bu tip arxeoloji materiallar tapılmışdır. I Kültəpə abidəsindən (1, s. 141), Maxtadan (4, s. 65) və digər abidələrdən heyvan fiqurları tapılmışdır. Naxçıvanın Erkən Tunc dövrü arxeoloji abidələrindən (I Kültəpə, II Kültəpə, Ovcultartəpəsi, Maxta, Ərəbyengicə, Şortəpə və s.) əldə olunmuş dulusçuluq məhsulları içərisində gil qablar çoxluq təşkil edir. Onlar boz, qara və çəhrayı rəngli, cilalı və cilasız düzəldilmişdir. Qabların hazırlandığı gilin tərkibinə iri və kiçik qum dənələri qatılmışdır. Bu qablar süfrə və təsərrüfat qabları olmaqla iki qrupa bölünürlər. Süfrə qablarının gilinin tərkibinə narın, təsəttüfat qablarının tərkibinə iri qum dənələri qatılmışdır. Gil qabların xarakterik xüsusiyyətləri bu dövrə aid qabların çoxunun ağız kənarının düzbucaqlı şəkildə xaricə çıxması, onların ağızlarının iki tərəfdən bir qədər içəri yığılması və simmetrik olmasıdır. Bəzi qabların ağzının kənarı isə bir qədər qalın, relsşəkilli formada düzəldilmişdir. II Kültəpə arxeoloji abidəsindən əldə olunmuş bu cür qabların bir qrupunun bənzərləri Göytəpədə abidəsinin Erkən Tunc dövrü təbəqəsindən tapılmışdır (4, s. 108). Ağzının kənarı qalın, relsşəklində düzəldilmiş qablar Şərqi Anadoluda geniş yayılmışdır. Qara rəngli keramikalar içərisində şar gövdəli, düz oturacaqlı, silindirik boğazlı üzərində qabın ağzı ilə gövdəsini birləşdirən yarımşar şəkilli və ya öküz burnu formalı qulp olan qablar çoxluq təşkil edir. Bu tip qulplar Erkən Tunc dövrünün xarekterik xüsusiyyətlərindəndir. Naxçıvanın Erkən Tunc dövrü arxeoloji abidələrinin bir qrupundan, o cümlədən Plovdağdan aşkar olunan keramika məmulatları içərisində elmi ədəbiyyatlarda "camış dərisi rəngli" keramika adı ilə tanınan qaramtıl gilli qabların bənzərlərinin Giyan, Mussiana və Suzda geniş yayıldığı qeyd olunmuşdur (13, s. 167). Erkən Tunc dövrünə aid qabların naxışlanmasında oval və ya dairəvi batıqlardan, ziqzaq, svastika, S, M və s. formalı işarələrdən, buynuz, spiral formalı ornamentlərdən, müxtəlif həndəsi, daraqvari formalı naxışlardan, qabarıq, məməcikşəkilli çıxıntılardan, sxematik quş, müxtəlif heyvan, antropomorf rəsimlərdən istifadə edilmişdir. Qabların üzərinə naxışlar cızma, çərtmə, basma, qabartma texniki üsulları ilə vurulmuşdur. Bu naxışlardan hər biri dulusçuların sənətkarlıq vərdişləri ilə yanaşı dini-ideoloji görüşləri ilə bağlılıq təşkil edir. Naxışlar sadə və mürəkkəb süjetlidir. Onlar həm yerli xüsusiyyət daşıyır, həm də digər mədəniyyətlərlə bənzərlik təşkil edir (tablo I). Fikrimizi əsaslandırmaq üçün arxeoloji mənbələrə nəzər salsaq görərik ki,

üzəri oval və ya dairəvi ornamentlərlə bəzədilmiş gil qablar dünyanın bir çox bölgələrindəki Erkən Tunc dövrü abidələri kimi Naxçıvandan da kifayyət qədər aşkar edilmişdir. Naxçıvanda bu tip qablar I Kültəpə, II Kültəpə, I Maxta arxeoloji abidələrindən, Cənubi Azərbaycanda isə Göytəpə abidəsindən tapılmışdır (5, s. 50; 11, s. 33-36). I Kültəpə abidəsindən tapılmış üzərində qabartma üsulu ilə çəkilmiş M formalı naxışlı gil qablar (1, s. 133) Yanıqtəpə abidəsindən əldə edilmiş bir qrup qablarla bənzərlik təşkil edir (15, s. 89). Azərbaycanda Babadərviş, Şərqi Gürcüstanda Amiranisqora, Anakliya abidələrindən bu tip ornamentli keramikalar əldə olunmuşdur (16, s. 26, 68). I Kültəpə (1, s. 127), II Kültəpə (2, s. 123) yaşayış yerlərindən əldə olunmuş üzəri ziqzaq ornamentlərlə naxışlanmış gil qablar Cənubi Qafqazın (15, s. 166), Ön Asiyanın (19, s. 852) həmdövr arxeoloji abidələrdən tapılmış bir qrup qablarla bənzərlik təşkil edir. I Maxta (22, s. 111), II Kültəpə (21, s. 183) yaşayış yerindən əldə olunmuş S ornamentli keramikaların bənzərləri Yanıqtəpə, Amiranisqora abidələrindən tapılmışdır (16, s. 28). Spiral, svastika, buynuz ornamentlərinin bənzərləri də dünyanın müxtəlif bölgələrindən tapılan qayaüstü təsvirlərdə, keramika məmulatlarının üzərində aşkar edilmişdir (tab. 1, 3-5, 8, 9; 13, 17, 18, 21-2327, 28). Bu ornamentlərin simvol, və ya damğa kimi istifadə edilməsi ilə bağlı dəqiq fikir söyləmək bir qədər çətindir. Lakin, onu qeyd etmək lazımdır ki, hər bir ornament heç də təsadüfən çəkilməmiş, qədim insanların mifik düşüncə tərzini, dini-ideoloji görüşlərini əks etdirmişdir. Buna görə də, bəzi ornamentlər yalnız lokal xarakter daşımır, geniş yayılma arealına və simvolik mənaya malik olur. Bunun əsas səbəblərindən birini isə, dünyanın fərqli məkanlarında yaşayan insanların ibtidai dini ideoloji görüşündə, mifik düşüncə tərzində yaxınlığın olması təşkil edir.

Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, S formalı ornamentin ən qədim nümunələri Tripolye Eneolit arxeoloji mədəniyyətinin (e.ə. VII-VI minilliklər) gil qabların üzərində aşkar edilmişdir. Skiflərin apasiak tayfasının metal məmulatında (e.ə. VI-IV əsrlər), Özbəkistanın Qaraqalpaq vilayətindəki Anşka-Kalı adlanan ərazidə tapılmış metal dəvə fiquru üzərində (e.ə. I əsr – eramızın I əsri), Sırdərya çayı sahillərindəki Çirik-Rəbat mədəniyyətinə aid saxsı qablarda, eramızın II əsrinə aid Xarəzm sikkələrində, Cənubi Türkmənistanın memarlıq elementlərində (X-XI əsrlər) bu cür ornament aşkar edilmişdir (3, s. 45). Bu ornamentin semantikası ilə bağlı aparılan araşdırma zamanı məlum olur ki, S formalı ornament geniş yayılma arealına və müxtəlif simvolik mənaya malikdir. Azərbaycanda “qarmaq”, Anadoluda isə “çəngəl” adlanır. İlkin adı “qarmaq” olan bu işarənin yanaşı variantları həm də “axar su” adı ilə Azərbaycan etnik xalça ornamentlərində qalmaqdadır. Azərbaycan və Anadolu xalça simvolizmində insanı təhlükədən, bəd nəzərdən qurtarmaq üçün işlədilən motivdir

(17, s. 260). Mərkəzi Asiyada damğa işarəsi kimi bir sıra adları vardır. Qazaxlar bu işarəyə "bota moyın" (köşək boynu), "qaz moyın" (qaz boynu), qırğızlar "it quyruqşa" (it quyruğu), özbək və qaraqalpaqlar "qumırska beli" (qarışqa beli) deyirlər. Çuvaşlar isə onu səma nurunun, günəş işığının təcəssümü hesab edirlər. Mənbələrdə onun Qazaxların Böyük Juzuna birliyinə daxil olan kanlı tayfasının şılbır nəslinin damğası olduğu haqqında məlumatlar da vardır (26). Divani-lüğət-it türk əsərində də bu ornamentə rast gəlmək olur. Orada bu tip işarənin oğuzların bəydili tayfasının damğası olduğu qeyd edilmişdir (14, s. 227). Şəcəreyi-Tərakimə əsərində bu işarənin üfiqi variantı oğuzların iqdır və kızık boylarına aid edilmişdir (9, s. 100).

Daraqvari ornamentin semantikası və yayılma arealı ilə bağlı aparılan araşdırma zamanı məlum olur ki, S formalı ornament kimi o da Azərbaycan xalça ornamentləri sırasında geniş yayılmışdır. Azərbaycan, Anadolu, Şimali Qafqaz, Türkmənistan xalçaçılıq sənətinin haşiyə elementi kimi geniş yayılmışdır. Damğalar arasında "ali hakimiyyət və vassallar", "vassallıq" bildirən xan damğası, baltavar, iltəbər/eltəbər semvolları ilə oxşarlıq təşkil edir (17, s. 49). Talas, Orxon və Yenisey əlifbalarında incə saitli sözlərdə işlədilən "g" samitini bildirən işarələr də bu cürdür (23, s. 150), Şəcəreyi-Tərakimə əsərində isə bu tip ornament oğuzların dögər boyunun damğası kimi göstərilmişdir (9, s. 77 ).

Naxçıvanın Erkən Tunc dövrü ornamentləri içərisində qoçbuynuzu formalı naxışlar da özünəməxsus yer tutur. Əski türk dillərində "qara" sözü təkcə rəng deyil, həm də "böyük", "güclü" mənası verir. Qədim türklərin mifik təsəvvürlərində qoç təsviri sakral rəmzlərdən biri sayılır. Qoç bir tərəfdən "bolluq" və "bərəkət" bildirir, digər tərəfdən isə vəfat etmiş insanların ruhlarını Tanrı məkanına çatdıran müqəddəs canlılardan hesab edilirdi. Tanrıya kəsilən qurbanlar arasında ağ atla yanaşı ağ qoç da özünəməxsus yer tutur. Bu ornamentin ən qədim nümunələri Tripolye Eneolit arxeoloji mədəniyyətinə (e.ə. VII -VI minilliklər) aid gil qabların üzərində aşkar edilmişdir. Bu ornament keramika, metal məmulatları, xalçalarla yanaşı qayaüstü təsvirlərdə öz əksini tapmışdır. Azərbaycanla yanaşı Anadolu, Türkmən, Qaraqalpaq, eləcə də Dağıstan, xüsusilə Tabasaran xalçalarında buynuzşəkilli ornamentin müxtəlif formaları var. Azərbaycan xalçaçılıq sənətində Qarabağ xalçalarında (Malıbəyli) bu ornament daha geniş yayılmışdır. Qoçbuynuzunun semantikası ilə bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Bu ornament mənbələrdə qoç, qoçkar, koçkar, kaçkar kimi müxtəlif adlarda işlənmişdir. Damğa işarəsi kimi Anadoluda, Cənubi və Şimali Qafqazda, Mərkəzi Asiyada, Krımda, Volqaboyunda, Şərqi Sibirdə "qoşqar", "qoçqar", "koçkar", "qoç müyüz" (qoç buynuzu), "koçkarok", "kayabaran" (qaya baranı/qoçu) və s., Altaylarda "kulya" (qoç buynuzu) adlanır. Şimali Qafqazda yaşayan qaraçayların "kosxar" (qoçqar, qoşqar), tülpar, semen nəsil-

lərinin damğası, Qazaxların nayman, qarakirey tayfalarına aid tanınma-fərqləndirmə işarəsi, hun damğalarından bir qrupu buynuzşəkilli formadadır (17, s. 259, 305, 307). Orxon Yenisey daş kitabələrindəki damğalar arasında da bu tip ornamentə rast gəlmək olar (23, s. 110). Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin bayraqlarında da qoç təsviri əks olunmuşdur.

Naxçıvanın Erkən Tunc dövrü ornamentləri içərisində svastika da vardır. Bu ornamentin semantikası və yayılma arealı ilə bağlı aparılan araşdırma zamanı mənbələrə nəzər salsaq görərik ki, Qədim İkiçayarası mədəniyyətinə aid metal pulların üzərində geniş şəkildə istifadə edilən bu ornamentin dünyada ən qədim nümunəsi Ukraynada tapılmışdır. Tədqiqatlar zamanı ən qədim svastikanın Ukraynada fil dişindən düzəldilmiş bir kiçik heykəlciyin üzərinə çəkildiyi müəyyən edilmişdir. Bu heykəlciyin e.ə. XII minilliyə aid olduğu sübut edilmişdir (27). Mənbələrdə bu ornamentin ən qədim nümunələri Ön-Türklərə aid Orta Asiyadakı "Karatau" mədəniyyətinə aid Karatau, Alatau ve Jungar Alatauları abidələrindən də aşkar edilmişdir. Tədqiqatçılar tərəfindən bu ornamentin "Karatau" mədəniyyətindən dünyanın başqa yerlərinə yayıldığı qeyd edilmişdir (28). Azərbaycanda Naxçıvanın I Kültəpə abidəsi ilə yanaşı Qazax rayonunun Baba Dərviş yaşayış məskənindən tapılan Son Tunc-İlk Dəmir dövrünə aid gil möhürlərdən birinin üzərində (10, s. 76) Şəmkir, Xanlar rayonundakı tunc və ilk dəmir dövrü arxeoloji abidələrdən tapılan gil qablardan bəzilərinin üzərində, Gəmiqayada, Qobustanda, Cənubi Azərbaycanda Urmiya Gölü ətrafında olan qayaüstü təsvirlərdə, həmçinin Qırğızıstandakı qayaüstü rəsmlərində də svastika rəsmləri vardır. Bu ornamentin simvol olaraq dörd əsas ünsürü (od, su, torpaq, hava) bildirdiyi, günəşin simvollarından biri olub, insanın günəşlə əlaqəsini əks etdirdiyi, sanskrit dilində bu sözün "xoşbəxtlik gətirən" mənasını verdiyi, onun hind sözü olub hindcə "si" (yaxşı) və "as" (olmaq) sözlərinin birləşməsindən yarandığı "xoşbəxtlik" və "xəyal" mənası verdiyi və s. haqqında elmdə müxtəlif fikirlər vardır. Bu ornamentin Ön-Türk damğası olduğu, Ön-Türklərdə od kultu ilə bağlılıq təşkil edən "Öz" kimi oxunduğu, Ön-Türk köçləriylə bu ornamentin Hindistana yayıldığı, Oğuzların dünyanın dörd bir tərəfinə yayılmasınnın simvolu olduğu haqqında elmi fikirlər vardır. Svastikanın Anadolu mədəniyyətində geniş istifadə olunduğunu sübut edən maraqlı tapıntılardan biri Anadolu Mədəniyyətləri Muzeyində nümayiş etdirilir. Konya Sırçalı Mədrəsədə və Sivas vilayətindəki 200 illik məzar daşlarının üzərində də svastika rəsminin olduğu mənbələrdə öz əksini tapmışdır (28). Qeyd olunan məsələ ilə bağlı aparılan araşdırma zamanı sonda onu qeyd etmək olar ki, geniş yayılma arealına və semantikaya malik olan svastika ornamentinin həm simvol, həm də, damğa kimi işlədilməsində ortaq xüsusiyyət digər ornamentlər kimi onun da insanların düşüncə tərzi, dini-ideoloji görüşləri ilə yaxın bağlılığı vardır.

Aparılan araşdırma nəticəsində yekun olaraq onu qeyd etmək olar ki, Naxçıvanın Erkən Tunc dövrü sənətkarlıq sahələri içərisində dulusçuluq özünəməxsus yer tutur. Həmin dövrdən başlayaraq dulusçuluğun ev sənəti çərçivəsindən kənara çıxaraq tədricən ixtisaslaşmış istehsal sahəsinə çevrilməsi nəticəsində bu sənətkarlıq sahəsi inkişaf etməyə başlamışdır. Onun inkişaf etməsi nəticəsində əvvəlki dövrlərdən fərqli olaraq dulusçu məhsullarının həm çeşidləri çoxalmış, həm də keyfiyyəti yüksəlmişdir. Dulusçu məhsulları üzərində ornamentlər geniş yayılma arealına, dərin semantikaya malik olmuşdur. Bu ornamentlərdə həm yerlı, həm də digər mədəniyyətlərlə oxşar xüsusiyyətlərin olması Naxçıvanın qədim mədəniyyət mərkəzlərindən biri olduğunu sübut edir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
2. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
3. Алламуратов А.,С. Каракалпакская народная вышивка. Нукус, 1977, 77 с.
4. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: Elm, 2002, 158 s.
5. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
6. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Bakı: Elm, 2007, 236 s.
7. Daniel Rhodes Kilns: Design, construction and operation Hardcover, Hardcover: 2008, 291 p.
8. Əhmədov Q.M. Bu günə necə gəlib çıxmışıq. Bakı: Az. SSR EA, 1989, 118 s.
9. Əbülqazi B. Şəcəreyi-Tərakimə : türkmənlərin soy kitabı (tərc. İ. M. Əbülqazi; red. İ. Öməroğlu), Bakı: Azərbaycan Milli Ensiklopediyası, NPB, 2002, 146 s.
10. Əliyev V. Babadərvişdə Son Tunç ve Erkən Dəmir Dövri yaşayış yerleri, AMM, c. VII, Bakı, s. 1976, s. 74-78.
11. Əliyev V.H., Aşurov S.H. Maxta Tunç dövrü abidələri // Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, Elm, 1992, s. 33-36.
12. Əliyev V.H., Məmmədov A.Ə. II Kültəpədə yeni tədqiqatlar (2010-cu il) // Azərbaycanda arxeoloji tədqiqatlar- 2010, Bakı: Xəzər Unversiteti, 2011, s. 126-135.
13. İbrahimli B.İ., Qədirzadə H.İ., Xəlilov T.F., Qədirzadə T.Q. Plovdağ yaşayış yerində aparılmış arxeoloji qazıntı işləri // Azərbaycanda arxeoloji tədqiqatlar-2010, Bakı: 2011, s. 161-169.
14. Kâşgarlı Mahmud Divanü Lûgat-It Türk, çeviren: Besim Atalay... Türk Dil Kurumu Yayınları: 1036, Ankara: 2011, 1972 s.
15. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Ленинград: 1970, 191 с.

16. Кушнарева К.Х. ,. Марковин В.И. Эпоха бронзы Кавказа и Средней Азии. Ранняя и средняя бронза Кавказа (Очередной том многотомного фундаментального издания по археологии) М.: А 87, Наука, 1994, 384 с.
17. Qurbanov A. Damğalar, rəmzlər... mənimsəmələr. Bakı: Azərbaycan Respublikasının Prezidenti Yaninda Strateji Araşdirmalar Mərkəzi, 2003, 327 s.
18. MEGEP (Mesleki eğitim ve öğretim sisteminin güçlendirilmesi projesi) Seramik ve cam şekillendirme antik form şekillendirme, Ankara: 2008, 56 s.
19. Sevin, V., Özfırat, A., Kavaklı, E. Van-Karagündüz Höyüğü Kazıları (1997 Yılı Çalışmaları), Belleten LKIII/238, 2000, s. 847-882.
20. Сеидов A.Q. Памятники кура-аракской культуры Нахичевани. Баку: Билик, 1993, 164 с.
21. Сеидов A.Q. Раннебронзовая культура Нахчывана. Воронеж: ВГТУ, 2002, 193 с.
22. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003, 339 s.
23. Tekin T. Orhon Yazıtları, Türk Dil Kurumu Yayınları: 540, Ankara: 2010, 232 s.
24. https://www.academia.edu/6231124/seramikte_odunlu_pişirim_geleneği_uzak doğunun_yüksekv derece_ firinlari. Sevim Çizer Seramikte odunlu pişirim geleneği; uzakdoğunun yüksek derece firinları.
25. https://www.academia.edu/12257041/çanakkale_örneğinde_bati_anadolu_sera mikçiliğinin_ege_adalarindaki_uzantilari. Sevim Çizer Çanakkale örneğinde bati anadolu seramikçiliğinin ege adalarindaki uzantilari.
26. http://www.sanat.orexca.com/rus/archive/209/irina_bogoslovskaya.shtml. Богословская И. Зооморфные мотивы каракалпакского орнаментального искусства.
27. http://onedio.com/haber/nazilerin-kirlettigi-bir-mutluluk-sembolu-svastika--417203.
28. https://uqusturk.wordpress.com/2011/08/22/orta-asyadan-anadoluya-anadoludan-avrupaya-oz-damgasi.

## Summary

## The early bronze age ornaments of Nakhchivan regıon

**Togrul Khalilov**

In the article is studied the morphological character and artefacts' semantics the found Early Bronze age monuments in Nakhchivan. It was determined that in the vessel's ornamentation of the Early Bronze Age were used swastika, special drawings, geometric patterns and human, animal, bird, images etc. They, along with the ability to craft duluscuların reflects the religious and ideological views. Ornaments are local feature, but is similar to other cultures.


**Key words:** Pottery, Early Bronze Age, Nakhchivan, ornaments


## Резюме

## Об орнаментах на керамике эпохи ранней бронзы Нахчывана

**Тогрул Халилов**

В статье изучается морфологический характер и семантика афтефактов найденных на памятниках эпохи ранней бронзы Нахчыван. Было определено, что в орнаментации сосудов эпохи ранней бронзы использовалась свастика, спиральные рисунки, геометрические орнаменты и рисунки человека, животного, птицы и т.д.


**Ключевые слова:** Гончарство, ранняя бронза, Нахчыван, орнаменты




**Tablo I. Naxçıvanın Erkən Tunc dövrü keramikası üzərindəki ornamentlərin yaxın paralelləri**

*1-I Maxta (Seyidov, 2003), 3, 4, 11, 12-II Kültəpə (Сеидов, 2002), 21-II Kültəpə (Сеидов, 1993) 2, 10, 13, 24- I Kültəpə (Абибуллаев, 1982) 5, 8, 17-Plur, Karaz (Şərqi Anadolu) (Кушнарева, Марковин, 1994); 6, 9,14, 25-Babadərviş (Кушнарева, Марковин, 1994); 15, 16-Yanıqtəpə (Кушнарева, Чубинишвили, 19760); 7, 20, 26- Amiranisqora, Anakliya (Şərqi Gürcüstan) (Кушнарева, Марковин, 1994); 18-İran yaylası; 21-Gəmiqaya; 22-Qobustan; 23-Saymalı taş (Qırğızıstan); 27-Türkmənistan; 28-Şəmkir rayonu.*

Azərbaycan Areologiyası Volume 20 № 1 2017, 69-83
© Khazar University Press 2017
DOI: 10.5782/2218-0346.2017.20.1. 69

# Üzərliktəpə yaşayış yeri (Şəmkir rayonu)

**Şamil Nəcəfov**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
**shamil_necefov@mail.ru**

**Açar sözlər:** Üzərliktəpə yaşayış yeri, son tunc-ilk dəmir dövrü, mədəni təbəqə, arxeoloji tədqiqat

Üzərliktəpə yaşayış yeri 2014-cü ilin oktyabrında SCPX (Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi layihəsi) kəmər marşrutunun 335-ci km-də, Zəyəmçay ətrafında arxeoloji tədqiqatlar və kəşfiyyat işləri aparan ekspedisiya qrupu tərəfindən aşkar edilmişdir.

Yaşayış yeri Şəmkir rayonunun Bayramlı kəndi ərazisində, Zəyəm çayından təxminən 800-850 metr aralı, çayın sağ sahilində çox da hündür olmayan təpələrin arasında yerləşir. Zəyəm və "Sarı Rəmə" yaşayış yerlərinin yaxınlığında, BTC kəmərinin çəkilişi zamanı aşkar edilən katakombanın 200 metrliyində tapılmışdır [1, s.1]. Bu ad təpəyə yerli sakinlər tərəfindən verilmişdir. Qeyd edək ki, Üzərliktəpə adı ilə məşhur olan ilk abidə Mil düzünün arxeoloji cəhətdən geniş tədqiq edilmiş olan abidəsidir ki, bu da Ağdam rayonu ərazisində yerləşir.

Ümumiyyətlə, Zəyəm çayının hər iki sahilində tunc dövrünə aid zəngin abidələr aşkar edilmişdir. Zəyəm katakomba qəbri, kurqanlar, Sarı Rəmə, Yataq yeri, Gəmətəpə, Meşətəpə yaşayış yerləri, Ağılıdərə yaşayış yeri və nekropolu və s. abidələr tunc dövründə bölgədə sıx yaşayışın izlərini sübut edən və zəngin maddi mədəniyyət qalıqlarını özündə cəmləşdirən abidələrdəndirlər [1, s.1-2].

Təpənin yerləşdiyi ərazi bir tərəfdən cənub və cənub-şərqdən yarğanla, şimal tərəfdən torpaq yolla, qərbdən və şimal-qərbdən isə əkin yerləri ilə hüdudlanır. Bu yaşayış yeri böyük olub, təxminən 4 ha-ya yaxındır. Onun ortasında şimal-qərbdən cənuba doğru torpaq yol çəkilmişdir və bu yol təxminən 1 metr dərinliyə düşmüşdür. Bu zaman xeyli keramika və daş məmulatı ətrafa səpələnmişdir. Yoldan kənd camaatı hazırda da istifadə etməkdədir. Yağış suları bu yolun kənarlarını yuduğundan yol dərinə düşmüşdür.

Yaşayış yeri N-40$^0$55$^/$58.7$^{//}$ E-045$^0$53$^/$40.2$^{//}$ koordinatlarında, dəniz səviyyəsindən 321 metr yüksəklikdə yerləşir. Yaşayış yeri yerləşən təpə təxminən ortası böyük düzənlik olub, bəzi yerlərdə bu düzənliyin ortasında qabarıq sahələr (təxminən 1,5-2 metr hündürlükdə) formasında yerlər vardır. Yəqin ki, bunlar torpaq altında qalan lakin yeri bilinən tikili qalıqlarıdır. Təpənin ətəyi isə aşağıya doğru maili formada enir. Təpənin şimal-şərq ətəyi

yarğan formasında sıldırım hissədən ibarətdir və bu sahə yağış suları tərəfindən yuyularaq maddi mədəniyyət qalıqlarının aşkara çıxmasına şərait yaratmışdır. Bu hissədən yaşayış yerinin mədəni təbəqə yatımını çox aydın müəyyən etmək olur.

Müşahidələr və abidənin üzərində aparılan kəşfiyyat işləri zamanı xeyli sayda maddi qalıqlar aşkar edildi. Bunlar çox zəngin keramika nümunələri, daş alətlər, iy başlıqları, metaldan və sümükdən hazırlanan ox ucluğu, zoomorf materiallar, daşdan hazırlanmış möhür, iynə və bizlərdən ibarət idi. Qara cilalı boz, açıq-qırmızı, qəhvəyi, qonur rəngli küpə, qazan, bardaq, puyalə formalı gil qabların fraqmentləri əldə edildi. Nazik divarlı təmiz gil tərkibli bardaq və küpələrin üzərində sadə naxış elementlərinə rast gəlinir. Küpələrin gil tərkibi qarışıq olub əsasən açıq-qırmızı rənglidir. Çiyin hissədə enli kəmərvari naxışlar qurşaqlayır (Tablo I).

Arxeoloji kəşfiyyat işləri zamanı Üzərliktəpə yaşayış yerindən xeyli sayda müxtəlif məzmunlu və formalı keramika və daş məmulatı toplanıldı [1, s.2]. İlkin tədqiqatlar və çöl kameral işləri nəticəsində bu maddi mədəniyyət nümunələri qruplaşdırılaraq sistemləşdirildi. Vizual arxeoloji tədqiqat işləri və əldə edilən artefaktlar abidənin dövrü, strukturu, sahəsi haqqında ilkin elmi fikirlər söyləməyə imkan vermişdir. Yaşayış yeri sahəsinə və materialların unikallığına görə seçilir. Yaşayış yeri üzərindən toplanan xeyli yerüstü materialları iki növə ayırmaq olar:

-gil məmulatı;

-daş məmulatı;

I qrup materiallar gil məmulatını təşkil edirlər. Onlara saxsı qab qırıqları aiddir. Demək olar ki, bütöv saxsı qaba rast gəlinməmişdir. Gil qab qırıqları əsasən təsərrüfat küplərinin, nehrələrin, xeyrələrin, bardaq, kuzə, dopu və s. məişətdə istifadə edilən gil qabların nümunələrindən ibarətdir. Bu tip gil qab nümunələri Orta Kür hövzəsinin bütün Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən aşkar edilmişdir [2, s.64-84]. Təsərrüfat küplərinə məxsus qırıqlar əsasən qarışıq gil tərkibləri ilə seçilirlər. Belə ki, onların gilinin tərkibində qum, çınqıl və torpaq qarışığı vardır. Bəzilərində hətta xırda əhəngdaşı parçaları da vardır. Onların keyfiyyətsiz hazırlanması və qeyri-sabit tempraturda bişirilməsi izlənilir.

Qalan digər qab qırıqlarından xeyrə və bardaqların ən çox ağız və boğaz hissələri tapılmışdır. Onlar nisbətən səliqəli, dulus çarxında hazırlanmışdır və təmiz gil tərkibləri ilə seçilirlər. Bu keramika nümunələri Zəyəmçay nekropolunun qəbirlərindən də məlumdur [3, s.19-22].

Saxsı qab qırıqları içərisində nehrə, bardaq, badya, parç, sərnic tipli gil qabların hissələri də mövcuddur və onlar sadə quruluşlu olsalar da keyfiyyətli hazırlanıblar.

Yerüstü materiallar içərisində xeyli sayda qulp hissələrinə də rast

gəlinir. Onların əksəriyyəti dairəvi en kəsikli olub, çox cüzi bir hissəsi lentvari kəsiyə malikdir.

Saxsı məmulatının böyük hissəsini keyfiyyətli və naxışlı keramika nümunələri təşkil edir. Keramikanın tipik xüsusiyyətləri onun daha yaxşı və keyfiyyətli hazırlanmasının göstəricisi idi. Keramika nümunələri əsasən qalın divarlı olub, iri həcmli təsərrüfat küplərinə, küpələrə, nehrə tipli gil qablara məxsus olmuşdur. Küplərin və küpələrin ağız kənarları xaricə çox çıxıntılıdır (təxminən 4-8 sm). Onların üzəri və saxsı qabların boyun, boğaz hissələri daraqvari, sünbülvari formada naxışlanmışdır (Tablo I, II).

Saxsı qab qırıqlarının bir qismini müxtəlif qablara məxsus oturacaqlar, gövdə fraqmentləri, ağız və qulp qırıqları vardır. Onların əksəriyyəti yastıoturacaqlı, qalındivarlı gil qab nümunələrinə məxsusdur. Bu qablar əsasən narın gildən əldə formalaşdırılıb, nisbətən keyfiyyətsiz bişirilmişdir. Qablardan bəziləri bir sıra xüsusiyyətlərinə görə digərlərindən fərqlənirdi. Onlardan birinin gövdəsi əsasından fərqlənən başqa rəngli (nisbətən tünd qəhvəyi) gil məhlulu ilə bişirilməzdən əvvəl enli uzununa zolaqlarla bəzədilmişdir. Digər bir qab oturacağı isə dolça hissəsi olub, kobud formalaşdırılmış və qeyri-bərabər bişirilmişdir. Demək olar ki, qabın bir tərəfi tam yandığı halda, digər tərəfi sanki çiy qalmışdır. Onun çox kiçik dabanlı oturacağı olub, gövdəsinin üstündəki sınıq yerlərindən görünür ki, o, enli, kiçik, şarşəkilli qulpa malik olmuşdur. Bununla yanaşı yuvarlaqgövdəli, dabanlı oturacaqlı saxsı qablar bu yaşayış yeri üçün daha səciyyəvi idi. Saxsıların hamısı eyni tipli qablar olub, yalnız həcminə və rənginə görə bir-birindən fərqlənirdilər. Ölçüləri etibarilə onların bəziləri böyük olub, həm də çox səliqəli hazırlanmaları ilə fərqlənirdilər.

Tava hesab etdiyimiz yastıoturacaqlı, qalındivarlı saxsı qab hissəsi tapıntılar içərisində nəzəri xüsusilə cəlb edir. Boz rəngdə keyfiyyətli bişirilmiş bu qabın oturacağının qalınlığı 1,7 sm, yan divarınınkı isə 1,2 sm-dır. Digər bir qab hissəsi düzağızlı, qalındivarlı olub, bir qədər keyfiyyətsiz bişirilmişdir. Bayır tərəfində üzərində yanıq izi vardır. Onu digər qab oturacaqlarından fərqləndirən məhz oturacağının yan divarına nisbətən xeyli nazik olmasıdır. Belə ki, oturacağının qalınlığı 0,3sm, yan divarınınkı isə 0,7 sm-dır. Hündürlüyü 8,8 sm-dır.

Vaza, yaxud tava tipli bir ədəd saxsı qabın hissəsi də qalındivarlı, yastıoturacaqlıdır. Oturacağının kənarındakı dairəvi çıxıntı qabın dabanlı oturacaqlı olmasını ehtimal etməyə imkan verir. Bu qab gövdəsi-kənarları yana doğru maili, qısa və qalındivarlara malikdir. Qabın divarının üzərində, ağzına yaxın hissədə üçbucaq formalı bəzək çıxıntısı vardır.

Saxsı qabların gövdə hissələri müxtəlif quruluşlara malikdir. Onlardan bir qisminin silindrik formalı gövdəyə malik olub, ağız hissəsinin tədricən xaricə meyl etdiyini izləmək mümkündür. Bundan başqa bir qayda olaraq,

bu qabların ağız hissəsi yan divarına nisbətən müəyyən qədər qalınlaşdırılaraq köbər formasına salınmışdır. Müxtəlif həcmli bu qablardan birinin çiyin hissəsində enli, kiçik şarşəkilli qulpu vardır. Bu növ qablardan birinin çiyni üzərində ikitərəfli dairəvi deşik vardır. Onun təyinatı haqqında qəti fikir söyləmək mümkün olmasa da, çox güman ki, uzunsov gövdəyə malik bu qab nehrə olmuşdur. Onun içərisi gil məhlulu ilə astarlanıb, boz rəngdə bişirilmişdir. Saxsı qabların bir qismi uzunsov, şarvari gövdəli, qısaboğazlıdır. Onların ağızlarının kənarı bayıra tərəf bir qədər maili düzəldilmişdir. Bu qablar, əsasən, açıq-qəhvəyi və qara rəngdə bişirilmişlər.

Narın gildən ağzı köbəli düzəldilmiş, keyfiyyətli bozumtul-tünd qəhvəyi rəngdə bişirilmiş daha bir neçə saxsı qab hissələri də diqqəti cəlb edir. Onlardan biri qismən darboğazlı olub, üzərində cızma üsulu ilə çəkilmiş üç xəttin izi qalmışdır. Digər saxsı qab hissəsi isə çox qısaboğazlı olub, çiyni üstündə, ağızdan bir qədər aşağıda qulpabənzər xüsusi çıxıntı ilə düzəldilmişdir (Tablo I).

Aşkar edilən qab parçalarından görünür ki, bir hissəsinin ağzı müəyyən qədər xaricə maili olub, en kəsiyi yarımdairəvi olan qulpu vardır. Bir qayda olaraq qulpun ucları qabın çiyni ilə ağzının kənarına birləşdirirdi. Qazıntı zamanı tapılmış dolça tipli qablardan biri yarımkürə formalı gövdəyə və bir qədər hündür boğaza malik idi. O, narın gildən əldə hazırlanmış və nisbətən keyfiyyətli bişirilmişdir. Bu tip qablardan bir başqası isə genişboğazlı olub, görünür, daha böyükhəcmli qaba mənsub olmuşdur.

Arxeoloji qazıntı sahəsindən aşkar olunmuş qulplar içərisində bir ədədi xüsusilə qeyd edilməlidir. Qarışıq gildən kobud düzəldilmiş bu qulp qabın ağzının kənarı ilə çiyninə birləşdirilmişdir. O, aşkar edilən digər qulplara nisbətən daha enli olub, en kəsiyi lentvari-düzbucaqlıdır. Qulpun ortasından aşağı hissəyə yönəlmiş ensiz novşəkilli xətt çəkilmişdir. Onu da qeyd etmək lazımdır ki, təsadüfi tapıntı olaraq belə tipdə, lakin qara rəngdə bişirilmiş xeyli qulp əldə edilmişdir [1, s.2-3]. Bu göstərilənlərdən başqa qazıntı zamanı aşkar edilən əldə formalaşdırılmış xeyli miqdarda qulplar içərisində en kəsiyi enli, yarımdairəvi olan da vardır.

Bu dərinlikdən xeyli maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Bu materialların çox hissəsini irihəcmli küplərin hissələri təşkil etmişdir. Onlar əsasən küpün ağız və gövdə hissəsinin qırıqlarından ibarət idi. Bu küplərin hazırlanmasında qum qarışıqlı gildən istifadə edilmişdir. Qabın üzərindəki məsaməliliyi örtmək üçün onların bəzilərini gil məhluluna salmışdılar. Küp hissələrinin böyük əksəriyyəti içəri tərəfdən o qədər hamar düzəldilmişdir ki, sanki içərisi xüsusi alətlə hamarlanmışdır. Onların ağızları, əsasən köbəli düzəldilmişdi.

Küplərin gövdəsinə məxsus sınıqlar toplanılmışdır. Onlardan birinin üzəri relyef formalı iri haşiyə ilə bəzədilmişdir. Bu gil qab qum qarışığı olan

gildən əldə formalaşdırılıb, açıq-qara rəngdə bişirilmişdir. Digər belə bir küp hissəsi narın gildən düzəldilib, üzəri küknar yarpağıtək-sünbülvari bəzədilmişdir. Əvvəlcə həmin qabın üzərində qalın lentvari qurşaq düzəldilmiş, sonra isə kəmərin üzəri cızma-basma üsulu ilə bəzədilmişdir. Eyni formalı qablardan birinin üzərində sünbülvari naxışla yanaşı, üç ədəd bir-birinə paralel kəsmə xətt çəkilmişdir.

Bu dərinlikdə ən çox maraq doğuran keramika nümunələri dopular və çölməklərə aid olan fraqmentlər idi. Dopular tünd boz rəngdə olub, gilinin tərkibi qum qatışıqlıdır. Ağız kənarları azacıq xaricə qatlanıb, oturacaqları düzdür. Dopu fraqmentlərinin səthi sığallanmış və ya zəif cilalı səthində naxışlar azdır. Təsadüfi hallarda çiyin hissəsinin kəsmə xətlərlə əhatələndiyi dopulara rast gəlinir.

Ümumiyyətlə, Üzərliktəpənin keramika nümunələrinin analoji oxşarlarına Azərbaycanın əksər tunc dövrü abidələrinin axeoloji qazıntılarında da rast gəlinmişdir [4, s.161-163; 5, s.84-88; 6, s.293-295; 7, s.90-91; 8, s.94-96; 9, s.550-551; 10, s.145-147; 11, s.47-48; 12, s.168-169; 13, s.265-276]. Əsasən qara və tünd boz rəngli çölməklər çox az saydadırlar. Çölməklərin üzərində his qalıqlarına rast gəlinməsi onların məişətdə geniş istifadə edildiyini göstərir. İri dənəli qum qarışıqlı çölməklər zəif bişirilmiş, geniş və düz oturacağa malikdirlər. onlar müxtəlif dərəcədə bişirildiyindən üzərilərində müxtəlif rəngli ləkələr nəzərə çarpır. Çölməklər ağız kənarı yüngülcə yana açılaraq düz və ya çəpinə vəziyyətdə kəsilən qabarıq gövdəli, gen ağızlı qablardır. Sarvantəpə yaşayış yerinin çölmək tipli qablarında Üzərliktəpədən fərqli olaraq əsasən zəif cilalar səciyyəvidir [6, s.294-296]. Çölməklər ilk tunc dövründən başlayaraq tunc dövrünün sonuna kimi heç bir ciddi dəyişikliyə uğramadan istehsal edilmiş və işlədilmişdir.

Yerüstü materiallar içərisində II qrup tapıntıları daş məmulatı təşkil edir. Daş məmulatına aşağıdakılar daxildir:

-sürtgəclər;
-dən daşları;
-həvənglər;
-dəstələr;
-döyüm alətləri;
-daşdan yonulmuş və natamam qalmış bəzi fiqurlar.

Sürtgəclər çox saydadır və əsasən boz rəngli, bərk cinsli çay daşlarından hazırlanmışdır. Bütövünə rast gəlinməmişdir. Tapılan qırıqların uzunluğu 10-25 sm arasında, eni isə 15-20 sm arasında dəyişirlər.

Dən daşları daha çox tapılmışdır [1]. Ən çox qayıqvari formalarına təsadüf edilir. Onların bütövünə rast gəlinməmişdir. Uzunluqları 10-45 sm, enləri 15-30 sm arasında, qalınlıqları isə 10-25 sm arasında dəyişirlər. Onların bəzilərinin təsviri belədir:

-qırmızımtıl-narıncı rəngdə olub, ovalşəkilli dən daşı hissəsi. İşlək hissəsi hamardır. Hündürlüyü 6 sm, uzunluğu 16 sm, eni 14 sm-dır.

-boz rəngli çaydaşından hazırlanmış dən daşı hissəsi. Ovalşəkilli işlək hissəsi hamar olmaqla yanaşı, digər tərəfinə nisbətən bir qədər enlidir. Uzunluğu 14 sm, eni 12 sm, hündürlüyü 4 sm-dır.

-dən daşı hissəsi – tufdaşına bənzər, bənövşəyi rəngli, ovalşəkilli daşın bir hissəsidir. Eni 10,5 sm, uzunluğu 4,3 sm, hündürlüyü isə 4,6 sm-dır.

-dən daşı hissəsi – tünd qəhvəyi rəngdə çaydaşından yonulub, orta hissədən sınmışdır. Bir tərəfi ovaldır. Eni 12 sm, uzunluğu 13 sm, hündürlüyü 4,3 sm-dır.

-qayıqvarı dən daşı hissəsi – aşıq-qəhvəyi rəngli çaydaşından düzəldilib. Hər iki tərəfindən-yanlarından qırılmışdır. Uzunluğu 14,5 sm, eni 10,5 sm, hündürlüyü isə 6 sm-dır.

Hələlik bir həvəng və iki dəstə tapılmışdır. Həvəngin ortası batıqdır. Bu batığın diametri 10 sm-dır. Döymə nəticəsində yaranmışdır. Onun uzunluğu 20,2 sm, eni 16 sm, qalınlığı və ya hündürlüyü isə 13 sm-dır. Həvəng bərk cinsli tuf daşından hazırlanmışdır. Çox maraqlıdır ki, o bütöv qalmışdır və yaşayış yeri yerləşən təpənin şərq ətəyindən tapılmışdır. Onun lap yaxınlığından boz rəngli çay daşından dəstə də tapılmışdır. Dəstə qırıq vəziyyətdə olsa da az bir hissəsi qırılmışdır. Onun hazırkı vəziyyətdə uzunluğu 15 sm, eni isə 6 sm-dır. Qeyd edək ki, bu dəstənin biz ucu döymə nəticəsində kiçik qopuqlarla müşahidə edilir.

Döyüm alətləri sayca daha çoxdur. Onlar həm tuf, həm də bazalt daşından hazırlanmışdır. Döyüm alətlərinə yerüstü materiallar içərisində bütöv rast gəlinməmişdir. Onların bəziləri düz–uzunsov formalı, bəziləri isə bir başı yumru, bir başı isə nazik (ələ uyğunlaşdırılmış formada) olmuşdur. Döyüm alətlərinin çox tapılmasının əsas səbəblərindən biri də ehtimal ki, məişətdə və təsərrüfatda onlardan daha çox istifadə olunmaları olmuşdur.

Daş məmulatı içərisində bəzi daşlar da vardır ki, onlardan fiqur düzəldilməsi izləri aydın görünür. Amma onların üzərində proses natamam qalmışdır. Buna görə də onları tamlıqla fiqur adlandırmaq düzgün deyildir [1].

Digər bir daş isə qoç və ya qoyun başını eynilə xatırladır. Hətta onun ağız və göz cizgiləri dəqiqliklə işlənilmişdir. Onun uzunluğu 36 sm, eni isə 21 sm-dır.

Kiçik ölçülü çay daşından hazırlanan daş əşya isə daha çox çəki daşını xatırladır. Onun hər iki tərəfi üçbucaq formalı olub, ortası nə üçünsə bağlanmaq üçün yonulmuşdur. Ondan daha çox çəki daşı kimi istifadə olunması maraq doğurur. Uzunluğu 6 sm, eni isə 5-7 sm-dır.

Tapıntılar içində bir ədəd daşdan hazırlanmış möhür xüsusilə maraqlıdır. Qırmızı tuf daşından kəsilərək düzəldilən piramida formalı möhürün yuxarısında ip keçirmək üçün ilgək yeri vardır. Möhürün yastı üzündə qa-

şıma və ya qazma üsulu ilə xaçvari svastika verilmişdir (Tablo IV). Diametri 2,4 sm idi. Ondan fərqli olaraq tapılmış digər möhür gildən hazırlanmışdır və xaç formasındadır. Onun üzərində basma nöqtələrlə və çərtmələrlə naxışlar salınmışdır. Yan səthlərdə isə barmaqla salınan basma naxışlar simmetrikdir. Onun ölçüsü 5,5-6,5 sm arasındadır (Tablo III).

Daş məmulatı ən çox sürtgəclərdən ibarət idi. Onlar müxtəlif ölçülü olub, irili-xırdalı idilər. Sürtgəclərin demək olar ki, hamısı bərk cinsli çay daşından hazırlanmışdır. Onlarla yanaşı müxtəlif döyüm alətləri də mövcud idi. Obsidiandan və çaxmaqdaşından hazırlanan kəsicilər isə yaxşı qəlpələnmiş və dişəklənmişdir (Tablo V).

Metaldan hazırlanmış iynə və biz ucları bir qədər keyfiyyətsiz qalmışdır. Tuncdan hazırlanmış iynələr və biz ucları ölçülərinə görə müxtəlifdirlər (Tablo IV). Tuncdan hazırlanmış bir ədəd yarpaq formalı ox ucluğu isə yaxşı qalmış, nisbətən uc hissəsi qopmuşdur. Onun uzunluğu 2,2 sm-dır. Sümük ox ucluğu isə daha yaxşı qalmış və onun uzunluğu 4,6 sm-dır. Sümük ox ucluğunun ağac saplağa keçirilən hissəsi daha uzundur (Tablo IV).

Tapılmış iy başlıqlarının hamısı daşdan hazırlanmışdır (Tablo II, IV). Onlar ölçülərinə görə müxtəlif olsalar da məzmunca bir birini təkrarlayırlar. Diametrləri 2,6-5 sm arasında dəyişirlər.

Gildən hazırlanmış təkər modeli isə Üzərliktəpənin qədim sakinlərinin təsərrüfat həyatında və məişətində irəliyə doğru təbəddülatın göstəricisidir (Tablo III).

Yaşayış yerinin arxeoloji materialları analoji olaraq Gəncə-Qazax bölgəsinin Xocalı-Gədəbəy mədəniyyətinə aid bir çox abidələri, o cümlədən Sarıtəpə [5, s.83-91], Sarvantəpə [6, s.293-296], Yastıtəpə [4; 7], Bozalqanlı [8, s.95-97], Tavatəpə [11, s.47-48], I Seyidlər [14, s.1-2] və s. kimi abidələrin keramika və daş məmulatı ilə üst üstə düşür.

Üzərliktəpə yaşayış yerində aparılmış ilkin arxeoloji tədqiqatlar və kəşfiyyat işləri bu yaşayış yerinin birtəbəqəli olmasını və yaşayışın fasiləsiz olaraq IV-V əsr ardıcıl davam etməsini göstərir. Yaşayış yeri həm yaylaq-qışlaq maldarlığı ilə, həm də əkinçiliklə məşğul olan yerli tayfalara məxsus olmuş və bu yaşayışın nəticəsi olaraq təpənin qədim sakinləri çox ehtimal ki, geniş hasarlı müdafiə istehkamlı yaşayış evləri inşa edə bilmişdirlər. Tunc dövründə orta Kür hövzəsinin iri yaşayış yerlərində dəqiq planlı qalaların, müxtəlif sənətkarlıq istehsalının olması, habelə onların ətrafında iri qəbristanlıqların meydana gəlməsi və s. əlamətlər həmin yaşayış yerlərinin protoşəhər simasını göstərir. Bu baxımdan Üzərliktəpə yaşayış yerində də arxeoloji tədqiqatlar zamanı tapılan artefaktlar şəhərləşmə prosesinə başlayan yaşayış yerlərində kənd təsərrüfatı, sənətkarlıq, ticarət, hərb sənəti, mədəniyyət və digər sahələrin qarşılıqlı vəhdətdə xeyli inkişaf etdiyini göstərir.

## ƏDƏBİYYAT

1. Nəcəfov Ş.N. SCPX infrastruktur layihəsi ilə bağlı kəmər marşrutunun 335-356-km-də, Zəyəmçay abidələrində (katakomba yeri, Zəyəm yaşayış yeri, Zəyəmçay nekropolu, Zəyəm müsəlman qəbristanlığı, Zəyəmçay kurqanı) aparılmış arxeoloji tədqiqatlar haqqında qısa elmi arayış. Bakı, 2015, AMEA AEİ Arxeoloji xidmət şöbəsi, YTSAT sektoru. Q/s hes. 01.2015, 4 s.
2. Гусейнова М.А. Из истории Южного Кавказа. Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв. до н.э.). Баку, 2011, 200 с.
3. Nəcəfov Ş.N. Zəyəmçay nekropolunun məişət keramikası haqqında //Azərbaycan arxeologiyası № 1-4, 2005, s.18-28.
4. Nəcəfov Ş.N. Yastıtəpə yaşayış yerində arxeoloji qazıntılar (Ağstafa rayonu) //Azərbaycanda arxeoloji tədqiqatlar -2010. Bakı, "Xəzər Universiteti", 2011, s.159-167.
5. Nərimanov İ.H. 1960-ci ildə Sarıtəpədə arxeoloji qazıntılar //Tarix İnstitutunun Əsərləri, XVI cild. Bakı, 1963, s.81-98.
6. Наджафов Ш.Н. Археологические раскопки на поселении Сарван-тепе (Рус-тепе) в 2009-2010 гг. //История и её проблемы №2, 2011 (1997-056). Баку, 2011, с.291-300.
7. Наджафов Ш.Н. Краткие сведения об археологических раскопках в древнем поселении Ястытепе (Азербайджан, 2010-2011 гг.) //Этносоциум и межнациональная культура, сентябрь 2012 №7 (49)1, Москва, 2012, с.84-94.
8. Hüseynov M.M., Nəcəfov Ş.N. Bozalqanlı yaşayış yerinin arxeoloji tədqiqinin ilk yekunları //Azərbaycan arxeologiyası, cild 15, №1, 2012, Bakı, 2013, s.92-101.
9. Hüseynov M.M. Qıraq Kəsəmən ilk dəmir dövrü yaşayış yeri haqqında //Elmi axtarışlar, XV toplu. Bakı, "Səda", 2005, s.550-554.
10. Qazıyev S.M. Qazax və Ağstafa rayonlarındakı arxeoloji və tarixi abidələr haqqında (1957) //AMM, VI cild, Bakı: Elm, 1962, s.140-150.
11. Müseyibli N.Ə. Tavatəpə son tunc-ilk dəmir dövrü yaşayış məskəni haqqında /2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Bakı: Nafta-Press, 2007, s.46-48.
12. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку, «Агридаг» 1999, 180 с.
13. Погребова М.Н. История восточного Закавказья. Вторая половина II –начало I тыс. до н.э. (по археологическим данным). М., «Восточная литература», 2011, 422 с.
14. Əsədov V.A. SCPX infrastruktur layihəsi ilə bağlı kəmər marşrutu üzərindəki I Seyidlər yaşayış yeri və nekropolunda aparılmış arxeoloji tədqiqatlar haqqında qısa elmi arayış. Bakı, 2015, AMEA AEİ AX şöbəsi YTSAT sektoru. Q/s hes. 09.2015, 2 s.

## Summary

## Uzarliktepe settlement (Shamkir district)

## Shamil Najafov

Uzarliktepe settlement was discovered by the expedition team in October 2014, at 335 km of the SCPX pipeline route, during the archaeological research and exploration activities around the river Zayam. The site is located in the area of Bayramli village in Shamkir region, to the south from the village, about 1 km away from Zayam river, among the hills not too high. The site is about 3 hectares.

The settlement is located at an altitude of 321 meters above the sea level. The centre of the hill where the site located is a great plain, and in some places there are elevations in the form of a high hill (about 1.5-2 m high). Presumably, these are places of constructions. The north-eastern foot of the hill was washed out as a result of rainwaters and artifacts were revealed. During the search and observations a large number of ceramic samples, spindle tips, metal samples and stone tools were found. Black glossy gray, light red and brown jug, pot, jug-shaped pottery fragments were obtained. Archaeological observations and found artifacts found allowed to utter initial scientific ideas about the period, structure and the area of the monument. As a result of the analysis of the ceramics and other artifacts the site was proven to be a place of residence having rich cultural layer belonging to the II-I millennium B.C.

**Key words:** Uzarliktepe settlement, late bronze-early iron period, cultural layer, archaeological investigation

## Резюме

## Поселение Узерликтепе (Шамкирский район)

## Шамил Наджафов

Поселение Узерликтепе было обнаружено в октябре 2014 года, на 335 км трубопровода SCPX экспедиционной группой, проводившей археологические исследования и разведочные работы вокруг Заямчая. Поселение расположено на территории села Байрамлы, к югу от села, среди невысоких холмов, находящихся на расстоянии примерно километр от реки Заям. Площадь поселения равна примерно 3 га.

Поселение расположено выше 321 метра от уровня моря. Середина холма, на котором находится поселение, представляет большую равнину, где местами имеются высоты в виде высоких холмиков (высотой в 1,5-2 метра). Они, предположительно, являются строениями. Северо-восточный склон

холма был промыт дождями в результате чего обнажились остатки материальной культуры. Во время разведки были найдены многочисленные образцы керамики, пряслица, образцы металла и каменные орудия. Были добыты также фрагменты глиняных кувшинов, котлов, горшков серого, светло-красного, коричневого, бурого цвета. Попадались и черепки чернолощеных сосудов. Археологические наблюдения и полученные артефакты позволили высказать первоначальное научное мнение о периоде, структуре, площади памятника, а результаты анализа керамики и других артефактов подтвердили, что этот памятник является поселением, обладающим богатым культурным слоем II-I тыс. до н.э.

**Ключевые слова:** Поселение Узерликтепе, период поздней бронзы-раннего железа, культурный слой, археологические исследования



Tablo I. Keramika fraqmentləri



Tablo II. Gil qab nümunələri və iy başlıqları




Tablo III. Təkər modeli, gil möhür, butə və zoomorf gil fiqur




Tablo IV. Metal və sümük ox ucluqları, daş pintader, iy başlığı




Tablo V. Obsidian və çaxmaqdaşından hazırlanan kəsicilər

Azərbaycan Areologiyası
© Khazar University Press 2017
Volume 20 № 1 2017, 84-92
DOI: 10.5782/2218-0346.2017.20.1. 84

# Orta əsr Şəmkir şəhər yerindən tapılmış oduncaq nümunələrinin dendroarxeoloji tədqiqi

**Tarix Dostiyev, Vahid Fərzəliyev, Fərid Seyfullayev**
(Bakı Dövlət Universiteti; AMEA Mərkəzi Nəbatat Bağı)
dostiyev.tarikh@mail.ru; v.farzaliyev@yahoo.co.uk;
fseyfullayev@yahoo.com

**Açar sözlər:** Şəmkir, monumental bina, dendroarxeologiya, palıd, ardıc, subfossil oduncaq, anatomiya

Arxeoloji tədqiqatlar zamanı tapılan bütün növ qalıqlar o dövrün təbii şəraitini, bitki örtüyünü, insanların fəaliyyətini müəyyənləşdirmək baxımından çox böyük əhəmiyyət kəsb edir. Son dövrlərdə elmlərin inteqrasiyada inkişaf etməsi, arxeoloji tədqiqatlarda təbiət elmlərinin metodlarının tətbiqi ilə əlaqədar olaraq, tapılan bitki qalıqlarının növünü, eyni zamanda onun yaşını təyin etmək olur. Bitkilərdən və xüsusən də, ağaclardan çox geniş sahələrdə istifadə edildiyindən (yanacaq, qida, tikinti materialı) onların tədqiqi daha da böyük önəm daşımağa başlayır [6]. Amma, bitki qalıqları ilə işləyərkən bəzi çətinliklər yaranır. Çox vaxt onlar çürüyür, dağılır, anatomik quruluşu pozulur və bu isə növ səviyyəsində təyinat aparmaqda çətinlik törədir. Bütün bunlara baxmayaraq, cins və ya növ səviyyəsində təyinat aparmaq əsasən mümkün olur.

Arxeoloji fossil ve subfossil oduncaqlar dendroarxeoloji ve oduncaq anatomik metodlar vasitəsilə analiz edilir [7]. Ümumilikdə arxeoloji qazıntılarda müxtəlif ağac cinslərinə rast gəlinir [16]. Ən çox təsadüf edilən ağac cinsi isə palıddır [12, p.813-819]. Palıdların oduncağında yüksək miqdarda tanin maddəsi olduğuna görə, onlar nəm mühitdə uzun müddət qalmaq xassəsinə malikdirlər. Bu da palıdın oduncağını daha qiymətli edir [10, p.243-250]. Palıd uzun müddət bir yerdə qaldıqda başqa maddələrlə reaksiyaya gedib oduncaq rəngini dəyişə bilir [11, p.123-133; 13, p.298-318].

Respublikamızda meşə sahəsi çox azdır və əsasən də, dağətəyi və dağlıq ərazilərdə yayılmışdır. Meşə sahələri kifayət qədər olmadığından tarix boyu tikinti məqsədilə ağacdan az istifadə edilmişdir və geniş tətbiq edilməmişdir. XIII-XIV əsrlərdə palıd və ardıc ağacları geniş şəkildə tikintidə istifadə edilməyə başlanılmışdır. Abşeronda XIV əsrdə qalalarda mərtəbələrarası örtük kimi əsasən palıddan istifadə edilmişdir [17].

Hazırkı tədqiqatın məqsədi subfossil oduncaqların anatomik analizini aparmaq və onların növlərini müəyyən etməkdən ibarətdir.

Tədqiqat məqsədilə götürülmüş oduncaq nümunələri Orta əsr Şəmkir

şəhər yerindən tapılmışdır. Bu arxeoloji abidə Azərbaycan Respublikasının qərb bölgəsində, Şəmkir çayının sahilində yerləşir və 2007-ci ildən burada geniş miqyaslı arxeoloji qazıntılar aparılır. Arxeoloji qazıntılar nəticəsində abidənin Narınqala, Şəhristan və Rabad sahələrində olmaqla 1 hektardan artıq ərazisində mədəni təbəqə yatımı açılaraq tədqiq edilmiş, burada VIII-XIII əsrin əvvəllərində intensiv şəhər həyatını təsdiqləyən mötəbər maddi mədəniyyət qalıqları üzə çıxarılmışdır [2]. Arxeoloji tapıntılar arasında yumrudənli buğda növü, bərk buğda, arpanın həm yabanı, həm də mədəni növü, alma, şaftalı, gavalı, zoğal çəyirdəkləri, yabanı badam, qarpız, xiyar tumları, oduncaq nümunələri ilə təmsil olunan nəbati qalıqları da vardır. Şəhərin mülki binalarının öyrənilməsi zamanı, xüsusilə narınqalanın şimal-şərq sektorunda üzə çıxarılan, 2000 $m^2$-dən artıq sahəni əhatə edən monumental binanın tədqiqindən məlum olmuşdur ki, mülki memarlıqda daş hörgüdən çiy kərpic hörgüyə keçiddə ağaclardan antiseysmik kəmər kimi istifadə edilmişdir [2, s. 45-46]. Məlum olduğu kimi, orta əsr memarlarının həllinə çalışdıqları vacib problemlərdən biri inşa olunan binaların zəlzələyə qarşı dözümlüyünü təmin etmək idi. Yeraltı təkanların dağıdıcı gücünü dəf etmək, zəlzələ zamanı binanın dayanaqlığını təmin etmək məqsədi ilə dövrün memar və inşaatçıları müxtəlif üsullardan yararlanırdılar. İlk növbədə inşaat materiallarının düzgün seçiminə, onların hörgüdə yerləşməsinə, qruntun xarakterindən asılı olaraq bünövrənin dayanaqlığına, binanın konstruktiv elementlərinə düşən yükün hesablanmasına və düzgün bölüşdürülməsinə, təkanların təsirini azaldan konstruktiv elementlərin və hörgünün tətbiqinə diqqət yetirirdilər. Antiseysmik məqsədlə divarların qalınlığı artırılır, hörgüyə palıd və ardıc ağaclarından qurşaq yerləşdirilirdi [17, c.250-252].

Orta əsr Şəmkir şəhər yerində arxeoloji qazıntılar zamanı oduncaq nümunələri IX-X əsrlərə aid monumental binada və IV qazıntı sahəsinin mədəni təbəqə yatımının XIII əsrin əvvəllərinə aid inşaat qatında aşkarlanıb. Monumental binanın divarlarının aşağı cərgələrinin hörgüsü əhəngli məhlulla çaydaşından, üst cərgələri isə 30x30x10-12 sm ölçülərdə çiy kərpiclərdən hörülüb. Binanın bütün divarlarında daş hörgüdən çiy kərpic hörgüyə keçiddə üfüqi və köndələnə yerləşdirilmiş antiseysmik ağac kəmərlərinin qalıqları qeydə alınıb (şək. 1). Daş hörgünün hündürlüyü ayrı-ayrı otaqlarda fərqli olub, əsasən 60 sm - 1,4 metr təşkil edir. Çiy kərpic hörgünün qalıqlarının da hündürlüyü müxtəlifdir. Nisbətən yaxşı mühafizə olunan 9 saylı otaqda 3,2-3,8 metrdir. Yükdaşıyan xarici divarlar qəsr divarlarını xatırladır və onların qalınlığı 3-3,5 metrə çatır. Bürc hissələrdə 4-5 m təşkil edir. Otaqların arakəsmə divarlarının qalınlığı isə 1,60-1,68 metrdir. Qalıqlar əsasında otaqların əksəriyyətində antiseysmik kəmərdə tətbiq olunan tirlərin diametrinin 12-16 sm olduğunu ehtimal etmək olar. Yükdaşıyan divarlarda bəzən hətta diametri 19-20 sm olmuş tirlərdən istifadə edilib. Daş hörgünün üstündə

yerləşən ağac tir kiçik daşlar və əhəngli məhlulla işlənmiş, daha sonra çiy kərpicdən hörgü davam etdirilmişdir. Yalnız bir otaqda, 10 saylı otaqda daş hörgüdə yerləşən ağac tir əhəngli məhlul və xırda daşlarla işləndikdən sonra üzəri iki cərgə çaydaşı ilə hörülmüş, daha sonra hörgü çiy kərpiclərlə davam etdirilmişdir.



Şəkil 1. Monumental bina 3 saylı otaqda ağac qurşaqların boşluqları

Şəmkir şəhər yerində arxeoloji qazıntılar zamanı tapılmış ikinci oduncaq nümunəsi, yuxarıda qeyd olunduğu kimi, IV qazıntı sahəsində mədəni təbəqə yatımının XIII əsrin əvvəllərinə aid inşaat qatından tapılmışdır. Həmin tir qalığının uzunluğu 1,9 m, diametri daha yaxşı qalmış orta hissədə 19-20 sm idi (şək. 2).



Şəkil 2. Tapılmış arxeoloji oduncaqdan nümunə

Tapılan ağac nümunələrinin növ təyinatı AMEA Mərkəzi Nəbatət Bağının "Bitkilərin mühafizəsi və monitorinqi" laboratoriyasında aparılmışdır (şək. 3). Analizlərdə Reyxart sürüşkən tipli mikrotomdan istifadə olunmuşdur [14;15]. İlk tapılan nümunələr çox yumşaq olduğundan onlar əvvəlcə analizlər üçün hazırlanmış və mikrotomda ağac nümunələrinin çarpaz, radial və tangental kəsikləri alınmışdır. Qeyd edildiyi kimi, ilkin nümunələr yumşaq olduğundan onlar daha qalın (20 mkm qalınlığında), ikinci tapılan nümunələr isə bərk olduğundan daha nazik qalınlıqda (15 mkm qalınlığında) kəsilmişdir. Tədqiqat zamanı nümunələr mikroskop altında aydın göründüyü üçün xüsusi rənglənmə tətbiq edilməmişdir [9].



Şəkil 3. Laboratoriyada analizlər aparılan zaman

Arxeoloji oduncağın təyinatı zamanı əsas anatomik əlamətlərindən istifadə olunmuşdur. Alınan nəticələrin doğruluğunu sübut etmək üçün ədəbiyyat və atlasdakı şəkillərlə uzlaşdırılmış [14; 15], oduncağın kəsikləri eyni növə aid canlı ağacdan götürülmüş nümunənin anatomik kəsikləri ilə müqayisə edilmişdir.

Birinci ilkin tapılan oduncaq nümunələri tədqiq edilmişdir. Bu nümunələr on bir yüzillikdən artıq müddətdə divarda qalmış, çürüyərək ilkin formasını itirmişdilər. Bəzən hətta onlardan yalnız şabalıdı rəngdə toz qatı qalmışdır. Həmin nümunələrin analizi nəticəsində məlum olmuşdur ki, bu palıd ağacıdır. Palıd yarımcinsinin növlərini onun anatomik quruluşuna görə ayırmaq çətindir [8, p. 343-351]. Belə ki, tədqiq olunan nümunədə halqa boruludur və ilkin oduncaqda borular 1-2 sıra təşkil edirlər. Enli şüaları adi gözlə belə görmək olur. Çarpaz kəsikdə gecikən oduncaqda borular bir neçə radial qrupda birləşirlər və seyrəkdirlər. Libriform lifləri qalın divarlıdır. Tangensal kəsikdə şüalar bir və çox cərgəlidir. Çoxcərgəli şüalar 1 mm enində və 5 mm hündürlüyündə olur. Bəzən liflər radial şüalar ilə qarışır. Radial kəsikdə şüalar homogendilər. Peforasiya lövhəcikləri sadədir. Boru-şüa məsamələrinin dəlikləri genişlənmişdir, adətən oval formalıdır. Bütün bu əlamətlər onun palıd yarımcinsinə aid olmasını təsdiqləyir.



a b c

Şəkil 4. Subfossil palıd oduncağının anatomik analizi: Ümumi görünüş (a), çarpaz (b) və tangensal (c) kəsiklər

Qeyd edildiyi kimi ikinci oduncaq nümunəsi daha yaxşı vəziyyətdə tapılmışdır. Aşağıda sadalanan anatomik xüsusiyyət və əlamətlərə, ölçmələrə əsasən arxeoloji oduncaq nümunələrinin 140-150 yaşlı ardıc cinsinə aid olması müəyyən edilmişdir. Belə ki, illik halqalar arasındakı sərhəd kəskin seçilir, ilkin oduncaqdan son oduncağa keçid səlisdir. Aksial parenxima nisbətən çox və tangensal zəncir kimidir. Qətran yolları mövcud deyildir. Tangensial kəsikdə şüalar az olur və hündürlüyü 2-8 hüceyrə arasında dəyişir. Radial kəsikdə traxeidlərin məsaməliliyi eynicinslidir. Şüaları sadədir. Şüaların horizontal divarları hamar və qalın, tangensal divarları isə nazik və iti ucludur. Qətran yollarının olmaması, şüaların sadə və nazik olması, aksial parenximanın çox olması ardıc cinsinin əsas anatomik açar xüsusiyyətləridir (şək. 5).

Arxeoloji qazıntılar aparılan Şəmkir şəhərinin yeri və ətraf ərazilərin müasir dövrdə bitki örtüyü zəngin deyil. Bu ərazi yayı isti keçən yarımsəhra və quru çöl iqliminə malikdir. Ərazidə ağotlu-yovşanlı, topallı-yovşanlı və qışotlu yarımsəhralar, qarışıq kolluqlar (qaratikan, topulqa, murdarça, yemişan, itburnu, ardıc) üstünlük təşkil edir. Dağ meşələrinə, əsasən, Şəmkirçay hövzəsinin yamaclarında rast gəlinir. Həmin meşələrdə iberiya palıdı, qafqaz vələsi, adi göyrüş, meşəaltı kollar bitir. Şəmkir çayının sol sahillərindəki dik yamaclarda, qayalıqlarda ardıc növlərindən ibarət seyrək ağaclıqlar vardır.

Ardıc bitkisinin Azərbaycanda 7 növü yayılmışdır [3,s. 51-53]. Ardıcın müxtəlif növləri Respublikamızın əksər rayonlarında, aşağı və orta dağ qurşaqlarında, bəzən subalp qurşağadək daşlı-qayalı yamaclarda rast gəlinir. Daha iri massivi isə Türyançay Dövlət Qoruğundadır. Ardıc nümunələrinin tapıldığı arxeoloji qazıntı ərazisi Türyançay Qoruğundan təqribən 40-50 km-lik məsafədə yerləşir. Ardıc meşələrinin vaxtilə respublikamızda Üçüncü

dövr yaylasında və Qobustanda geniş sahələrdə yayılması ehtimal olunur. Bunu Binəqədidə, Pirallahı adasında, Salyan şəhəri yaxınlığında tapılmış Dördüncü dövr çöküntülərində qırlaşmış ardıc meşələrinin qalıqları və eləcə də Qobustanda bu günə qədər qalan ardıc ağacları sübut edir. Hazırda Mil düzündə qalmış tək saqqız ağacı, Qarabağ düzündəki Sultanbud saqqız meşəsi, eləcə də Samux rayonu yaxınlığındakı qazıntı və tapıntılar da göstərir ki, həmin sahələrdə bu meşələr geniş areal əmələ gətirmişlər. Xüsusilə Mingəçevir su anbarının yaradılması ilə əlaqədar olaraq xeyli sahədə ardıc və saqqız ağacları su altında qalmışdır [4, s. 172-182]. Bu da ardıcın keçmişdə də geniş yayılmasını və istifadəsini göstərir.




Şəkil. 5. Subfossil ardıc oduncağının eninə və ümumi çarpaz (a), radial (b) və tangensial kəsiyi (c), ilkin və gecikən oduncaq arasındakı sərhəd (ç)

Respublikada ən çox yayılan ağac cinsləri şərq fıstığı, qafqaz vələsi və palıd ağaclarıdır ki, onlar da ümumi meşə sahəsinin 82% -ni təşkil edir [5, s. 10-12]. Göründüyü kimi, Azərbaycanın meşə örtüyündə palıd ağacları xüsusi çəkiyə (24%) malikdir. Palıdın təbii arealı dünyada çox geniş ərazini əhatə etməklə 600-dən çox növünə rast gəlinir [18]. Qafqazın bitki florasında təsadüf edilən 17 palıd növündən, 9-u Azərbaycanın meşələrində bitir.

Bunlardan 5 palıd növü meşə əmələ gətirən edifikatorlar hesab edilir. Qalan 4 növünə isə Azərbaycanda yayılan başqa ağac cinslərinin tərkibində qarışıq halda təsadüf edilir. Palıdın da respublikmazda geniş yayılması və oduncağının möhkəm olması onun da keçmiş dövrlərdən bəri intensiv şəkildə istifadə olunduğunu göstərir.

Aldığımız nəticələr əvvəl də bu istiqamətdə respublikamızda aparılan arxeoloji tədqiqatların və tapılan oduncaq nümunələri ilə uyğun gəlir [10, p. 243-250]. Gələcəkdə bu tip tədqiqatların daha da genişləndirilərək ölkəmizin qədim və orta əsrlərdə bitki örtüyü, ondan istifadə, insan və ətraf mühit və digər problemlərə dair mötəbər mənbələrin əldə edilməsi elmi məlumatların zənginləşdirilməsində əhəmiyyətli rol oynaya bilər.

## ƏDƏBİYYAT

1. Cəlilov B.M., Fərzəliyev V.S., Seyfullayev F.S. İlk tunc dövrünə aid kurqanaltı sərdabədən tapılmış oduncaq nümunələrinin dendroarxeoloji tədqiqi. Azərbaycan MEA-nın Xəbərləri. İctimai elmlər seriyası, №2, 2016, s. 194-200.
2. Dostiyev T.M., Bəşirov R.Y., Mirzəyev R.H., Hüseynli N.N. Orta əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı: Çaşıoğlu, 2013, 516 s.
3. Əsgərov A.M. Azərbaycanın ali bitkiləri. Bakı: Elm, 2005, cild I, 248 s.
4. İbrahimov T.O., Xəlilov N.N. Türyançay Qoruğunun ekoloji şəraiti və onun yaxşılaşdırma yolları., Bakı Universitetinin Xəbərləri, Təbiət elmləri seriyası, 2012, №1, s.178-182.
5. Prilipko A.İ., Səfərov İ.S. Azərbaycanın meşə sərvətləri. Bakı: 1962, 38 s.
6. Asouti E. Woodland vegetation and fuel exploitation at the prehistoric campsite of Pınarbaşı, south-central Anatolia, Turkey: the evidence from the wood charcoal macro remains. Journal of Archaeological Science, 2003, 30: 1185-1201.
7. Cook E.R., Kairiūkštis L.A. (ed.) Methods of dendrochronology: Applications in the environmental sciences. Dordrecht: Kluwer Academic Publisher and International Institute for Applied System Analysis, 1990: 408 pp.
8. Feuillat F., Dupouey J.–L., Sciama D., Keller R.: A new attempt at discrimination between *Quercus petraea* and *Quercus robur* based on wood anatomy. Canadian Journal of Forest Research, 1997 , 27(3): 343–351.
9. Ives E. A guide to wood microtomy: Making quality microslides of wood sections. Suffolk, UK: Publishing Office Ernie Ives, 2001, 114 pp.
10. Kalicki T., Krąpiec M. Problems of dating alluvium using buried subfossil tree trunks: Lessons from the „black oaks“ of the Pistula Halley, Central Europe. The Holocene, 1995, 5(2): 243–250.
11. Kolář T., Rybníček M. Physical and mechanical properties of subfossil oak (*Quercus* sp.) wood. Acta Universitatis agriculture et silviculture Mendelianae Brunensis, 2010, 58(4): 123–133.

12. Krąpiec M., Subfossil oak chronology (474 BC – AD 1529) from Southern Poland. In Tree Rings, Environment and Humanity. J.S. Dean, D.M. Meko a T.W. Swetnam. Tucson, Arizona: Radicarbon, Sp. Iss. 1996, pp. 813–819.
13. Leuschner H.H., Delorme A., Höfle H.C. Dendrochronological study of oak trunks found in bogs in northwest Germany. In: Proceedings of the International Symposium on Ecological aspects of Tree-Ring Analysis. Tarrytown, New York, USA. 1986, pp. 298–318.
14. Schoch W., Heller, I., Schweingruber F.H., Kienast F., 2004: Wood anatomy of central European Species. Online version: www.woodanatomy.ch
15. Schweingruber F.H. Microscopic wood anatomy; Structural variability of stems and twigs in recent and subfossil woods from Central Europe. 3rd edition 1990. Birmensdorf, Eidgenössische Forschungsanstalt WSL, 1990.
16. Taylor T.N., Taylor E.L., Krings M. Paleobotany: The biology and evolution of fossil plants. Second Edition. Burlington, Elsevier Academic Press, 2008, 1252 pp.
17. Мамедзаде К.М. Строительное искусство Азербайджана (с древнейших времен до XIX в.). Баку: «Элм», 1983, 334 с.
18. Меницкий Ю.Л. Обзор видов рода *Quercus* L. Евразия. Ленинград: Наука, 1982, 58 с.

## Summary

## Dendroarchaeological investigation of the wood samples from the medieval town of Shamkir

**Tarikh Dostiyev, Vahid Farzaliyev, Farid Seyfullayev**

In this article, by the anatomical methods examined wood samples, found in archaeological excavations of the medieval city of Shamkir. It was defined that samples of wood, in anti-seismic masonry walls of the monumental building belonging IX-X centuries are oak species. Wood samples found in the cultural layer of the beginning of the XIII century belong to the species of juniper. Currently, the natural vegetation of the study area is strongly degraded. Mountain forests are mainly found on the slopes of Shamkirchay Basin. Here distributed beech, oak, hornbeam, ash, birch, poplar trees too. On the steep slopes of the left bank Shamkirchay, on the rocky slopes rarely distributed juniper. Other researchers also usually found subfossil samples belonging representatives of the juniper and oak species.

**Keywords**: Shamkir, monumental building, dendrochronology, oak, juniper, wood, anatomy

## Резюме

## Дендроархеологическое исследование образцов древесины из средневекового городища Шамкир

**Тарих Достиев, Вахид Фарзалиев, Фарид Сейфуллаев**

В данной статье методом анатомического исследования изучены образцы древесины, найденные из археологических раскопок средневекового городища Шамкир. Было установлено, что образцы древесины, имеющиеся в антисейсмических кладках стен монументального здания IX-X вв. относятся к дубовым сортам, а образцы древесины найденные из культурного слоя (строительный горизонт начала XIII века) относятся к видам можжевельника. В настоящее время естественная растительность изучаемого района сильно деградирована. Горные леса в основном встречаются на склонах бассейна реки Шамкирчай. Здесь также встречаются леса из бука, дуба, граба, ясеня, березы, тополя и т.д. На крутом склоне левого берега Шамкирчай, на каменистых склонах редко встречаются древостои из можжевельника. Среди найденных другими исследователями субфоссильных образцов древесины широко встречаются представители видов можжевельника и дуба.

**Ключевые слова:** Шамкир, монументальное здание, дендрохронология, дуб, можжевельник. древесина, анатомия

Azərbaycan Areologiyası
© Khazar University Press 2017

Volume 20 № 1 2017, 93-97
DOI: 10.5782/2218-0346.2017.20.1. 93

# Azərbaycan xalq geyimlərinin Qərbi Avropa səyyahlarının gündəliklərində təsviri

**Sayad Mehtizadə**
(Bakı Dövlət Universiteti)
sayad.mehtizade@gmail.com

**Açar sözlər:** geyim, parça, səyyah, mədəniyyət, Avropa

Geyim maddi mədəniyyətin hər bir xalqı müəyyən dərəcədə fərqləndirən bir formasıdır. O "geyim əxlaqı" adlanan bir fenomeni də doğurmuşdur. Geyimlər Azərbaycan xalqının maddi mədəniyyətinin əhəmiyyətli bir ünsürüdür (2, s.140). Geyim etnik xüsusiyyətləri, xalqın məişətini, bədii zövqünü, yaradıcılıq təxəyyülünü özündə əks etdirir.

XV-XVII əsrlərin Qərbi Avropa müəllifləri müşahidəçi ruhlu olduqlarına görə, Azərbaycana səyahətləri gedişində yerli əhalinin geyim tərzi, gigiyenası, bəzək və zinət əşyaları, hətta saç düzümləri, kişilərin təraş qaydaları haqqında da qeydlər etmişlər. Təbii ki, bu məlumatlar orta əsrlərdə Azərbaycan əhalisinin geyim tiplərini ayırmaq, onların təsnifatını aparmaq, hər bölgənin xüsusiyyətini müəyyənləşdirmək üçün yetərli deyildir. Lakin, həmin məlumatlar orta əsrlərdə Azərbaycan xalqının geyim mədəniyyətinin ümumi səciyyəsini təqdim etmək üçün kifayətdir.

Qərbi Avropa müəlliflərinin qeydlərindən bəlli olur ki, bu dövrdə Azərbaycanda sənətkarlığın yüksək səviyyəsi satış məhsullarının çeşidinin artırılmasına imkan verirdi və geyim materialları içərisində yun və ipək parçalar əsas yer tuturdu. Yun parça "*suf*" adlanırdı və hətta digər ölkələrə də geniş miqyasda ixrac olunurdu. Həm yerli, həm də xarici bazarlarda ən geniş yayılmış ipək parçalar *atlas*, *tafta*, qırmızı rəngli və damalı *darai, zərbafta* hesab edilirdi. Geyimlərin hazırlanmasında "*qutni*" adlı pambıq parçalardan, "*qələmkar*" və "*bəhramuri*" adlı çit parçalardan da istifadə olunurdu.

Azərbaycana ticarət məqsədilə gəlmiş Qərbi Avropa müəlliflərinin məlumatları təsdiq edir ki, Azərbaycan əhalisi mahud parçadan da istifadə edirdi. Məsələn, XV əsrin 60-cı illərində Azərbaycanda olmuş ingilis taciri Artur Edvardsın təqdim etdiyi siyahıda İngiltərədən Səfəvi dövlətinə ixrac olunan malların içərisində *karazeya* və zərif qırmızı *mahudun* da adı çəkilir (1, s.226). Artur Edvardsın məktublarından birində Səfəvi şahı I Təhmasibin İngiltərədən öz dövlətinə ixrac olunmasını istədiyi mallar içərisində məxmərin müxtəlif növlərinə və rənglərinə (qırmızı, yaşıl və qara rəngli məxmərə) təsadüf edilir. İngilis taciri yazırdı ki, "əlahəzrət bu rəng parçaları ona görə istəyir ki, onların istehlakçısı çoxdur. Bu cür parçalar Kaşan şəhərində isteh-

sal olunurdu, lakin onların keyfiyyəti aşağıdır" (1, s.235). Şah I Təhmasibin istədiyi parçalar siyahısında tünd qırmızı və qırmızı karazeyanın (mənbədə - *western karsies*), sarı, al qırmızı, açıq yaşıl rəngli mahudun, kətan parçanın da adı çəkilir (1, s.235-236).

Bu məlumatlar Azərbaycan əhalisinin geyiminə böyük önəm verməsindən, al rəngləri daha çox sevməsindən xəbər verir. Kətan və pambıq parçalardan daha çox kişi və qadın alt geyimlərinin hazırlanmasında istifadə olunurdu. Al rəngli ipək və məxmər, yun parçalardan isə üst geyimləri hazırlanırdı. Səyyahlar bu geyimlərin çox baha olduğunu xüsusilə qeyd etmişlər. Məsələn, XV əsrin diplomatı İosafat Barbaro Təbrizdə olarkən Ağqoyunlu hökmdarı Uzun Həsənin ona ipək libas göndərdiyini bildirir, həmin libası belə təsvir edir: "Şah mənim üçün ipək libas, yəni qızıl işləməli bir qaftan göndərdi. Bel nayihəsinə qədər uzanan ipək bir şal və *bombazine*[*] adlı zərif bir qumaş idi. Onun ən azı 200 dukat dəyəri vardı" (3, s.70). Bu təsvirinə davam etmiş İosafat Barbaro yazmışdır ki, Uzun Həsən "mənə göstərmək üçün qaftanları gətirməyi əmr etdi. Qaftanlar sırmalı, ipək və yun parçalardan idilər. Astarları ipəkdən, çox gözəl olan kürkləri isə samur xəzindən idi ... Şah "bizim libaslarımız çox gözəldir, lakin bir az ağırdır" dedi" (3, s.76).

Qeyd edək ki, Azərbaycan kişilərinin geyimləri XV-XVII əsrlərin Qərbi Avropa sakinləri üçün xeyli təəccüblü idi. Buna görə də onlar həmin geyimləri çox zaman bəyənmirdilər. Məsələn, Adam Oleari yazırdı: "Onların geyimləri bədənlərindən boş sallanır və səliqəsizdir. Uzaqdan kişiləri qadınlara bənzətmək olar... Kişilər başlarına iri, enli sarmaları olan, çit yaylıqdan düzəldilən çalma qoyurlar. Bu yaylıqlar "mendil" adlanır. Həmin yaylıqlar rəngli zolaqlarla toxunur. Bəziləri qızılı saplarla tikilir və uzunluğu 16-18 dirsək olur, ruhanilərin, xüsusilə hafizlərin çalma sarıqları, geyimləri kimi ağ olur ...

Seyidlərin çalmaları yaşıl rəngdədir. Bəziləri başına yun papaq qoyur. Həmin papaqların üzü Buxara qoyununun yunundan olur (qaragül dərisindən hazırlanan "*buxara papaq*" – S.M.) ... Bu cür çalmaları və papaqları kişilər qışda da, yayda da qoyurlar. Çox maraqlıdır ki, onlar ən isti yay günlərində başlarının belə istidə qalmasına necə dözürlər?.. Kişilər rəngli çit və ya ipək parçadan tikilmiş uzun qaftanlar geyirlər. Çit köynəklər tikmə güllərlə bəzədilir... bel nayihəsini xüsusi yaylıqla və yaxud kəmərlə bağlayırlar. Buna "darkisə" (Olearidə *tzarkesi* – S.M.) deyirlər. Çünki uzunluğu 4 dirsək olur. İmkanı olan *şal* da bağlayır... Şah və bütün əsilzadələr təsvir edilən köynəyin üstündən qısa plaş və ya kopyuşon geyirlər. Buna "*kürdü*" deyirlər. Bu plaşlar bizim qadınların kürkləri kimi qolsuz olur. Ətəyi sincab xəzi

[*] Qeyd. *Bombasine* və ya *bombazine* – yundan və ipəkdən hazırlanan qumaş növü idi.

ilə tikilir... Şalvarları çit parçadan olur, dizləri dar tikilir, boş bədənə geyilir, qaytanla yığılır. Onların corabları mahuddandır və heç bir bəzəyi yoxdur" (5, s.770).

Adam Olearidən 100 il öncə Azərbaycanda olmuş Mikele Membre isə yazmışdı: "Sufinin (Səfəvi şahının – S.M.) əyanları, bütün sufilər (Səfəvilər nəsli – S.M.) gecə-gündüz başlarına onun babasının qoyduğu 12 zolaqlı, "Sultan-Heydəri" adlanan qırmızı papaq qoyurlar. Sonralar Şah İsmayıl bu papağın biçimini dəyişdi. Şaha yaxın olanlar, onun ən sevimliləri və onunla tez-tez ünsiyyətdə olan şəxslər başlarına qara, qırmızı və yaşıl məxmərdən papaq qoyurlar. Onların paltarları osmanlılarınkı kimi dar deyil, paycami kimi gendir... Onlar başlarına qoyduqları çalmaların üzərinə firuzə və yaqutla bəzədilmiş qızıl zolaq da taxırlar. Bəziləri üç və ya dörd qızıl zolaq vurur. Onlar aşağı qismi qiymətli daşlarla bəzədilmiş qızıl lələklər də taxırlar. Şah şənliklər keçirdiyi zaman onların hamısı belə geyinir" (7, s.46-47).

Yenə Mikele Membredə şah Təhmasibin və əyanlarının geyimi ilə bağlı oxuyuruq: "Şah başına çalmadan papaq qoyur. Bu papaq başdan ayağa ağ parça ilə sarınmışdır. Beləliklə, bu çalmanı hədiyyə kimi alanların hamısı onu 3 və ya 4 gün belə qoyur, sonra isə onu başqa cür bağlayırlar. Onlar bu cür bağlama üsulunu "şah dəsturu" adlandırırlar. Üskü (Təbriz yaxınlığındakı kəndin adı – S.M.) seyidləri, eləcə də Qazi Cahan (şah Təhmasibin vəziri – S.M.), şahın qardaşları və qorçilər başlarına şahın qoyduğu tacdan qoyurlar. Şahın özü verməyincə, onlardan heç kim məxmər tac, qızıl kəmər, qızıl mehtərə, başlarında lələklər, qızıl qınlı qılınc gəzdirə bilməzdilər" (7, s.62).

Mikele Membre Azərbaycan qadınlarının geyimləri ilə bağlı yazır: "Onların qadınları gözəldir və gözəl geyinirlər. Boyunlarına gözəl, böyük və yumru mirvari boyunbağı taxırlar" (7, s.52).

Avropalılar Azərbaycan qadınlarının zinət əşyalarını görüb-bəyəndiklərindən onları öz ölkələrinə də aparırdılar. Azərbaycandan gətirilən daş-qaşlar, zinət əşyaları avropalıların məişətinə daxil olmağa başlayır. Azərbaycan qadınlarının boyunlarını bəzəyən mirvari Venesiya qadınlarının da bəzək-düzək dünyasını zənginləşdirirdi" (4, s.239).

Adam Olearinin təsvir etdiyi qadın geyimləri isə xeyli cəlbedicidir və görünür ki, müəllifin özünün də xoşuna gəlmişdir: "Qadınların geyimi kişilərinkinə nisbətən yüngüldür və bədənin ətrafına dolanmır. Şalvarları və köynəkləri isə kişilərinki kimidir. Corabları qırmızı və ya yaşıl məxmərdəndir. Başlarında xüsusi bəzəkləri olmur. Saçlarını hörür, birini önə, digərini arxaya atırlar. Boyunlarına iki düzüm mirvari və yaxud boyunbağı salırlar... Qadınlar küçəyə çıxarkən üzlərini açıq qoymurlar və başdan ayağadək uzanan ağ örtüyə bürünürlər" (5, s.771-772).

Avropalı müəlliflərin əsərlərində Azərbaycan qadın geyimlərinin təsviri məhz buna görə (yəni qadınların bayırda örtülü olmasına görə) ətraflı deyil. Lakin vasitəli surətdə aydın etmək olar ki, qadın üst geyimləri öz rəngarəngliyi, çoxtipliyi ilə seçilmişdir. Xüsusilə zəngin ailələrin qadın libasları bahalı parçalardan (ipək və məxmərdən) olur, qiymətli daş-qaşla, qızıl zinət əşyaları ilə bəzədilir. Qadınlar təravətli və gözəl görünmək üçün kosmetik vasitələrdən də geniş istifadə etmişlər. Adam Oleari bu barədə yazmışdır: "Onlar bütün türklər kimi, əllərini həna ilə bəzəyirlər. Bəziləri isə yalnız barmaqlarını və dırnaqlarını həna ilə rəngləyirlər ... Bu cür boyadan toylarda da istifadə olunur və qonaqlara təklif edilir. Həmin boya "həna" (chinne) adlanır" (5, s.766).

Avropalıların Azərbaycanla, həm də Şərqlə tanış olması və qarşılıqlı əlaqələr yaratması onların geyimlərinə də təsir etmişdir. Məsələn, "venesiyalı xanımlar da şərqsayağı qızılı və gümüşü sapla çəkilmiş zərxara parçalardan don geyinməyi sevir və bu cür libasları olması ilə öyünürdülər". (4, s.239)

Azərbaycan əhalisinin geyimlərini bəyənib-bəyənməməsindən asılı olmayaraq, Qərbi Avropa səyyahlarının təqribən hamısı xalqımızın çox təmizkar olduğunu dəfələrlə qeyd etmişdir. Yan Streys yazmışdır ki, bu ölkədə "hamamlar səhərdən axşamadək dolu olur" (6, s.230). Yan Streysin sələfi (Adam Oleari – S.M.) isə Azərbaycan əhalisini ruslarla müqayisə edib yazırdı: "Azərbaycan əhalisi çox təmizkardır. Həm evlərini, həm *geyimlərini* (kursiv bizimdir – S.M.) təmiz saxlayırlar. Zəngin şəxslərin geyimi bir az kirlənən kimi onu dərhal atırlar. Kasıb əhali isə ruslardan fərqli olaraq, hər həftə paltarlarını yuyur. Rusların paltarı həmişə çirkli olur, Azərbaycan əhalisinin tövlələri rusların evlərindən təmizdir" (5, s.772).

Beləliklə, Azərbaycan mədəniyyətinin təşəkkülünün və inkişaf yolunun öyrənilməsi üçün qiymətli mənbə olan xalq geyimləri həm də XV-XVII əsrlərdə ölkənin ictimai vəziyyətini, xalqın maddi mədəniyyətinin səviyyəsini müəyyənləşdirmək üçün zəruridir. Bu dövrün Qərbi Avropa səyyahlarının məlumatları təsdiq edir ki, ayrı-ayrı məhəlli fərqlərə baxmayaraq, Azərbaycanın kişi və qadın geyim tipləri Ümumxalq geyim fondunu təşkil etmişdir. Azərbaycanın xalqının orta əsr geyimləri onun qədim tarixə və milli-mədəni vəhdətə malik olduğunu sübut edir.

## ƏDƏBİYYAT

1. Английские путешественники в Московском государстве в XVI веке. Перевод с англ. Ю.В.Готье. Москва: Соцэкгиз, 1938, 308 с.
2. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Oçerklər. Bakı: Elm, 1991, 256 s.
3. Josaphat Barbaro. Anadoluya ve İrana seyahat. Çeviri ve notlar: Tufan Gündüz. İstanbul: Yeditepe Yayınevi, 2005, 135 s.

4. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006, 416 s.
5. Подробное описание путешествия Гольштинского Посольства в Московию и Персию в 1633, 1636 и 1639 гг., составленное секретарем посольства Адамом Олеарием / Перевел с немецкого языка П.Барсов. Изд. Императорского Общества истории и древностей России при Московском Университете. Москва, изд. Университетской типографии, 1870, 1070 с.
6. Стрейс Я.Я. Три путешествия / Перевод Э.Бородиной. Москва: Соцэкгиз, 1935, 383 с.
7. Venesiyalılar Şah Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri). Bakı: Təhsil, 2005, 112 s.

## Summary

## Azerbaijani national clothing in the diaries of western travelers

**Sayad Mehtizadeh**

Clothing reflects the cultural heritage and traditions of each nation. Azerbaijani people paid special attention to linen, cotton and silk. Beautiful samples of clothes made from these tissues lead to Europeans' delight. Golden and silver jewelry of Azerbaijani women attracted attention of Europeans and went into their everyday life. The medieval clothing of Azerbaijani people confirms the fact of having of our people an ancient history and national-cultural unity.

**Key words:** clothing, fabrics, traveler, culture, Europe

## Резюме

## Азербайджанская народная одежда в дневниках западноевропейских путешественников

**Саяд Мехтизаде**

Одежда отражает в себе культурное наследие, традиции каждого народа. Льняная ткань, хлопок и шелк, которым население Азербайджана придавало особое значение, а также шитые из этих тканей прекрасные образцы одежды приводили европейцев в восторг. Золотые и серебряные украшения азербайджанских женщин привлекали внимание европейцев и вошли в их быт. Средневековая одежда азербайджанского народа подтверждает факт обладания нашим народом древней историей и национально-культурным единством.

**Ключевые слова:** одежда, ткань, путешественник, культура, Европа

## Yeni kitablar. New books

**Xəqani İmran oğlu Alməmmədov "Qarabağın arxeoloji abidələri toplusu", I kitab, Bakı: "Çap Art" Nəşriyyat evi, 2016, 488 s.**

Kitab "Qarabağ neolit-eneolit ekspedisiyası"nın 2010-2013-cü illərdə Qarabağ düzənliyi ərazisində apardığı arxeoloji kəşfiyyat işlərinin nəticəsində müasir texniki vasitələrlə qeydiyyata alınaraq xəritələşdirilən, Qarabağ düzənliyinin arxeoloji abidələrinin vahid "Coğrafi Məlumat Bazası"na daxil edilən neolit və eneolit dövrü abidələrinin bir qismini əhatə etmişdir. Belə ki, kitabda Qarabağın erkən əkinçi-maldar tayfalarına və Leylatəpə mədəniyyətinə aid 99 abidə haqqında məlumat verilmişdir.

**Khagani Imran oqlu Almammadov "The corpus of archaelogical monuments of Garabagh", book I, Baku: "Çap Art" Nəşriyyat evi, 2016, 488 p.**

The book includes part of Neolithic and Eneolithic monuments fixed as a result of survey works carried out by the "Garabagh Neolithic-Eneolithic Expedition" on the territory of the Garabagh plain in 2010-2013. The book provides information about 99 out of the 150 fixed monuments, settlements of early farmers-cattle-raisers, and the Leilatepe culture identified through archeological exploration.

* * *

**Qəbələ arxeoloji ekspedisiyası: hesabatlar, tapıntılar 2014. Bakı – CBS – 2016, 227 s.**

Qəbələ şəhərində aparılan arxeoloji tədqiqatlar nəticəsində elmimiz üçün həqiqətən mühüm əhəmiyyət kəsb edən çox maraqlı tapıntılar əldə olunmuşdur. Əldə edilən bütün eksponatlar haqqında dövri hesabatlar və tapıntı kitabları nəşr olunur. "Qəbələ arxeoloji ekspedisiyası" adlı silsilə lahiyənin davamı olan bu kitab-albom sayca altıncı nəşrdir. Kitabda 2014-cü ildə Azərbaycandan və Koreyadan olan arxeoloqlar tərəfindən Antik, Səlbir əraziləri, Dizaxlı kəndi və Soltannuxa Antik dövr qəbirstanlığında aparılan tədqiqatlarının nəticələri əks olunmuşdur.

**The Gabala archaeological expedition: reports, findings. Baku – CBS – 2016, 227 pp.**

Thanks to the archaeological investigations in Gabala city, interesting finds have been found from scientific point of view. All the finds are published in the books of periodical reports and finds. This book-album is the continuation of "The Gabala Archaeological Expedition" series project and is the sixth edition. The book presents the results of the investigations carried out in the Ancient and Salbir sites, Dizakhli village and Soltannukha Ancient cemetery by the Azerbaijani and Korean archaeologists in 2014.

* * *

**Nuridə Qədirova-Atəşi. Avropa muzeylərində Qafqaz arxdeoloji kolleksiyaları (Ali məktəb tələbələri üçün dərs vəsaiti). Bakı: “Ol” npkt, 2016. 452 s.**

Dərs vəsaitində Avropa muzeylərində - Almaniyada, Fransada, Avstriyada və Rusiyada saxlanılan Qafqaz kolleksiyaları ilk dəfə olaraq geniş tədqiqatlara cəlb olunmuşdur. Təqdim edilən dərs vəsaitində Qafqaz tarixşünaslığında mövcud olan bir çox problemlərə diqqət yönəldilir. Ən başlıca isə, Qafqaz arxeoloji kolleksiyaları Xocalı-Gədəbəy mədəniyyətinin maddi mədəniyyət nümunələri əsasında işlənmiş, eləcə də Xocalı-Gədəbəy mədəniyyətinin bu və ya digər nəzəri məsələlərinə də geniş yer ayrılmışdır.

**Nourida Gadirova–Ateshi. Archaeological Caucasus collections in the European Museums (Textbook for university students). Baku: “Ol” npkt, 2016. 452 pp.**

This textbook is devoted to the scientific research of the Caucasian artefacts and material heritage treasured in the European Museums as well as to theoretical scientific issues. It reflects the preliminary results of the research carried out by the author since 2011 on the collections of the Caucasian culture treasured in museums in Germany, Austria, France and Russia. In the present textbook the archaeologic research of the Europeans in the Caucasus and the historiography dedicated to this research are presented for the first time in the form of a monograph. In this work light is shed on the scientific fate of the collections which are treasured to date in the museums and fundus in Russia and Europe, on their current state in the international historic science, also on the historiography of the Khojaly-Gedebey Kultur which was prevalent in most of the Caucasian area in the late Bronze and early Iron Ages.

* * *

**Dostiyev T.M. Azərbaycanın orta əsr şəhərləri (IX-XIII əsrin əvvəlləri). Dərs vəsaiti. - Bakı: “Elm və təhsil”, 2016, 200 s.**

Dərs vəsaitində arxeoloji tədqiqatların nəticələrinə əsaslanmaqla orta əsr Azərbaycan şəhərinin topoqrafik quruluşu, istehkamları, ictimai-dini və yaşayış binaları, mühəndis qurğuları səciyyələndirilir, şəhər iqtisadiyyatının əsasını təşkil edən sənətkarlıq və ticarətdən bəhs olunur, şəhərlərdəki mədəni həyat nəzərdən keçirilir.

**Dostiev T.M. Middle-century cities of Azerbaijan (the beginning of IX-XIII century). Textbook. - Baku “Elm və Təhsil”, 2016, 200 pp.**

Based on the results of archaeological research in the topographical structure of the Middle Ages in the textbook looks over the cultural life of Azerbaijan cities, talked about crafts and trade, which forms the basis of the city's economy, characterized fortifications, engineering facilities, social, religious and residential buildings.

* * *

**Məmmədova İlhamə. Təbriz şəhərinin maddi mədəniyyəti. (tarixi-etnoqrafik tədqiqat). Bakı, "Çaşıoğlu", 2016, 500 s.**

Monoqrafiya XIX-XX əsrin əvvəllərində (Qacarlar dövrü) Təbriz şəhərinin tarixi-etnoqrafik araşdırılmasına həsr edilir. Kitabda şəhərin coğrafi mövqeyi, siyasi tarixi açıqlanır, onun məhəllələri, yaşayış evləri, bazar kompleksi, karvansaraları, məscidləri, hamamları, bağları, meydanları, su təchizatı vasitələri, nəqliyyat sistemi, daxili və beynəlxalq yolları, yeməkləri və geyimlərinin etnoqrafik izahı verilir, Təbrizin simasında Azərbaycanın şəhər mədəniyyəti tədqiqata cəlb olunur. Tarixi mənbələr, ədəbiyyat və çöl-etnoqrafik materialları əsasında qələmə alınan əsər respublikamızda Təbriz şəhərinin maddi mədəniyyətinin öyrənilməsində ilk təşəbbüsdür.

**Mammadova Ilhama. Material culture of Tabriz city. (historical-ethnographic research). Baku, "Çaşıoğlu", 2016, 500 pp.**

The monograph is dedicated to historical and ethnographic study of Tabriz city at the beginning of the XIX-XX century (Qajar period). The book involved research of Tabriz city's culture, food and clothing are given an explanation of ethnographic, domestic and international ways, transportation system, water supply facilities, squares, gardens, baths, mosques, caravanserais, market complex, houses, its neighborhoods, the city's geographical location and political history. The work is the first initiative, which study material culture of Tabriz city and written on the basis of rural and ethnographic literature, materials and historical sources.